RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 140 (9595) 7 iyul 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Türk Birliyinin Şuşa Zirvəsi




## Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib

**İyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Zirvə görüşündə iştirak ediblər.

Prezident İlham Əliyev Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşıladı.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

→ 2-4

## Azərbaycan-İran əlaqələri regionun davamlı inkişafına və təhlükəsizliyinə xidmət edir

### İran İslam Respublikasının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Məsud Pezeşkiana

Hörmətli cənab Pezeşkian!

İran İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ortaq dini-mədəni köklər, dostluq və qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş münasibətlərə böyük əhəmiyyət veririk. Ötən onilliklər ərzində qarşılıqlı faydalı əməkdaşlığımızın bütün sahələrdə, xüsusilə də iqtisadiyyat, nəqliyyat, energetika və humanitar sahələrdə dinamik inkişaf edərək bugünkü səviyyəyə yüksəlməsi və yeni məzmun kəsb etməsi bizi sevindirir.

Bu gün qarşılıqlı hörmətə və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran əlaqələrinin gələcək inkişaf istiqamətlərinə dair əldə edilmiş razılaşmalar, icra olunan birgə layihələr ölkələrimizin rifahına, bütövlükdə regionun davamlı inkişafına və təhlükəsizliyinə xidmət edir.

Əminəm ki, birgə səylərimizlə xalqlarımızın və ölkələrimizin mənafeləri naminə Azərbaycan ilə İran arasında ənənəvi dostluq münasibətlərinin daha da möhkəmlənməsinə, qarşılıqlı maraq doğuran əməkdaşlığın genişlənməsinə nail olacağıq.

İkitərəfli əməkdaşlığımızın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparmaq məqsədilə Sizi Azərbaycana səfərə dəvət edirəm.

Sizə ən xoş arzularımı çatdırır, dost və qardaş İran xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2024-cü il*

## Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi

Türk Dövlətləri Təşkilatının (bundan sonra TDT adlandırılacaq) "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusunda qeyri-rəsmi Zirvə görüşü Azərbaycan Respublikasının təşəbbüsü ilə 2024-cü il iyulun 6-da Şuşada keçirilmişdir.

Görüşə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev evsahibliyi etmişdir. Görüşdə Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Zati-aliləri Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri Şavkat Mirziyoyev, Türkiyə Respublikasının Vitse-prezidenti Zati-aliləri Cevdet Yılmaz, Macarıstanın Baş naziri Zati-aliləri Viktor Orban, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Zati-aliləri Ersin Tatar, eləcə də Türk Dövlətləri Təşkilatının Baş katibi Zati-aliləri Kubanıçbek Ömüralıyev iştirak etmişlər.

**Türk Dövlətləri Təşkilatının dövlət başçıları,**

Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu hesab edərək;

Türk xalqlarının qitə miqyasında töhfələrini, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rolunun ən yüksək dəyərini vurğulayaraq;

Bəşəriyyət tarixində türk xalqlarının siyasi, iqtisadi və bəşəri nailiyyətlərinə əsaslanaraq;

→ 5

## Qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan - Birləşmiş Krallıq münasibətləri möhkəmlənir

### Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri zati-aliləri cənab Kir Starmerə

Hörmətli cənab Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Birləşmiş Krallıq arasında ənənəvi dostluq və çoxşaxəli əməkdaşlıq münasibətləri bizim üçün xüsusi əhəmiyyət kəsb edir.

Enerji sektorunda uzunmüddətli və səmərəli birgə fəaliyyətimiz qlobal enerji təhlükəsizliyinin təminatına mühüm töhfə verir. Eyni zamanda bərpaolunan enerji mənbələri, "yaşıl enerji"yə keçid və dekarbonizasiya məsələləri bu gün Azərbaycan-Birləşmiş Krallıq ikitərəfli tərəfdaşlıq gündəliyində aparıcı yer tutur. Bu baxımdan yaxın və etibarlı tərəfdaşımız olan BP ilə təmiz enerjiyə keçid sahəsində uğurlu işbirliyimizi xüsusi qeyd etmək istərdim. Azərbaycanın cari ilin noyabr ayında evsahibliyi edəcəyi COP29 çərçivəsində də əməkdaşlığımızın davam etdiriləcəyinə dair inamımı ifadə edirəm.

Ölkəmizin işğaldan azad edilmiş ərazilərində minaların təmizlənməsi işinə Birləşmiş Krallığın verdiyi töhfəni yüksək qiymətləndiririk.

Əminəm ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərin möhkəmləndirilməsi, əməkdaşlığımızın daha da inkişaf edərək yeni səviyyəyə qaldırılması istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2024-cü il*

## *Prezident İlham ƏLİYEV:* "Türkiyə millisinə Hollandiya ilə oyunda qələbə arzu edirəm"

Almaniyada keçirilən futbol üzrə Avropa çempionatında uğurla çıxış edən qardaş Türkiyə milli komandasını 1/4 mərhələyə vəsiqə qazanaraq 8 ən güclü Avropa millisi arasında yer alması münasibətilə təbrik edirəm.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev rəsmi "X" sosial şəbəkə hesabında paylaşım edib.

"Xüsusilə 1/8 final mərhələsində 2 qol vuraraq oyunun ən yaxşı futbolçusu seçilmiş Merih Demiralı təbrik edirəm. Merihə qarşı tətbiq edilən cəza ədalətsizdir və bunu qətiyyətlə pisləyirəm. Türkiyə millisinə Hollandiya ilə oyunda qələbə arzu edirəm!

Yaşasın Türk dünyası!" - paylaşımda qeyd edilib.

# Türk Birliyinin Şuşa Zirvəsi

## Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib




*Əvvəli 1-ci səh.*

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

Mən sizin hamınızı ürəkdən salamlayıram, Azərbaycana, Qarabağa "Xoş gəlmisiniz!"

Türk Dövlətləri Təşkilatının ildə bir dəfə qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsümü dəstəklədiyiniz və dəvətimizi qəbul edərək Şuşa şəhərinə gəldiyiniz üçün təşəkkür edirəm.

Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir.

Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir. Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr türk dünyasının inkişafı əsri olmalıdır.

Keçən il sentyabrın 20-də Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edəndən sonra Şuşada keçirilən bu Zirvə görüşü rəmzi məna daşıyır.

Qarabağın tacı Şuşa şəhəri həmişə Azərbaycanın və regionun mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur.

Şuşanın 1992-ci ilin mayında Ermənistan tərəfindən işğal edilməsi Azərbaycan xalqının böyük faciəsi idi. Azərbaycan xalqı bu işğalla heç vaxt barışmamış, həmişə Şuşaya və işğal altında olan digər ərazilərimizə qayıtmaq arzusu ilə yaşamış və buna nail olmuşdur.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu döyüş meydanında 300-dən çox şəhər və kəndi Ermənistanın təxminən 30 il davam edən işğalından azad etmişdir. 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsindən sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur olmuş və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatmışdır. Hər il noyabrın 8-i Azərbaycanda Zəfər Günü kimi qeyd edilir.

Sərəncamımla 2021-ci ildə Şuşa şəhəri "Azərbaycanın mədəniyyət paytaxtı" elan olundu. Qarabağ xanı Pənahəli xan tərəfindən Şuşanın təməlinin qoyulmasının 270-ci ildönümü ilə əlaqədar 2022-ci il Azərbaycanda "Şuşa ili" elan edilmişdir. TÜRKSOY tərəfindən Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı", ICESCO tərəfindən isə 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunmuşdur.

Qardaşım Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan və Türkiyənin rəsmi müttəfiqliyinin əsasını qoyan Şuşa Bəyannaməsi də 2021-ci ildə məhz Şuşada imzalanmışdır.

Bu gün Qarabağ Bəyannaməsi də Şuşada imzalanacaq.

Hörmətli həmkarlar, bu gün Qarabağ və Şərqi Zəngəzurda Böyük qayıdış proqramı icra olunur. Ermənistan işğal dövründə bu ərazilərdə bütün şəhər və kəndləri yerlə yeksan etmişdir. İndi isə bu torpaqlara həyat qayıdır.

Böyük qayıdış proqramının icrası çərçivəsində bu günə qədər 8 minə yaxın keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Bu ilin sonuna qədər 20 min insan azad edilmiş torpaqlara qayıdacaq.

Türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür. Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti Füzuli və Ağdama səfərlər etmişlər.

Fürsətdən istifadə edərək qardaşlığımızın rəmzi olan məktəb və yaradıcılıq mərkəzinə və eləcə də tikiləcək məktəblərə görə qardaş ölkələrin dövlət və hökumət başçılarına bir daha təşəkkürümü bildirirəm.

Əziz dostlar, hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının cari büdcəsi və strukturu bizim birlikdə nəzərdə tutduğumuz hədəflərin reallaşdırılması üçün yetərli deyil. Buna görə Azərbaycan bu günlərdə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində vəsait köçürmüşdür.

"Şərq-Qərb" nəqliyyat dəhlizinin genişləndirilməsi qarşımızda duran prioritet məsələlərdən biridir.




Orta dəhlizin ayrılmaz bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükaşırma qabiliyyəti Azərbaycanın əlavə sərmayəsi nəticəsində 1 milyondan 5 milyon tona çatdırılıb.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Artan yükdaşımalarını nəzərə alaraq, hazırda Bakı Gəmiqayırma Zavodunda 6 gəmi inşa edilir. Gələn il ölkəmizin 9-cu Beynəlxalq Hava Limanı Laçında istismara veriləcək. Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək.

Bu ilin may ayında İstanbulda Türk İnvestisiya Fondunun təsis iclasının keçirilməsi iqtisadi əlaqələrimizin daha da dərinləşməsinə xidmət edən növbəti uğurlu addımdır. İnanıram ki, fond vasitəsilə bir çox sahələrdə birgə layihələrə sərmayə qoyulacaqdır.

Enerji sahəsində strateji tərəfdaşlığımız, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığımız çox əhəmiyyətlidir.

Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək Yolu" layihəsi də mühüm təşəbbüslərdən biridir.

Bildiyiniz kimi, bu il Azərbaycan COP29 konfransına evsahibliyi edəcək. Fürsətdən istifadə edərək sizin hər birinizi bir daha COP29-a dəvət edirəm. COP29-a sədrlik və bu tədbirin Bakıda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın bariz nümunəsidir. 200-ə yaxın ölkə bizim namizədliyimizi yekdilliklə dəstəkləmişdir. Azərbaycan Qoşulmama Hərəkatında 4 il sədrliyi dövründə əldə etdiyi təcrübədən istifadə edərək inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında həmrəyliyin gücləndirilməsi, konsensusa nail olunması üçün səylərini əsirgəməyəcək.

Əminəm ki, bu gün imzalayacağımız Qarabağ Bəyannaməsi, qəbul etdiyimiz qərarlar türk dünyasının həmrəyliyini və eyni zamanda Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunu daha da gücləndirəcəkdir.

❖ ❖ ❖

Sonra digər dövlət və hökumət başçıları çıxış etdilər.

Türk Dövlətləri Təşkilatının hazırkı sədri, Qazaxıstan Respublikasının Prezidenti **Kasım-Jomart Tokayev** Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması istiqamətində atılan addımları xüsusi vurğulayaraq dedi: "Ümumiyyətlə, istənilən münaqişə və qarşıdurmanı həll etməyin bir yolu var. Bu, konstruktiv dialoqdur. Bu mənada, sədrliyimiz çərçivəsində biz vasitəçiliyə xüsusi diqqət yetiririk. Mən Azərbaycan ilə Ermənistan arasında sülhün bərqərar olması istiqamətində müsbət tendensiyanı vurğulamaq istərdim. Biz barışığa yönəlmiş addımları alqışlamalıyıq. Biz Bakı və İrəvan arasında sülh danışıqları üçün platformamızı təklif etməyə hər zaman hazırıq".

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyətini vurğulayan Qazaxıstan Prezidenti bildirdi: "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun bütün potensialı istifadə olunmalıdır. Bu gün bu istiqamətdə konteyner daşımalarının həcmi kəskin şəkildə artıb. Biz nəqliyyat daşımalarının vaxtını azaltmaq üçün multimodal rəqəmsal platforma, rəqəmsal ticarət dəhlizi yaratmışıq. Bu istiqamətdə Azərbaycanla sıx əməkdaşlıq edirik".

Prezident Kasım-Jomart Tokayev COP29-da fəal iştirak edəcəklərini diqqətə çatdıraraq vurğuladı: "Biz iqlim məsələləri ilə bağlı türk dünyası ilə əməkdaşlığı gücləndirməyə hazırıq. Bununla əlaqədar biz bu il Azərbaycanda keçiriləcək COP29 iqlim konfransının işində fəal iştirak etməyi planlaşdırırıq".

❖ ❖ ❖

Sonra Qırğız Respublikasının Prezidenti **Sadır Japarov** çıxış edərək dedi: "Hörmətli cənab Prezident. Hörmətli dövlət başçıları. Hörmətli Baş katib. Hörmətli tədbir iştirakçıları və qonaqlar. Türkdilli dövlətlərin qeyri-rəsmi Zirvə görüşündə sizi görməkdən məmnunam. Görüşümüz Azərbaycanın Qarabağ bölgəsinin rəmzi və incisi olan, türk xalqlarının birliyinin və həmrəyliyinin yeni rəmzi olan tarixi Şuşa şəhərində keçirilir. İlk növbədə Azərbaycan Respublikasının Prezidenti, hörmətli İlham Heydər oğlu Əliyevə ənənəvi qonaqpərvərliyə və yüksəksəviyyəli hazırlığa görə dərin minnətdarlığımı ifadə etmək istəyirəm".

Azərbaycanın noyabrda COP29-a uğurla sədrlik edəcəyinə əminliyini ifadə edən Qırğızıstan Prezidenti bildirdi: "Sevindirici haldır ki, bu ilin noyabr ayında qardaş Azərbaycan ən vacib qlobal forumlardan birinə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi edəcək. Əminəm ki, Azərbaycanın COP29-a sədrliyi qarşıdan gələn konfransın gündəliyində duran məsələlərin, o cümlədən iqlim maliyyələşməsini əhəmiyyətli dərəcədə irəliyə apara biləcək".

Qırğızıstan Prezidenti Azərbaycanla və təşkilata üzv olan digər ölkələrlə bərpaolunan enerji sahəsində əməkdaşlıqda maraqlı olduqlarını vurğulayaraq qeyd etdi: "Azərbaycanın bərpaolunan enerji mənbələrini, o cümlədən COP29-a sədrliyi çərçivəsində fəal inkişaf etdirdiyini və təşviq etdiyini nəzərə alaraq, biz Azərbaycan tərəfinə və ümumilikdə üzv dövlətlərə bərpaolunan enerji mənbələri ilə bağlı birgə layihələri həyata keçirmək üçün çağırış edirik".

❖ ❖ ❖

Tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlanan təşəkkürlərə səmimi-qəlbdən qoşulduğunu bildirən Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev** dedi: "Sizinlə türk dünyasının mədəniyyət paytaxtlarından biri olan Şuşa şəhərində görüşməyimizin dərin mənası var. Gözəl Qarabağın incisi sayılan bu müqəddəs şəhər Azərbaycan xalqının cəsarətini, bənzərsiz mətanətini, əsl igidliyini və birliyini açıq şəkildə göstərən tarixi Zəfərin parlaq rəmzidir. XX əsrin böyük siyasi və dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin qurucusu möhtərəm Heydər Əliyevin sözləri ilə desək, Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur. Beləliklə, bu unikal şəhər təkcə Azərbaycan xalqının deyil, bütün türk xalqlarının qəlbində xüsusi ehtiram və qürur, iftixar duyğularını oyadır. Hazırda tarixi ədalətin bərpa olunduğu bir zamanda və Azərbaycanın azad etdiyi Qarabağda hörmətli İlham Əliyevin rəhbərliyi ilə aparılan nəhəng quruculuq işlərinin, memarlıq və mədəni abidələrin bərpası istiqamətində genişmiqyaslı tədbirlərin əyani şahidi oluruq. Sizin kimi dəyərli qardaşımızın belə möhtəşəm işləri yaxın dostlarınız olaraq bizləri sonsuz dərəcə sevindirir və qürurlandırır. Birgə səylərimiz və xüsusi marağımızla bu bənzərsiz şəhərin nümunəsində bütün Qarabağın gələcəkdə əbədi dostluğumuzun həqiqi rəmzinə çevriləcəyinə inanıram".

Beş il əvvəl məhz Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv olduqlarını xatırladan Özbəkistan Prezidenti bildirdi ki, ötən qısa dövrdə üzv ölkələrlə 30-dan çox önəmli sahədə qarşılıqlı faydalı və çoxşaxəli əməkdaşlıq qurulub. Bu Zirvə görüşünün qlobal risk və təhdidlərin artdığı, qarşılıqlı inam böhranının daha da dərinləşdiyi bir vaxtda reallaşdığını söyləyən Şavkat Mirziyoyev qeyd etdi: "Belə bir qarışıq vəziyyətdə əbədi qardaşlıq ruhundan güc alan əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə yüksəltməyi, birgə yanaşmalarla inkişaf etdirməyi zaman tələb edir. Bu baxımdan, bugünkü görüşün nəqliyyat, qarşılıqlı əlaqələr və iqlim fəaliyyəti vasitəsilə davamlı bir gələcək inşa etmək mövzusunda keçirilməsi böyük önəm daşıyır".

*Ardı 3-cü səh.*

# Türk Birliyinin Şuşa Zirvəsi

## Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib

*Əvvəli 2-ci səh.*

Özbəkistan Prezidenti bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) da toxundu, bu tədbirin bütün ölkələrimiz üçün böyük tarixi hadisə olduğunu vurğuladı. "İqlim dəyişikliyi məsələsində dünya liderlərinin uğurlu bir görüş keçirmələrini səmimi-qəlbdən diləyirik. Biz bu nüfuzlu tədbirə fəal şəkildə qatılmağa və bu məsələdə Azərbaycana mümkün olan hər cür yardımı göstərməyə hazırıq", - deyə Şavkat Mirziyoyev əlavə edib.

❖ ❖ ❖

Türkiyə Respublikasının vitse-prezidenti **Cevdet Yılmaz** Zirvə görüşünün iştirakçılarına müraciətlə dedi: "Sizləri cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın adından ehtiramla salamlayıram. Türk dünyasının mədəniyyət paytaxtlarından biri - Qarabağın incisi azad Şuşada olmaqdan böyük məmnunluq duyuram. Can Azərbaycana və hörmətli cənab Prezident İlham Əliyevə evsahibliyinə görə təşəkkürümü bildirirəm".

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə sayəsində doğma torpaqlarını işğaldan azad etməsindən sonra bölgədə sülhün, əmin-amanlığın və əməkdaşlığın inkişafı üçün fürsət yarandığını vurğulayan Cevdet Yılmaz qeyd etdi: "Üç il əvvəl - 2021-ci il iyunun 15-də bu qədim şəhərdə Türkiyə ilə Azərbaycan arasındakı bənzərsiz əlaqələri taclandıran Şuşa Bəyannaməsi imzalandı. 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Zəfəri də rəsmi olaraq elan edildi. Azad edilmiş bütün bölgələrdə olduğu kimi, Şuşadakı inkişaf və tərəqqini qürurla müşahidə edirik. Bir daha "Qarabağ Azərbaycandır!" və həmişə də Azərbaycanın olaraq qalacaqdır.

Biz lap əvvəldən bu Zəfəri təkcə işğalın sonu deyil, Cənubi Qafqazda sülh, sabitlik və rifah yolunda tarixi bir fürsət pəncərəsinin açılması olaraq gördük. Bu çərçivədə müzakirə prosesi böyük səy və həssaslıqla aparılan Azərbaycan və Ermənistan arasındakı sülh müqaviləsinin ən qısa müddətdə imzalanması ilə Cənubi Qafqazda genişmiqyaslı regional həllin qarşımızdakı ən böyük əngəli ortadan qaldıracağına inanıram. Cənubi Qafqazda davamlı sülhün və sabitliyin bərqərar olması təkcə bölgə ölkələri üçün deyil, regional nəqliyyat xətlərinin açılacağı səbəbindən qlobal təhlükəsizlik və kommunikasiyalar baxımından da böyük önəm daşıyır. Bu xətlərin açılması regional əməkdaşlığı gücləndirərək Orta Asiya, Qara dəniz və Xəzər dənizi hövzələri də daxil olmaqla, bütün türk dünyası üçün böyük imkanlar yaradacaq, yeni fürsətlər doğuracaq.

Beynəlxalq təşkilatların onilliklər ərzində Azərbaycana qarşı ədalətsizliyə göz yummasına baxmayaraq, Azərbaycan xalqı cənab Prezident İlham Əliyevin qətiyyətli liderliyi ilə öz qəhrəmanlığı sayəsində haqqını bərpa etdi. Birinci Qarabağ müharibəsi nəticəsində öz yurdlarından didərgin salınan bir milyon azərbaycanlı qardaşımız üçün səsini çıxarmayan dövlətlərin bu gün haqsız və əsassız ittihamlarla qardaş Azərbaycanı hədəfə alması əsla qəbul edilə bilməz. Türk dünyası olaraq bu əsassız ittihamlara qarşı Azərbaycana güclü dəstək verməyimiz qardaşlığımızın olduğu kimi, ədalətin də zərurətidir.

Türk dünyasının hörmətli liderləri, qlobal səviyyədə yaşanan proseslər enerji təhlükəsizliyinin və enerji sahəsində əməkdaşlığın önəmini bir daha ortaya qoyub. Resurslarla zəngin və əlverişli coğrafi mövqedə yerləşən türk dövlətlərinin rolu bu baxımdan mühüm önəm daşımaqdadır. Şərq ilə Qərbi bir-biri ilə birləşdirən genişmiqyaslı enerji infrastrukturu layihələrini birlikdə uğurla həyata keçiririk. Azərbaycan ilə bu sahədə həyata keçirdiyimiz layihələr, həqiqətən, nümunədir. Başda türkmən təbii qazı olmaqla, Xəzərin digər tərəfindəki resursların Türkiyəyə və Avropaya daşınması həm bizlərin milli rifahına, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. Türk Dövlətləri Təşkilatının nəzdində enerji mexanizminin qurulmasından məmnunluq duyuruq. Bu çərçivədə ortaq layihələrin inkişaf etdirilməsini dəstəkləməkdəyik".

Çıxışında Azərbaycanın bu ilin noyabrında COP29-a evsahibliyi etməsinin əhəmiyyətini xüsusi vurğulayan Türkiyənin vitse-prezidenti bildirdi: "Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi etməsindən böyük məmnunluq duyuruq. Xüsusilə iqlim maliyyələşməsi mövzusunda mühüm qərarların qəbul ediləcəyi bu konfransa hazırlıq prosesində bir çox mövzularda sıx əməkdaşlığımızı və dəstəyimizi davam etdirəcəyik. Azərbaycanın COP29-a evsahibliyi regional əməkdaşlıq baxımından da böyük önəm daşıyır. Bu baxımdan, Azərbaycanın konfransda Türk Dövlətləri Təşkilatının bir təşəbbüsünə yer verilməsi və ya ortaq bir tədbirin keçirilməsi ilə bağlı təklifini məmnunluqla qarşılayırıq".

Şuşadakı Zirvə görüşündə Şimali Kipr Türk Cümhuriyyətinin də təmsil olunmasının önəmini qeyd edən Cevdet Yılmaz dedi: "Bu gün Şuşada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti hörmətli Ersin Tatarı aramızda görməkdən böyük məmnunluq duyuruq. Cənab Prezident İlham Əliyevə göstərdiyi həssaslığa görə təşəkkürümüzü ifadə edirik. Cənab Tatarın qarşıdakı Bişkek Zirvə görüşünə də qatılmasını arzu edirik və bu məsələdə Sizlərin dəstəyini gözləyirik".

Türkiyənin vitse-prezidenti tədbirin yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək vurğuladı: "Bu gün imzalanacaq Qarabağ Bəyannaməsinin də xeyirli olmasını arzu edirəm. Sizi ehtiramla salamlayır, ev sahibi Can Azərbaycana, çox hörmətli cənab Prezident İlham Əliyevə təşəkkürlərimi bildirirəm. Təşkilatın üzvləri olan dost və qardaş ölkələrin xalqlarına sevgilərimi çatdırıram".

❖ ❖ ❖

Zirvə görüşündə çıxış edən Macarıstanın Baş naziri **Viktor Orban** Şuşada keçirilən bu mötəbər tədbirə dəvətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi: "İlk növbədə icazə verin, Prezident Əliyevə Şuşada, bu şəhərdə bizi qəbul etdiyinə və sizi burada görmək imkanı yaratdığına görə minnətdarlığımı bildirim. Hazırda regionda minlərlə insana sülh şəraitində yaşamaq imkanı verdiyinə görə Prezident Əliyevə dərin ehtiramımızı bildiririk. Arzu edirik ki, bu fürsət ən qısa zamanda Avropada da əldə edilsin.

Hazırda müharibələr nəticəsində dünyanın müxtəlif bloklara bölünməsi risklərinin olduğunu vurğulayan Viktor Orban bildirdi: "Kədərli tarixi təcrübələrimizə əsaslanaraq, sülhə hörmət naminə qlobal əməkdaşlığı bərpa etmək üçün ünsiyyət və qarşılıqlı fəaliyyət dövrünə üstünlük verərdik. Bu mübarizədə sizə güvənirik. Biz Türk Dövlətləri Təşkilatına Qərb ilə Şərq arasında əməkdaşlıq üçün çox vacib bir təşkilat kimi baxırıq".

Baş nazir Viktor Orban çıxışında Macarıstanın Avropa İttifaqına sədrliyinin prioritetlərindən danışdı, yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə bir daha təşəkkürünü bildirdi.

❖ ❖ ❖

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti **Ersin Tatar** Şuşadakı tarixi Zirvə görüşünə dəvətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi: "Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının Şuşa Zirvə görüşündə çıxış etməkdən duyduğum böyük xoşbəxtliyi və məmnunluğu sizinlə bölüşmək istəyirəm. Türk dünyasının mənəvi paytaxtı Şuşada, azad olunmuş bu gözəl torpaqlarda Azərbaycan Prezidenti İlham Əliyevin evsahibliyi ilə bu Zirvə görüşündə aranızda olmaqdan duyduğum böyük məmnuniyyəti təkrar bildirmək istəyirəm. Əvvəlcə, bu günə qədər Şimali Kipr Türk Cümhuriyyətinə verdiyi böyük dəstəyə və bizi Şuşa Zirvəsinə dəvət etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə çox təşəkkür edirəm".

Şuşanın tarixi əhəmiyyətini vurğulayan Ersin Tatar bildirdi: "Azərbaycan xalqının ənənələrinin bir rəmzi olan, zəngin və görkəmli tarixə sahib Şuşa dünya mədəniyyət xəzinəsinə böyük töhfələr vermiş, bir çox məşhur sənətkar, musiqiçi, memar, rəssam və yazıçının yetişdiyi qədim şəhərdir. Uzun illər erməni işğalı altında qalan Şuşa 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu tərəfindən həmin il noyabrın 8-də azad edilib. Qarabağda 30 il davam edən işğal Can Azərbaycanın Vətən müharibəsindəki Qələbəsindən sonra başa çatmışdır. Bu tarixi Zəfərdən böyük qürur və sevinc duyuruq. Qarabağ, o cümlədən Şuşa 44 günlük Vətən müharibəsində və sonra yaşanan hadisələr baxımından türk dünyasında birlik və bərabərliyin rəmzinə çevrilib".

"Ən böyük gücümüz türk dünyasının birlik, bərabərlik və həmrəyliyidir", - söyləyən Ersin Tatar vurğuladı: "Bir araya gələndə, həmrəy olanda nələr edə biləcəyimizi göstərmişik. Bu baxımdan, Şimali Kipr Türk Cümhuriyyətinin türk dünyasının ayrılmaz hissəsi olaraq bu gün qədim Şuşada təmsil olunması son dərəcə önəmli və tarixi hadisədir".

❖ ❖ ❖

Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömüralıyev** Azərbaycanın təşkilatın inkişafına verdiyi töhfəni vurğuladı və COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdıraraq dedi: "Mən ilk növbədə Naxçıvan Sazişinin 15 illiyi ilə əlaqədar İlham Heydər oğlu Əliyevə dərin minnətdarlığımı bildirmək istərdim. Təsadüf elə gətirib ki, Şuşa "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib və bu görüşü burada keçirməyimiz rəmzi məna kəsb edir".

Təşkilata üzv ölkələr arasında əməkdaşlığın inkişafında beynəlxalq nəqliyyat dəhlizlərinin əhəmiyyətinə toxunan Baş katib qeyd etdi: "Orta dəhliz qlobal ticarətdə həyati əhəmiyyət kəsb edən arteriya rolunu oynayır. İki ölkə arasında ən təhlükəsiz və ən qısa marşrut vəd edən bu dəhliz, sadəcə, yüklərin daşınması üçün yol deyil. Bu, iqtisadi artım, innovasiyalar və əməkdaşlıq üçün xilas kəməridir. Zəngəzur dəhlizi "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri arasında mühüm bağlantı olacaq".

Azərbaycanın COP29-a evsahibliyi etməsinin önəmini vurğulayan Kubanıçbek Ömüralıyev dedi: "Mən qabaqcıl təşəbbüs olan və ən aktual məsələlərdən birinin müzakirəsi üçün bütün dünyadan minlərlə insanı bir araya gətirəcək COP29-a evsahibliyi edəcəyi münasibətilə qardaş Azərbaycanı təbrik etmək istərdim".

Şuşa Zirvə görüşündə Türk Dövlətləri Təşkilatının fəaliyyətinin inkişafı üçün mühüm qərarın qəbul olunduğunu qeyd edən Baş katib vurğuladı: "Türk Dövlətləri Təşkilatının 10-cu Sammitində dövlət başçıları heyətin və büdcəmizin artırılması təklifini dəstəklədilər.

*Ardı 4-cü səh.*
























# Türk Birliyinin Şuşa Zirvəsi

## Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib







*Əvvəli 3-cü səh.*

Sizin bu gün qeyd olunan məsələlərlə bağlı qəbul etdiyiniz qərar, sözsüz ki, təşkilatımızı daha da gücləndirəcək. Bu mənada biz Azərbaycan Prezidenti zati-aliləri cənab Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın verdiyi töhfəni - büdcəmizə 2 milyon ABŞ dollarının ayrılmasını yüksək qiymətləndiririk".

Zirvə görüşü çərçivəsində Qarabağ Bəyannaməsinin imzalanmasının önəminə toxunan Kubanıçbek Ömüralıyev bildirdi: "Hesab edirəm ki, Zati-aliləriniz tərəfindən bu gün imzalanacaq Qarabağ Bəyannaməsi qardaşlıq əlaqələrinin daha da dərinləşməsi istiqamətində növbəti mühüm addım olacaq".

❖ ❖ ❖

Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri **Binəli Yıldırım** çıxış edərək dedi: "Bu gün Şuşada - tarixi şəhərdə, mədəniyyət paytaxtında Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün keçirilməsinin ayrı bir tarixi önəmi var. Şuşanın işğaldan azad edilməsindən sonra - 2021-ci ilin iyununda cənab Prezidentimizlə birlikdə burada idik və Şuşa Bəyannaməsinin imzalanmasında iştirak etdik. Həmin gündən indiyədək Şuşadakı dəyişiklikləri böyük heyranlıq və diqqətlə izləyirəm. O vaxt gördüyüm yerlə yeksan olunmuş bir şəhər yenidən dirçəlir. Bunun üçün çox hörmətli cənab Prezident İlham Əliyevə təşəkkür edirəm".




Qardaş ölkələrimizin birlikdə mühüm layihələr həyata keçirməsindən danışan Binəli Yıldırım bildirdi: "Bu məsələdə bir daha möhtərəm cənab Prezidentə təşəkkür edirəm, 2004-cü ildə birlikdə fikir olaraq planlaşdırdığımız Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin reallaşdırılmasında hörmətli Prezidentimiz böyük bir liderlik etdi. Gürcüstanın layihə ilə bağlı tərəddüdlərinin aradan qaldırılmasında hörmətli Prezidentimizin mühüm töhfələri oldu. Bakı-Tbilisi-Qarsın reallaşması bu gün Orta dəhlizin çatışmayan halqasının tamamlanması deməkdir və bu dəhlizdən artıq daha səmərəli istifadə olunmasına imkan yaradıb. 2030-cu ilə qədər bu marşrutla yükdaşımalarının həcmini 11 milyon tona çatdırmağımız mümkündür. Bunun üçün bəzi addımlar atılmalıdır".

Binəli Yıldırım Zirvə görüşünün çox mühüm mövzuya həsr olunduğunu vurğulayaraq dedi: "Şuşa Zirvə görüşündə göstərdiyiniz mehriban qarşılanma və evsahibliyi üçün Zati-alinizə, heyətinizə bir daha təşəkkür edirəm. Bu tədbirdə Orta dəhlizin əsas mövzu olaraq seçilməsi təşkilatımızın gələcəyinə və ortaq hədəflərimizə - "Türk dünyasına baxış-2040" sənədində qarşıya qoyulan məqsədə çatmaqla bağlı strateji planımız baxımından çox uyğun işdir. Bunu burada sizlərlə bölüşmək və bu dəhlizin daha da inkişafını təmin etmək üçün həyata keçiriləcək işləri ifadə etməkdən böyük məmnunluq duydum. Bu fürsəti mənə verdiyiniz üçün bir daha təşəkkür edir, hamınıza ehtiramımı bildirirəm".

❖ ❖ ❖

Sonra Şuşa Zirvə görüşündə "Türk Dövlətləri Təşkilatının Katibliyinin heyətinin və büdcəsinin artırılmasına dair qərar" imzalandı.

❖ ❖ ❖

Zirvə görüşünə yekun vuran **Prezident İlham Əliyev** dedi:

- Əziz dostlar.

Bu gün biz türk dünyasının birliyini bir daha təsdiqlədik. Birgə həyata keçirdiyimiz layihələrin icrasına yeni təkan verdik.

Noyabrda Bakıda keçiriləcək COP29 ilə əlaqədar iqlim dəyişikliyinin mənfi fəsadları ilə mübarizədə birgə fəaliyyət göstərməyin vacibliyini vurğuladıq.

Tarixən dünya sivilizasiyasına böyük töhfələr vermiş türk sivilizasiyasının tədqiq və təşviq edilməsi, Türk Dövlətləri Təşkilatının digər beynəlxalq təsisatlarla əlaqələrinin genişləndirilməsinin əhəmiyyətini bir daha qeyd etdik.

Əminəm ki, bugünkü müzakirələr, qəbul etdiyimiz qərarlar Türk Dövlətləri Təşkilatının gücləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Fürsətdən istifadə edərək, hazırda Türk Dövlətləri Təşkilatına sədrlik edən Qazaxıstan Prezidenti hörmətli Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Əminəm ki, qarşıdan gələn Bişkek Zirvə görüşündə səmərəli və nəticəyönümlü müzakirələrimizi davam etdirəcəyik.

İndi isə sizi Qarabağ Bəyannaməsini imzalamağa dəvət edirəm.

❖ ❖ ❖

Daha sonra Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsinin imzalanması mərasimi oldu.

Sonda birgə foto çəkdirildi.



# Türk Birliyinin Şuşa Zirvəsi

## Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi



*Əvvəli 1-ci səh.*

2023-cü il noyabrın 3-də "TÜRKTIME" şüarı altında keçirilmiş, TDT-nin gələcək transformasiyasında və türk dünyasının inteqrasiyası səylərində, eləcə də onların xalqlarının birlik və rifahının gücləndirilməsində növbəti mühüm mərhələ olan TDT-nin yubiley - Astana Zirvə görüşünün uğurlu təşkilinə görə Qazaxıstan Respublikasının sədrliyini dəyərləndirərək;

TDT-nin yaradılmasına dair Naxçıvan Sazişinə uyğun olaraq, Dövlət Başçıları Şurasının (DBŞ) müntəzəm görüşləri ilə yanaşı, ildə bir dəfə DBŞ-nin qeyri-rəsmi görüşlərinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevin təklifini alqışlayaraq;

Geniş türk dünyasından olan xalqların bir araya gətirilməsində Şuşa şəhərinin mənəvi əhəmiyyətini qəbul edərək, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra Şuşada keçirilən görüşün türk xalqlarının birliyinin, onların sülhə və ədalətə sadiqliyinin bariz təzahürü olduğunu bəyan edərək;

Yüz minlərlə azərbaycanlı keçmiş məcburi köçkünün öz ata-baba yurdlarına qayıdışı üçün şərait yaradacaq genişmiqyaslı minatəmizləmə fəaliyyəti və humanitar minasızlaşdırma səyləri də daxil olmaqla, işğaldan azad edilmiş torpaqların yenidən qurulması və bərpası səylərində Azərbaycan hökuməti və xalqı ilə həmrəyliklərini ifadə edərək;

Türk dövlətləri arasında sabit və çoxşaxəli əlaqələrin inkişafına, o cümlədən iqlim fəaliyyəti vasitəsilə sağlam planetin qorunmasına yönəlmiş birgə səylərlə davamlı gələcəyin mümkün olduğunu təsdiq edərək;

Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışlarının türk dövlətlərinin vahid güc kimi çıxış etməsini tələb etdiyini və qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlərlə bağlı mütəmadi məsləhətləşmələrin aparılmasının zəruriliyini etiraf edərək,

**Bəyan etdilər ki, onlar:**

1. TDT-nin qeyri-rəsmi Zirvə görüşünün 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" olmuş Şuşa şəhərində keçirilməsinin tarixi dəyərini vurğulayırlar;

2. Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyini bir daha vurğulayırlar;

3. Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyini qeyd edirlər;

4. Türk dövlətlərinin regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında əvəzsiz rolu nəzərə alınmaqla, müvafiq nəqliyyat infrastrukturunun və səmərəli transregional dəhlizlərin yaradılması yolu ilə türk dövlətləri arasında bağlılığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar;

5. Ticarət həcmlərini artırmaq, limanlara, dəmir yollarına, avtomobil yollarına və logistika qovşaqlarına infrastruktur investisiyalarını cəlb etməklə dayanıqlı inkişaf, iqtisadi rifah və beynəlxalq ticarət üçün təməl daşı kimi Avropa-Türkiyə-Cənubi Qafqaz-Mərkəzi Asiya-Çini birləşdirən Trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi vasitəsilə üzvlər arasında regional əlaqəni və inteqrasiyanı gücləndirmək, nəqliyyat əməliyyatlarını, gömrük prosedurlarını optimallaşdırmaq və rəqəmsallaşmanı əhatə etmək üçün üzv dövlətlər arasında sıx əməkdaşlığa çağırırlar;

Bu məqsədlə nəqliyyata məsul olan nazirlərə nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması və rəqəmsallaşdırılması, daha çox yükdaşıma həcminin artırılması məqsədilə özəl sektor üçün stimullaşdırıcı mexanizmlərin təqdim edilməsi və dəhliz boyu müntəzəm nəqliyyat xidmətlərinin yaradılması istiqamətində gələcək addımların atılmasını tapşırırlar;

6. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsini, bu yolboyu mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin sürətləndirilməsi ilə bağlı Azərbaycanın, Gürcüstanın və Türkiyənin üçtərəfli səylərini qiymətləndirirlər;

7. Bütün TDT regionunda beynəlxalq ticarətin, investisiya və tranzit potensialının artırılmasına da töhfə verəcək Qırğız Respublikasının Nazirlər Kabineti, Çin Xalq Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında 2024-cü il iyunun 6-da imzalanmış Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin təşviqi istiqamətində birgə əməkdaşlıq üzrə tarixi Sazişi alqışlayırlar;

8. Regional ticarət həcminin davamlı artdığını məmnunluq hissi ilə qeyd edirlər, qarşıdan gələn illərdə ticarət həcminin həqiqi potensialına çatdırılması üçün konkret tədbirlərin görülməsi barədə razılığa gəlirlər, beynəlxalq öhdəliklərə riayət etməklə ticarətdə texniki maneələrin aradan qaldırılmasının və DEPA (Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişi) mətni üzrə müzakirələrin tamamlanmasının sürətləndirilməsinin vacibliyini vurğulayırlar;

9. İqlim dəyişikliyi və onun türk dövlətlərinin dayanıqlı inkişafına təsirlərinə birgə iqlim fəaliyyəti yolu ilə cavab verilməsində daha sıx əməkdaşlığın zəruriliyini vurğulayırlar;

10. Günəş, külək və su elektrik enerjisi kimi təmiz enerji mənbələrinin inteqrasiyasına diqqət yetirməklə dayanıqlı inkişafın təşviq edilməsi və rəqəmsal infrastruktur, ictimai xidmətlər və dayanıqlı təcrübələrin təkmilləşdirilməsi yolu ilə həyat keyfiyyətini yaxşılaşdırmaq, iqtisadi artımı gücləndirmək, iqlim fəaliyyətini dəstəkləmək üçün türk dövlətləri çərçivəsində "ağıllı şəhər və kəndlər" konsepsiyasının iqlimə davamlılığının inkişafını təşviq edir və bu xüsusda TDT-nin İqlim və Yaşıl Rəqəmsal Platformasının və TDT-nin İqlimə Davamlı Kəndlər Forumunun yaradılması üzrə müzakirələrin aparılması təşəbbüsünü irəli sürürlər;

11. Bərpaolunan enerji və enerji səmərəliliyi sahələrində əməkdaşlığın inkişafı da daxil olmaqla türk dövlətləri arasında enerji sahəsində strateji tərəfdaşlığın əhəmiyyətini vurğulayır və Azərbaycan-Qazaxıstan-Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqələndirilməsi layihəsində (Yaşıl dəhliz) son inkişafları alqışlayırlar;

12. Türk dövlətlərində bərpaolunan geniş enerji potensialından, üzv dövlətlər arasında və üçüncü ölkələrə bərpaolunan mənbələrdən də daxil olmaqla elektrik enerjisinin ixracı və ticarəti üçün geniş enerji sistemlərinin inkişafı imkanlarının istifadəsi məqsədilə onların enerji sistemləri arasında enerji inteqrasiyası və qarşılıqlı əlaqəsi üzrə sıx əməkdaşlığa çağırırlar;

13. Təcrübələrin ötürülməsi məqsədilə TDT üzvlərinin aidiyyəti qurumları arasında ticarət, enerji, nəqliyyat kimi ümumi maraq doğuran sahələrdə institusional quruculuq mexanizminin (Tvinninq) inkişafını təşviq edirlər;

14. TDT ölkələrinin mövcud imkanlarından və infrastrukturundan istifadə etməklə Avropa ilə Asiya arasında yeni telekommunikasiya magistral marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək Yolu" layihəsinin fəal yerinə yetirilməsini alqışlayırlar;

15. Rəqəmsal hökumət (e-Hökumət) infrastrukturlarının daha da inkişaf etdirilməsi üzrə türk dövlətləri arasında əməkdaşlıq və mübadilələri; elektron sənəd mübadiləsi üçün e-imza/rəqəmsal imza mexanizmlərinin uyğunlaşdırılmasını və onlayn dövlət xidmətlərinin inteqrasiyasını; kiberinsidentlərə və kiberhücumlara qarşı ümumi kibertəhlükəsizliyin qorunması tədbirlərini; süni intellekt üzrə siyasətlərin, təlimatların və tərəfdaşlıqların qurulmasını; məlumat mərkəzlərinin və bulud infrastrukturlarının yaradılması üzrə siyasət və ən yaxşı təcrübələrin inkişaf etdirilməsini təşviq edirlər;

16. Süni intellekt layihələrinin uğurlu inkişafı üçün üzv dövlətlərin böyük dil modelinin yaradılmasının və mədəniyyətlərarası ünsiyyəti asanlaşdırmaq, təhsil platformalarını inkişaf etdirmək, səhiyyə texnologiyalarını təkmilləşdirmək və iqtisadi inteqrasiyanı təşviq etmək üçün böyük dil modeli formasında ümumi platformadan istifadənin vacibliyini qeyd edirlər;

17. Milli kosmik proqramların potensialının və rəqabət qabiliyyətinin artırılması məqsədilə kosmik layihələrin birgə inkişafı üçün səylərin birləşdirilməsinin, texnoloji inkişaf səviyyəsinin və birgə layihələrin rəqabət qabiliyyətinin artırılması üçün kosmik texnologiyalar sahəsində kompleks inkişafın vacibliyini qeyd edirlər;

18. İqlim dəyişikliyi çağırışlarına regional və qlobal reaksiyanın gücləndirilməsi üçün ətraf mühitin mühafizəsi və iqlim gündəliyi sahəsində əməkdaşlıq etmək məqsədilə üzv və müşahidəçi dövlətlərin müvafiq orqanlarının əməkdaşlıq mexanizminin yaradılması ilə bağlı Katibliyə tapşırıq verirlər;

19. 2023-cü ildə Astana Zirvə görüşündə bəyan edilmiş, nazirlər səviyyəsində daimi Türk Ekoloji Forumunun yaradılması ilə bağlı Özbəkistan Respublikasının təşəbbüsünü və onun Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 2024-cü il noyabrın 11-22-də Bakının evsahibliyi edəcəyi 29-cu sessiyası (COP29) çərçivəsində keçirilməsi nəzərdə tutulan ilk iclasını alqışlayırlar;

20. 2024-cü il noyabrın 11-22-də Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının (COP29) 29-cu sessiyasına evsahibliyi etməkdə Azərbaycan Respublikası Hökumətinə uğurlar arzulayır və Konvensiyanın tərəflərinin gözləntiləri əsasında COP29-un konkret nəticələrinin əldə edilməsində Azərbaycanın ardıcıl səylərini dəstəkləyirlər;

21. BMT-nin İqlim Dəyişmələri Konfransının illik təqvimində "Dağlar və İqlim" adlı yeni qlobal dialoqun yaradılması təşəbbüsünün təşviqində iştirak etməyə hazır olduqlarını bildirir və "Dağ gündəliyinin irəlilədilməsi üçün fəaliyyətə çağırış: UNFCCC çərçivəsində əsas dağlar" sənəd layihəsinə qoşulmağı nəzərdən keçirirlər;

22. Qazaxıstanın 2026-cı ildə BMT və beynəlxalq təşkilatların himayəsi altında Regional İqlim Sammitinə evsahibliyi etmək təşəbbüsünü alqışlayırlar;

23. 2024-cü il avqustun 9-da Astanada Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının 6-cı Məşvərət Görüşünün keçirilməsində Qazaxıstan Respublikası Hökumətinə uğurlar arzulayırlar;

24. Üzv dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi niyyətlərini bir daha vurğulayır və bu xüsusda lazımi tədbirlərin görülməsi üçün üzv dövlətlərin aidiyyəti qurumlarına tapşırıq verirlər;

25. Qəzzada baş vermiş humanitar fəlakət vəziyyətinə görə dərin narahatlığını ifadə edir və mülki əhalinin seçimsiz hədəfə alınmasını qınayır; dərhal və daimi atəşkəsin təmin edilməsinə, Qəzzaya maneəsiz humanitar yardımın göstərilməsinə, eləcə də beynəlxalq hüquqa, o cümlədən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə tam riayət edilməsinə; daha sonra İsrail-Fələstin münaqişəsinin iki dövlətli həll əsasında ədalətli və uzunmüddətli həllinə çağırırlar;

Paytaxtı Şərqi Qüds olmaqla 1967-ci il sərhədlərinə əsaslanan, müstəqil, suveren və vahid Fələstin Dövlətinin beynəlxalq səviyyədə tanınmasını dəstəkləyir, Fələstin Dövlətinin BMT-yə üzvlüyə yararlı olduğunu və buna görə də onun BMT-yə üzvlüyə qəbul edilməli olduğunu müəyyən edən BMT Baş Assambleyasının 2024-cü il 10 may tarixli qətnaməsinin qəbul olunmasını məmnuniyyətlə alqışlayır; habelə bunu etməyən bütün ölkələri Fələstin Dövlətini tanımağa çağırırlar;

26. Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində TDT-yə dəyərli töhfələrini alqışlayırlar;

27. Türk Dövlətlərinin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu (TMİF) və Türk İnvestisiya Fondu (TİF) kimi türk əməkdaşlıq təşkilatları arasında davamlı əməkdaşlığı və artan sinerjini təqdir edirlər;

28. Qırğız Respublikası 2024-cü il oktyabrın 24-də Bişkekdə TDT-nin 11-ci Zirvə görüşünə evsahibliyi etməyə hazır olduğunu bir daha təsdiq etdi;

29. Hökumət Başçıları/Vitse-Prezidentlər Şurasına dair Qırğız Respublikasının təklifini nəzərə alırlar;

30. Türk dünyasının nizamnaməsi ilə bağlı Özbəkistan Respublikasının təşəbbüsünü dəstəkləyir və Katibliyə Bişkekdə keçiriləcək növbəti Zirvə görüşündə qəbul edilməsi üçün sənəd layihəsinin yekunlaşdırılması tapşırığını verirlər;

31. TDT çərçivəsində iqtisadi əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətli mərhələsi kimi Macarıstanın Türk İnvestisiya Fondunun yaradılması haqqında Sazişə qoşulmasını alqışlayırlar;

TDT-nin Dövlət başçıları Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə türk dünyasının birliyi, həmrəyliyi, təhlükəsizliyi və rifahına verdiyi böyük və davamlı töhfəsinə, TDT-nin vahid ruhunun gücləndirilməsində qətiyyətli liderliyinə və Şuşada qeyri-rəsmi Zirvə görüşündə uğurla yekunlaşan müzakirələrə sədrlik etdiyinə görə dərin təşəkkür bildirir, Azərbaycan Hökumətinin və xalqının səmimi qonaqpərvərliyini yüksək qiymətləndirirlər.

TDT-nin Baş katibinə bu Bəyannamədə nəzərdə tutulan qarşılıqlı fəaliyyəti və birgə səyləri əlaqələndirmək tapşırığı verilir.

2024-cü il iyulun 6-da Şuşa şəhərində Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanmışdır.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***
***Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev***
***Qırğız Respublikasının Prezidenti Sadır Japarov***
***Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev***
***Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz.***

# Türk Birliyinin Şuşa Zirvəsi

## Şuşada Prezident İlham Əliyevin adından Türk Dövlətləri Təşkilatı dövlət və hökumət başçılarının şərəfinə nahar verilib



İyulun 6-da Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türk Dövlətləri Təşkilatı dövlət və hökumət başçılarının şərəfinə nahar verilib.

## Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana səfəri başa çatıb

**Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana səfəri iyulun 6-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi hava limanında Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

## Türkiyənin vitse-prezidentinin Azərbaycana səfəri başa çatıb

**Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak edən Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın iyulun 6-da Azərbaycana səfəri başa çatıb.**

AZƏRTAC xəbər verir ki, TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyənin vitse-prezidenti Cevdet Yılmazı hava limanında Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.



## Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana səfəri başa çatıb

**Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana səfəri iyulun 6-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.



Qırğız Respublikasının Prezidenti Sadır Japarovu Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

## Özbəkistan Prezidentinin Azərbaycana səfəri başa çatıb

**Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana səfəri iyulun 6-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi hava limanında Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.



## Macarıstanın Baş nazirinin Azərbaycana səfəri başa çatıb

**Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə iştirak edən Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycana səfəri iyulun 6-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, TDT-yə üzv ölkələrin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Macarıstanın Baş naziri Viktor Orbanı hava limanında Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.



## Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri Şuşada görüşüblər

**İyulun 5-də xarici işlər naziri Ceyhun Bayramov Şuşa şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi Zirvə görüşü, habelə TDT Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidanla görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan ilə Türkiyə arasında mövcud müttəfiqlik münasibətlərindən irəli gələn məsələlər, çoxtərəfli formatlar çərçivəsində əməkdaşlıq, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.





Görüşdə Azərbaycan-Türkiyə müttəfiqliyinin siyasi, iqtisadi, təhlükəsizlik, enerji, bağlantılar, humanitar aspektləri üzrə qarşılıqlı fəaliyyət, birgə layihələr və əldə olunmuş inkişafların regional sabitlik, əməkdaşlığa ciddi töhfələr verdiyi vurğulanıb.

Müttəfiqliyimizin inkişafında iki ölkənin liderləri arasında mövcud yüksəksəviyyəli siyasi dialoqun əsas rol oynadığı, habelə müvafiq dövlət qurumları və qanunverici orqanların nümayəndələrinin intensiv səfər və təmaslarının ciddi töhfəsi olduğu bildirilib.

Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, dostluq və həmrəyliyə əsaslanan müttəfiqlik münasibətlərini təsbit edən Şuşa Bəyannaməsinin imzalandığı Şuşa şəhərinin TDT-nin qeyri-rəsmi Zirvə görüşünə evsahibliyi etdiyi məmnunluqla qeyd olunub.

Ceyhun Bayramov Azərbaycanın xarici siyasətində türk dünyası və TDT istiqamətinin tutduğu əhəmiyyətli yerdən danışaraq Zirvə görüşünün təşkilat çərçivəsində əməkdaşlığın inkişafı və gücləndirilməsinə töhfə verəcək sənəd və qərarların qəbulu ilə yadda qalacağına ümidvar olduğunu söyləyib.

TDT ilə yanaşı, digər regional və beynəlxalq təşkilatlar, o cümlədən müxtəlif çoxtərəfli formatlar çərçivəsində əməkdaşlığın intensivləşməsinin əhəmiyyəti qeyd olunub. Bu istiqamətdə cari il iyulun 3-də Azərbaycan, Türkiyə və Pakistan liderlərinin, habelə martın 15-də Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin üçtərəfli görüşlərinin regional, qlobal təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə qarşılıqlı fəaliyyətin əlaqələndirilməsi baxımından faydalı olduğu bildirilib.

C.Bayramov həmçinin postmünaqişə dövründə mövcud regional vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə fəaliyyəti, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin durumu barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Sülh prosesinin qarşısında duran çağırışların, o cümlədən ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən və Ermənistan Konstitusiyasında iddiaların, üçüncü dövlətlər tərəfindən Ermənistanın hərbiləşməsinə töhfə verərək regional sabitliyə hədə törədən addımların hələ də qalmaqda olduğu diqqətə çatdırılıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.




# Şuşada Türk Dövlətləri Təşkilatının Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclası keçirilib

**İyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda açılış nitqi ilə çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Azərbaycanın Qarabağ torpağında baş tutan ilk yüksəksəviyyəli zirvə toplantısı olduğunu bildirib. Deyib ki, Şuşada keçirilən ilk yüksəksəviyyəli toplantının doğma ailəmiz Türk Dövlətləri Təşkilatının tədbiri olması təbiidir. Məlum olduğu kimi, bu, Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən sayca üçüncü qeyri-rəsmi fövqəladə zirvə görüşüdür. O, eyni zamanda vurğulayıb ki, Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərlə münasibətlər Azərbaycanın xarici siyasətinin ən əsas prioritetidir.

Sonra iclasın gündəliyi qəbul edilib.

Daha sonra iclasda gündəlikdəki məsələlərlə bağlı çıxışlar olub.

Qazaxıstan Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu çıxışında diqqətə çatdırıb ki, rəsmi Astana üzv ölkələrlə rəqəmsal texnologiyalar, mədəniyyət, infrastruktur, turizm, investisiyalar və bütün digər sahələrdə əlaqələri genişləndirməyi səbirsizliklə gözləyir. "Ailəmiz böyük potensiala, resurslara malikdir və bizim ümumi məqsədlərimiz var. Qazaxıstan beynəlxalq nəqliyyat yolu, "Şimal-Cənub" nəqliyyat dəhlizi və "Bir kəmər, bir yol" təşəbbüsü arasında sinerjinin qurulmasını yüksək qiymətləndirir və bütün üzv dövlətlərlə sıx əməkdaşlıq edir", - deyə o əlavə edib.

Murat Nurtleu, eyni zamanda vurğulayıb ki, Qazaxıstan, Azərbaycan və Özbəkistan gələcəkdə "yaşıl enerji"nin Avropaya ixrac infrastrukturunun yaradılması istiqamətində mühüm layihələrin həyata keçirilməsində birgə addımlar atır. "Ölkəmizin prioritetlərini və təşəbbüslərini dəstəklədiyiniz üçün Qazaxıstanın sədrliyi adından hamınıza minnətdarlığımı bildirirəm. Üzv dövlətlərin fəal iştirakı ilə biz yüksəksəviyyəli tədbirlər təşkil etmişik. Ölkələrimizin daimi nümayəndəliklərinin yaradılması və katibliyin ştatının artırılması birgə işimizin nəticəsidir. Bu yolda TÜRKPA, TÜRKSOY, Türk İnvestisiya Fondu, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Ağsaqqallar Şurası ilə sıx əməkdaşlığımız və koordinasiyamız xalqlarımızın çiçəklənməsinə töhfə verəcək", - deyə Baş nazirin müavini vurğulayıb.






Yarandığı dövrdən səmərəli inkişaf yolu keçmiş Türk Dövlətləri Təşkilatının beynəlxalq səviyyədə önəminin artmaqda olduğunu deyən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov qeyd edib: "Bu, eyni zamanda təşkilata üzv və müşahidəçi dövlətlərin beynəlxalq arenada nüfuzunun, eləcə də iqtisadi potensialının genişlənməsinə xidmət edir. Zirvə görüşünün nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması mövzusu bugünkü reallığa uyğun seçilib. Məlum olduğu kimi, Azərbaycan bu ilin noyabrında COP29-a evsahibliyi edəcək. Hesab edirəm ki, bu hadisəni türk dünyasının uğuru saymaq mümkündür. Belə ki, ilk dəfə olaraq bir türk dövləti belə mötəbər tədbirə ev sahibliyi edəcək. COP29-un təşkilində ilk olaraq qardaş ölkələrin dəstəyinə ümid edirik".

Nazir bildirib ki, bu gün dünyada baş verən hadisələr ətraf mühitə təsirsiz ötüşmür. Davamlı gələcək yalnız iqlim fəaliyyəti vasitəsilə sağlam planetimizi qorumaqla mümkün olacaqdır. Bu istiqamətdə də türk dövlətləri arasında əməkdaşlığa ehtiyac var. TDT-nin ekologiya və ətraf mühit sahəsinə məsul nazirlərinin platformasının yaranmasının zamanı artıq yetişib. Bununla yanaşı, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması və şaxələndirilməsi, nəqliyyat-kommunikasiya dəhlizlərinin keçid prosedurlarının sadələşdirilməsi və təkmilləşdirilməsi istiqamətində təsirli birgə tədbirlərin görülməsi önəm kəsb edir. Bu mənada Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yeni nəqliyyat infrastrukturunun yaradılması Orta dəhliz boyunca yeni nəqliyyat arteriyasının açılması baxımından xüsusi əhəmiyyətə malikdir.

C.Bayramov, həmçinin Azərbaycan-Ermənistan arasında normallaşma prosesinin faktiki vəziyyəti barədə məlumat verib. Diqqətə çatdırılıb ki, Azərbaycanın təşəbbüsü ilə Ermənistanla sülhün və dövlətlərarası münasibətlərin yaradılması haqqında ikitərəfli saziş layihəsinin imzalanması istiqamətində müzakirələr davam edir. "Bu xüsusda 2024-cü il mayın 10-11-də iki ölkənin xarici işlər nazirləri arasında Almatıda keçirilmiş görüşə evsahibliyi etdiyi üçün bir daha Qazaxıstana təşəkkürümüzü bildiririk. Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt başda Ermənistan və "Dağlıq Qarabağ"ın birləşməsinə çağıran "Ermənistan müstəqillik aktına" açıq şəkildə istinad edən Ermənistan konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı ərazi iddialarına son qoyulmasıdır. Azərbaycan dayanıqlı və davamlı sülhdə ən maraqlı tərəfdir", - deyə nazir vurğulayıb.

İclas gündəlikdəki məsələlər ətrafında çıxışlarla davam edib.

# Şuşa Zirvə görüşü hədəflərə doğru birlikdə addımlamaq imkanını genişləndirəcək

**Ötən gün Şuşada ilk dəfə olaraq Türk Dövlətləri Təşkilatına üzv ölkələrin rəhbərləri qeyri-rəsmi Zirvə görüşündə bir araya gəldilər. Dövlət başçıları qeyri-rəsmi görüş çərçivəsində Şuşa şəhərində görülən işlərlə tanış olub, şəhəri gəziblər.**

Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Şuşada qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi ilə bağlı qərar ötən ilin noyabrında Astanada TDT-nin "Türk Əsri" çağırışı altında keçirilən 10-cu yubiley Zirvə görüşündə verilib. Qeyri-rəsmi zirvə toplantısının keçirilməsi türk dövlətləri arasında əməkdaşlığın və tərəfdaşlığın daha da dərinləşməsinə xidmət göstərən amil kimi qiymətləndirilməlidir. Görüşün həsr edildiyi nəqliyyat, əlaqələr, iqlim dəyişikliyi kimi çox vacib mövzular sözügedən sahələr üzrə türk dövlətləri arasında əməkdaşlığın daha da genişləndirilməsinin təsdiqidir. Tədbir Türk Dövlətləri Təşkilatının gündəliyində duran məsələlərin yüksək səviyyədə müzakirəsi və reallaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Milli Məclisin deputatı Fazil Mustafa qəzetimizə açıqlamasında bildirib ki, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə toplantısının Şuşada keçirilməsi böyük əhəmiyyətə malikdir. Azərbaycanın işğaldan azad edilmiş mədəniyyət paytaxtında belə bir tədbirin keçirilməsi bu hadisənin nə qədər möhtəşəm, türk dünyası üçün necə önəmli olduğunu bir daha göstərir. "Ona görə də Şuşada keçirilən bu tədbir bilavasitə türk dövlətinin həm də öz suverenliyinin, müstəqilliyinin, ərazi bütövlüyünün



simvolik mənasını daşıyır. Burada diqqətçəkən bir nöqtə var. Bu, ilk növbədə türk dövlətlərini birləşdirən, dil, mədəniyyət, tarixdir. İkinci isə müasirlikdir. Şuşa hər cəhəti özündə ehtiva edən belə bir şəhər, mərkəzdir", - deyə deputat əlavə edib.

Onun sözlərinə görə, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə müzakirə olunan məsələlər, alınan qərarlar türk dünyasının gələcəyi üçün böyük əhəmiyyət daşıyır. Adətən belə qeyri-rəsmi görüşlərdə daha çox problemləri müzakirə etmək imkanı olur. Burada problemlərin mahiyyətini anlamaq və anlatmaq şəraiti mövcuddur.

F.Mustafa Türk Dövlətləri Təşkilatının məhz bu qeyri-rəsmi Zirvə toplantısının da gələcək birliyimizin, çağdaşlıq modelimizin doğru istiqamətlərini müəyyənləşdirəcəyinə əminliyini ifadə edib.

O vurğulayıb ki, bu görüş hədəflərə doğru birlikdə addımlamaq imkanını genişləndirəcək: "Türk dövlətlərinin birlikdə aldığı qərarların yerinə yetirilməsindən çox şey asılı olacaq. Tarixin bizə verdiyi bu fürsəti heç vaxt itirməməli və bunu daha da irəli aparmağa çalışmalıyıq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# TDT: iqtisadi əlaqələr də genişlənir

**Türk Dövlətləri Təşkilatı (TDT) gənc olmasına rəğmən, beynəlxalq aləmdə özünəməxsus tribunaya və sözə sahibdir. Təşkilat sürətlə, uğurla inkişaf etməkdə, gücünü, nüfuzunu, əhatə dairəsini, əlaqələrini günbəgün artırmaqdadır.**



Şübhəsiz ki, belə tərəqqinin əsasında tarixən eyni kökə, ənənələrə bağlılıq, siyasi, mədəni, hərbi əməkdaşlıqlarla yanaşı, quruma üzv ölkələrin iqtisadi potensialı, ticarət dövriyyəsi, nəqliyyat infrastrukturu, ayrı-ayrı sahələrə investisiya yatırımları və digər məsələlər dayanır. TDT həm ümumtəşkilat, həm də ikitərəfli və çoxtərəfli əlaqələr zəminində vahid güc mərkəzinə çevrilir. Türk dünyası ölkələrinin tarixi İpək yolu üzərində yerləşməsi onların Şərq və Qərb arasında artmaqda olan ticarət dövriyyəsi deməkdir, bu faktor isə iqtisadi məsələlərdə qurumun önəmli rola malik olmasına şərait yaradır.

Azərbaycanın türkdilli dövlətlərlə genişlənən əlaqələri müvafiq strateji tərəfdaşlıq haqqında bəyannamələr əsasında həyata keçirilir. Bütün bunların təməlində isə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın şəxsi təşəbbüsləri dayanır. Dövlətimizin başçısı haqlı olaraq bu barədə demişdir: "Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Hər il mütəmadi şəkildə TDT-nin iqtisadiyyat üzrə işçi qrupunun iclası və üzv dövlətlərin iqtisadiyyat nazirlərinin görüşü təşkil olunur. İclaslarda üzv ölkələr arasında iqtisadi münasibətlərin təkmilləşdirilməsi və inkişafı yolları barədə təkliflərin və bu sahədə üzləşdikləri problemlərin müzakirəsi aparılır. 2012, 2016 və 2021-ci il iclasları ölkəmizdə keçirilmişdir. 2020-ci il martın 6-da Azərbaycan Respublikası iqtisadiyyat nazirinin sədrliyi ilə COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr olunmuş iqtisadiyyat nazirləri və gömrük xidməti rəhbərlərinin videokonfrans formatında iclası reallaşıb. Növbəti il 9-11 sentyabr aralığında isə Bakı şəhərində TDT iqtisadiyyat nazirlərinin 10-cu iclası, iqtisadiyyat üzrə işçi qrupunun 12-ci iclası, Azərbaycanın Qarabağ regionunun bərpasına və inkişafına həsr olunmuş biznes forum keçirilib, tədbir iştirakçılarının işğaldan azad edilmiş Ağdam şəhərinə səfəri baş tutub. 2022-ci ilin 9 noyabrında Özbəkistanın Səmərqənd şəhərində TDT iqtisadiyyat nazirlərinin 11-ci, 2023-cü ilin 13-15 sentyabr tarixlərində 12-ci iclası, iqtisadiyyat üzrə işçi qrupunun 14-cü iclası və Dünya Türk İş Konqresinin 10-cu Qurultayı keçirilmişdir. Tədbirlərə iqtisadiyyat nazirinin birinci müavininin rəhbərlik etdiyi nümayəndə heyəti qatılıb. Ötən il martın 16-da Azərbaycan Prezidentinin təşəbbüsü ilə Ankarada TDT-nin növbədənkənar Zirvə görüşündə bir sıra mühüm sənədlər, eləcə də Türk İnvestisiya Fondunun yaradılması haqqında saziş imzalandı. Həmin proseslərin məntiqi davamı olaraq bu il mayın 17-18-də İstanbulda Türk İnvestisiya Fondunun təsis iclası reallaşdı.

Beləliklə, böyük türk ailəsinin iqtisadi platforması mühüm görüş və müzakirələrlə zəngindir. Ölkəmiz bu mehriban ailənin bütün üzvləri ilə yüksəksəviyyəli əlaqələrə malikdir. Amma Türkiyə quruma daxil olan ölkələr arasında xarici ticarət əməliyyatlarının həyata keçirilməsində 84 faizlə öndədir. Cümhuriyyətin siyahıda ilk sırada yer alması enerji ticarətinin dövriyyəsi ilə əlaqədardır. Belə ki, Azərbaycanın enerji məhsulları ixracında Türkiyə TDT ölkələri arasında yüksək paya malik yeganə dövlətdir. Azərbaycanın təbii qaz ixracının 17 faizi, xam neftin isə 1 faizi Türkiyə Cümhuriyyətinə ixrac edilir. Bu iqtisadi əlaqələri daha da genişləndirmək üçün Bakı-Tbilisi-Qars dəmir yolu xətti, eləcə də digər türkdilli ölkələrin də qoşula biləcəyi TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) kimi daha geniş şərait gerçəkləşib. Türkiyə ilə Azərbaycan arasında qeyri-neft sektoru üzrə ticarət dövriyyəsi də artmaqdadır. Respublikamızın qeyri-neft ixracına liderlik edən pambıq və kimya sənayesi məhsullarının böyük hissəsi qardaş ölkəyə göndərir.

TDT çərçivəsində iqtisadi münasibətlərin getdikcə genişlənməsi qarşılıqlı inam və etimad, eləcə də möhkəm, zəngin bünövrədən qaynaqlanır. Belə ki, ümumilikdə 4,8 milyon kvadratkilometr əraziyə, 1,4 trilyon dollar dəyərində ümumi daxili məhsula və 1 milyard 709,1 milyon dollardan çox ticarət dövriyyəsinə malik türk dövlətləri böyük iqtisadi potensiala, enerji resurslarına, yollar şəbəkəsinə və müasir hərbi imkanlara sahibdirlər. Dünyanın ümumi ticarət dövriyyəsinin 2,4 faizini və qlobal ümumi daxili məhsulun 1,6 faizini türk dövlətləri təşkil edir.

Bu gün dünyada cərəyan edən son hadisələr fonunda Azərbaycanın da üzərində yerləşdiyi Orta dəhlizin əhəmiyyəti artmaqdadır. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizdə müasir nəqliyyat-logistika infrastrukturu yaradılıb. Odur ki, Orta dəhlizlə yükdaşımaların həcmi nəzərəçarpacaq dərəcədə artır. 2023-cü ilin yanvar-avqust aylarında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımaların dinamikası 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 85,3 faiz artaraq 1,7 milyon tondan çox olub. Heç şübhəsiz ki, bu artım Azərbaycanın da həmin ölkələrlə iqtisadi əlaqələrinə öz təsirini göstərib. Belə ki, 2022-ci ildə respublikamızla türk dövlətləri arasında ticarət dövriyyəsi əvvəlki illərlə müqayisədə 70 faiz artaraq 7 milyard 170 milyon dollar təşkil edib. 2023-cü ilin yanvar-iyul aylarında isə Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi 5 milyard 666 milyon dollar təşkil edib. Bu göstərici də 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 41,9 faiz çoxdur. Həmin müddətdə Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi illik müqayisədə 40,5 faiz, Qazaxıstanla 32 faiz, Türkmənistanla 3,6 dəfə, Qırğızıstanla isə 4,8 dəfə artıb. Qeyd edək ki, yaxın illərdə türk dövlətləri ilə ticarət dövriyyəmizin 15 milyard dolladək artırılması hədəflənir.

Qeyd edildiyi kimi, TDT-yə üzv dövlətlərlə həm təşkilat daxilində, həm də ikitərəfli çərçivədə sıx münasibətlərimiz var. Belə yaxın dostluq və qardaşlıq əlaqələrinin olması, üzv dövlətlərin bir-birini qarşılıqlı şəkildə dəstəkləməsi təşkilatın inkişaf perspektivlərini şərtləndirən əsas amillərdən biridir. Hələ 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı bəziləri hətta KTMT-yə üzvlüklərinə baxmayaraq, haqlı mübarizəmizə öz dəstəklərini göstərdilər, tarixi Zəfərimizə sevindilər.

Üzv dövlətlər Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda apardığı bərpa-quruculuq işlərinə də öz töhfələrini verirlər. Bu mənada, özbək xalqı adından hədiyyə olaraq Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb, Qazaxıstan tərəfindən tikilmiş Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Cəbrayılda yaradılan Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi, qırğız xalqının dost dəstəyi kimi Ağdamın Xıdırlı kəndində inşa olunacaq təhsil ocağı, Zəngilanda birinci mərhələsi açılan "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksini və s. qeyd etmək olar. Həmçinin keçən ilin fevralında Türkiyədə baş verən zəlzələnin fəsadlarının aradan qaldırılmasında TDT ailəsinin köməyi xüsusi vurğulanmalıdır. Kahramanmaraşda fədakar inçaatçılarımızın qurub-yaratdığı "Azərbaycan" məhəlləsi də qardaş yardımına bir nümunədir.

TDT-nin "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşündə dövlətimizin başçısı çıxış edərək bununla bağlı bir sıra məqamlara toxunub. Ölkə rəhbəri bu təşkilata üzv dövlətlər arasında münasibətlərin möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu, artıq beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malik qurum kimi tanındığını diqqətə çatdırıb. TDT iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə yatırdığımızı və bunun əsas hissəsinin Türkiyəyə yönəldildiyini qeyd edib. Bütün bu müşahidə və təhlillər bir daha yəqinliyə əsas verir ki, Prezident İlham Əliyevin qarşıya qoyduğu məsul hədəfə - "Bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir" məqsədinə tezliklə nail olunacaq.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



**Məzahir Pənahovun sədrliyi ilə iyulun 6-da Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə MSK-nın 2024-cü il 29 iyun və 2 iyul tarixli iclas protokolları təsdiq edilib.

Sonra sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyası, Azərbaycan Ümid Partiyası, Böyük Quruluş Partiyası, Demokratik İslahatlar Partiyası, "Ana Vətən" Partiyası, Müsavat Partiyası və Klassik Xalq Cəbhəsi Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Komissiya üzvlərinə hər bir siyasi partiyanın MSK-ya müvafiq müraciəti barədə ayrı-ayrılıqda məlumat verilib və sözügedən siyasi partiyalar tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınması qərara alınıb.

İclasda daha sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib, həmçinin cari məsələlərə baxılıb.

MSK-nın iclası media subyektlərinin nümayəndələri tərəfindən geniş işıqlandırılıb.

**Qərar № 17/64**

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 29 iyun və 2 iyul tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 29 iyun və 2 iyul tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.07.2024*

**Qərar № 17/66**

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azərbaycan Ümid Partiyası tərəfindən səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

İqbal Fehruz oğlu Ağa-zadə
Ənvər Sərdar oğlu Ağazadə
Taleh Məhəmməd oğlu Əliyev
Tamilla Famil qızı Qulami
Anar Rafiq oğlu İsayev
Rəfail Alı oğlu Tağızadə
Səməd Əbdüləli oğlu Hətəmov
Qasım Rəhim oğlu Həsənov
Elnurə Zakir qızı Əliyeva
Məhəbbət Sərdar oğlu Orucov
Olqa Petrovna Həşimova
İlahə Artur qızı Sadıqova
Şükür İlqar oğlu Cavadov
Xanlar Nüsrət oğlu Abbasov
Mübariz Mustafa oğlu Maxsudov
Faiq Həsən oğlu Əliyev
Fizuli Qurban oğlu Əsgərov
Salman Məhəmməd oğlu İmanlı
Bəybala Əşrəf oğlu Əliyev
İmadəddin Məlikəhməd oğlu Səlimov
Namiq Zakir oğlu Əliyev

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**

Elman Abdulla oğlu Abbasov
Elşən Nadir oğlu Quliyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.07.2024*

**Qərar № 17/65**

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 2024-cü il 3 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Arif Qafar oğlu Rəhimzadə
Emil Tofiq oğlu Abasov
Əmir Baxşəli oğlu Babayev
İsa Mustafa oğlu Məmmədov
Elman Yusif oğlu Cəfərli
Qadir Abbas oğlu İbrahimov
Ehtibar Şəhrud oğlu İsmayılov
Muxtar Teymur oğlu Nağıyev
Vüsar Qəşəm oğlu İsmayılov
Namiq Məcid oğlu Əhmədov
Bəxtiyar Eyvaz oğlu Nəbiyev
Samir Əhməd oğlu Vəliyev
Azər Abdul oğlu Süleymanov
Ramil Vaqif oğlu Vəlibəyov
Araz Tofiq oğlu Xudadanov
Vüqar Səməndər oğlu Seyidov
Vüqar Gəncəli oğlu Rəhimzadə
Qafar Məmməd oğlu Əliyev
Bayram Mirazim oğlu Aslanov
Ramiz Ağəli oğlu Hüseynov
Abbas İslam oğlu Əliyev
Zahir Məmmədyar oğlu Qəhrəmanov
Rafiq Vaqif oğlu Əliyev
Bəxtiyar Mustafa oğlu Mustafayev
Samir Vadim oğlu Baxşiyev
Mehdi Eyyub oğlu Balabəyov
Məhəmməd Müslüm oğlu Balaqadaşov
Fidan Nizami qızı Hüseynova
David Nurəddin oğlu İbramxəlilov
Ayaz Akif oğlu Cəbrayılov
İsmayıl Hüseyn oğlu İbrahimov
Elmar Ağakişi oğlu Əhmədov
Elşən Zeynal oğlu Əzizov
Varis Rüstəm oğlu Rüstəmov
Kamil Məhəmməd oğlu Qurbanlı
Ülvi Cəlil oğlu Fərzəliyev
Mirsüleyman Mirismayıl oğlu Mirxaslı
Seyfəddin Abusət oğlu Əliyev
Anar Xalığ oğlu Alışov
İqbal Qabil oğlu Əmənullayev
Həbib Zərxan oğlu Cəfərov
Malik Soltanağa oğlu Mirzəyev
Səfa Malik oğlu Ağayev
Müşfiq Arzuman oğlu Səfərov
Nazimə Pəsərək qızı Şamıyeva
Rövşən Nağı oğlu Əhmədov
Qasım Nurməhəmməd oğlu Qasımov
Tural Şahnəzər oğlu Qasımlı
Zaur Fazil oğlu Muradov
Füzuli Tahir oğlu Abdullayev
Sahib Yunis oğlu Şükürov
Əlişah Rəcəb oğlu Rəcəbov
Şəhla Əhməd qızı Abdullayeva
İlkin Böyükağa oğlu Əliyev
Samir Hatəm oğlu Qocayev
Eldar Garay oğlu Əsədov
Faqət Nəcəb qızı Şadlinskaya
Vüqar Sabir oğlu İsayev
Gündüz Çankay oğlu Bayramov
Fəxrəddin Vəli oğlu Vəliyev
Rüstəm Vaqif oğlu Nağıyev
Nihad Məmmədtağı oğlu Pənahov
Etibar Cəfər oğlu Hacıyev
Anar Telman oğlu Nəbiyev
Azad Rizvan oğlu Balayev
Fərid Səfər oğlu Ramazanov
Natiq Şükür oğlu Allahverdiyev
Daşqın Gündüz oğlu Mikayılov
Abil Adil oğlu Ağasəfov
Saleh Calal oğlu Məhərrəmov
Mansur Söhbət oğlu Quliyev
Arif Aydın oğlu Fərzəliyev
İlqar Süleyman oğlu İlyasov
Vahid Surxay oğlu Əliyev
Həbib Məhərrəm oğlu Misirov
Təvəkkül Böyükkişi oğlu Əliyev
Natiq Qurban oğlu Quluzadə

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**

Əhliman Safalan oğlu Tağıyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.07.2024*

**Qərar № 17/67**

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Böyük Quruluş Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Böyük Quruluş Partiyası Ali Məclisinin 2024-cü il 30 iyun tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Böyük Quruluş Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Nazim Əlihüseyn oğlu İsmayılov
Zilfiqar Davıd oğlu İbrahimov
Ağababa Həzi oğlu Əlizadə
Fəxrəddin Zülfəli oğlu Sadiqov
Elçin Nazim oğlu Ağasiyev
Rəşad Adil oğlu Məmmədov
Eyvaz Çərkəz oğlu Məmmədov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**

Tural Nazim oğlu Mustafayev
Leyla İbrahim qızı Musayeva.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.07.2024*

**Qərar № 17/68**

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Demokratik İslahatlar Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Demokratik İslahatlar Partiyası Siyasi Şurasının 2024-cü il 3 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Demokratik İslahatlar Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

İlkin Samit oğlu Həsənov
Pərviz Məlikməmməd oğlu Məmmədov
Samir Adil oğlu Quliyev
Sevda Rafiq qızı Həsənova
Şahin Yusif oğlu Ağayev
Fuad Əşrəf oğlu Əşrəfov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**

Alla Alekseyevna Korablyova.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.07.2024*

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



**Qərar № 17/69**

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə "Ana Vətən" Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə "Ana Vətən" Partiyası İdarə Heyətinin 2024-cü il 2 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər "Ana Vətən" Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Elçin Fəzail oğlu Ağamalı
Rəşadət Qüdrət oğlu Yaqublu

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**

Nərmin Fuad qızı Kazımova.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.07.2024*

**Qərar № 17/70**

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Müsavat Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Müsavat Partiyası tərəfindən səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Müsavat Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Gülağa Qulam oğlu Aslanlı
Razim Malikəjdər oğlu Əmiraslanlı
Yusif Haceyib oğlu Mehti
Fəridə Məmməd Əli qızı Ələsgərli
Cəfər Mahmud oğlu Səfərli
Azər Əbülfəz oğlu Əsgərov
Hidayət Xudaverdi oğlu İsmayılov
Rahim Adış oğlu Axundov
Şəmsəddin Dəhəzxan oğlu Əmirov
Zakir Ağaəli oğlu İsmayıl
Valeh Kərim oğlu Kərimov
Mailə Nəriman qızı Bayramova
Sevda Talıb qızı Səfəralıyeva
Etibar Sucan oğlu Əkbərov
Rasim İslam oğlu Məmmədzadə
Ərzulla Əşrəf oğlu Bulud
Əliş Təyyar oğlu Əzizov
İmanverdi Heybət oğlu Əliyev
Sərəncam İsmayıl qızı İbrahimli
Cavad Adışirin oğlu Cavadlı
Dünyaxanım Cahan qızı Carullayeva
Fizuli Vəzir oğlu Carullayev
Söhrab Nəsrulla oğlu Əmrahov
Niyazi Babaxan oğlu Babalı
Ağahüseyn Alhüseyn oğlu Mahmudbəyli
Mirzağa Aprel oğlu Axund
Elnur Söhrab oğlu Əmrahov
Bəxtiyar Söhrab oğlu Əmrahov
İlkin Sərraf oğlu Əmrahov
Mustafa Mustafa oğlu Hacılı

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**

Kərimxan İldırım oğlu Zeynalov
Tahir Fətda oğlu Tağıyev
Ələddin Əliağa oğlu Mirzə
Eldar Ağaxan oğlu Soltanlı
Ələddin Qədir oğlu Ələsgərov
Əlipənah Ağaşirin oğlu Rzalı.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.07.2024*

**Qərar № 17/71**

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Klassik Xalq Cəbhəsi Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Klassik Xalq Cəbhəsi Partiyası tərəfindən səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Klassik Xalq Cəbhəsi Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Gülağa Qəribəli oğlu Adgözəlov
Kamal Əşrəf oğlu Poladov
Elşən Xasay oğlu Həşimov
Sudeyif İsmayıl oğlu Sadıxlı
Təhmasib Əli oğlu Şirinov
Qismət Yunus oğlu Məstanov
Telli Şikar qızı Mirzəyeva
Rauf Hüseynağa oğlu Mirzəyev
Saleh Qədimalı oğlu Qədimalıyev
Rəşid Ərşad oğlu Əliyev
Əlisa Əzizağa oğlu Həsənov
Adil Eynalı oğlu Mikayıllı
Əflatun Həsən oğlu Hüseynov
Ataş Davud oğlu Əhmədov
Aytəkin Kapitan qızı İmranova
Nizami Yaqub oğlu Abdurrazakov
İlham Aprel oğlu Axund
Səfa Şəfi oğlu Şəkiliyev
Balağa Vəli oğlu Mikayılov
Cəmil Oruc oğlu Abbasov
Fayaz Güləmirzə oğlu Vəliyev
Sevindik Mehman oğlu Salmanov
Südabə Səydulla qızı Süleymanova
Rəyasət Məmmədağa oğlu Bağırov
Miralı Kərəm oğlu Səlimli
Elçin Əflatun oğlu Hüseynzadə
İman İbiş oğlu İmanov
Səməd Behbud oğlu Əhmədov
Nizami Məhərrəm oğlu Ələkbərov
Faiq Cəmil oğlu Məmmədov
Əsgər Zəki oğlu Kərimov
Ələsgər Calal oğlu Hüseynov
Nadir Çoban oğlu Babayev
Ələşrəf İsmayıl oğlu Bəbirov
İlqar Müzəffər oğlu Ələsgərov
Vaqif Muxtar oğlu Babayev
Nişanə Abdulqədir qızı Mikayılova
Səyara Xankişi qızı Əliyeva

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**

Şahin Əliş oğlu Vəliyev.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.07.2024*

**Qərar № 17/72**

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Kifayət Mikayıl qızı Cəfərova 15 saylı Yasamal birinci, Ziba Cəbrayıl qızı Manafova 16 saylı Yasamal ikinci, Əli Qurban oğlu Cəfərov 30 saylı Suraxanı birinci, Azər Aydın oğlu Mirzəliyev 40 saylı Gəncə üçüncü, Gülrux Mətləb qızı Əsədova 44 saylı Sumqayıt üçüncü, Gülər Mircəfər qızı Mirzəyeva 70 saylı Neftçala, Asif Məmmədağa oğlu Həsənli 72 saylı Cəlilabad kənd, Afərim Qasım qızı Verdiyeva 101 saylı Samux - Şəmkir seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Əli Qurban oğlu Cəfərov 15 saylı Yasamal birinci, Kifayət Mikayıl qızı Cəfərova 30 saylı Suraxanı birinci, İsmayıl Abbas oğlu Əliyev 40 saylı Gəncə üçüncü, Nəriman Allahyar oğlu Həsənov 101 saylı Samux - Şəmkir seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*06.07.2024*

# Milli Məclisə seçkilərdə namizədliyin irəli sürülməsinə dair tələblər

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2024-cü il sentyabrın 1-nə təyin edilib. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinə əsasən ölkə vətəndaşlarının bu seçkilərdə seçmək və seçilmək hüququ var. Daha konkret desək, səsvermə günü də daxil olmaqla 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşı seçmək, seçkilərin gedişini müşahidə etmək, seçkiqabağı təşviqat aparmaq və seçki qanunvericiliyində nəzərdə tutulmuş digər seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququna (aktiv seçki hüququ) malikdir.**



Bununla belə bəzi hallarda bu hüquq qanunvericilikdə nəzərdə tutulmuş qaydada məhdudlaşdırıla bilər. Məsələn, məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslər aktiv seçki hüququndan məhrumdurlar. Vətəndaş aktiv seçki hüququndan məhrumdursa, onun heç bir halda passiv seçki hüququ yarana bilməz. Bəzi şəxslər isə tutduqları vəzifələrinə görə - hərbi qulluqçular (hərbi qulluqda olduqları müddətdə), hakimlər (hakim olduqları müddətdə), dövlət qulluqçuları (dövlət qulluğunda olduqları müddətdə), din xadimləri (peşəkar dini fəaliyyət ilə məşğul olduqları müddətdə) Milli Məclisin deputatı ola bilməzlər. Göstərilən şəxslər namizədliklərini irəli sürdükləri zaman seçkili vəzifəyə seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyinə dair yazılı öhdəlik götürür və bu barədə ərizə yazır.

Qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasının seçkilərdə iştirak etmək hüququna malik olan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada deputat seçilə bilər. Bu məqsədlə Seçki Məcəlləsinin 53 və 54-cü maddələrinə uyğun olaraq birmandatlı seçki dairəsi üzrə namizədlər vətəndaşların özləri, təşəbbüs qrupları, siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən irəli sürə bilər.

Qanunvericilik deputatlığa namizədlərə aid tələblərin dairəsini müəyyən etmişdir. Belə ki, ikili vətəndaşlığı olan (ikili vətəndaşlığı qalanadək), xarici dövlətlər qarşısında öhdəliyi olan (həmin öhdəliklərə xitam verilənədək), fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilmiş şəxslər, ağır və xüsusi ilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslər seçkilərdə deputatlığa namizəd ola bilməzlər. Xarici dövlətlər qarşısında öhdəliyi olan dedikdə, 5 ildən çox xarici dövlətdə yaşamaqla bağlı əmələ gələn davamlı, möhkəm və sabit münasibətlərin mövcudluğuna səbəb olan qeydiyyat, vergi, ölkə ərazisini müəyyən müddətdən artıq tərk etməmək, habelə digər siyasi və ya hüquqi öhdəliklər başa düşülür.

Azərbaycan Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşayan, lakin vətəndaşlığı olmayan şəxslər isə Milli Məclisə seçkilərdə yalnız özlərinin səsvermə hüququndan istifadə edə bilərlər.

Milli Məclisə seçkilərdə seçki hüququ olan vətəndaşlar namizədliklərini öz təşəbbüsləri, seçicilərin təşəbbüs qrupu, siyasi partiya, siyasi partiyaların blokları vasitəsilə irəli sürə bilərlər. Namizədliyini irəli sürən vətəndaş müvafiq seçki dairəsinin dairə seçki komissiyasına namizədliyin irəli sürülməsinə dair bildiriş, Seçki Məcəlləsinin 53-cü maddəsinin tələblərinə uyğun tərtib edilmiş öhdəlik ərizəsi (ərizədə deputatlığa namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, onun doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya nömrəsi, verilmə tarixi və ya etibarlılıq müddəti, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda - fəaliyyət növü), məhkumluğu, vətəndaşlığı və başqa dövlətlər qarşısında öhdəliyinə dair məlumatlar, habelə deputat seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir), namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə, həmin səlahiyyətli nümayəndəyə aid notariat qaydasında təsdiq edilmiş vəkalətnamə, namizəd öz ərizəsində siyasi mənsubiyyətinə dair məlumat daxil edibsə, bu barədə təsdiqedici sənəd təqdim etməlidir.

Müvafiq seçki dairəsinin ərazisində daimi yaşayan və seçki hüququ olan ən azı 50 nəfərdən ibarət Azərbaycan Respublikasının vətəndaşları seçicilərin təşəbbüs qrupunu yarada bilər. Həmin təşəbbüs qrupunun formalaşması qaydası "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların öz təşəbbüsü ilə deputatlığa namizədliyinin irəli sürülməsi, seçicilərin təşəbbüs qruplarının yaradılması və onlar tərəfindən deputatlığa namizədin irəli sürülməsi qaydaları haqqında Təlimat"la müəyyən edilmişdir.

Təşəbbüs qrupunun yaranması üçün seçkilərdə iştirak etmək hüququ olan vətəndaşlar öz yığıncağını keçirməlidirlər. Həmin yığıncaqda seçicilərin təşəbbüs qrupunun yaradılması və təşəbbüs qrupunun nümayəndəsinin müəyyən edilməsi, deputatlığa namizədliyin irəli sürülməsi, namizədliyin irəli sürülməsinin təsdiqi üçün müvafiq seçki komissiyasına bildirişlə müraciət edilməsi məsələləri həll olunur. Eyni zamanda yığıncağın gündəliyinə çıxarılaraq müzakirə edilmiş hər bir məsələ barədə qərar qəbul olunur və yığıncağın protokolu tərtib edilir. Prosesin sonunda qanunvericiliyin tələbinə uyğun olaraq, sözügedən protokolu iclasın sədri və katibi imzalayır. Bundan sonra seçicilərin təşəbbüs qrupunun irəli sürdüyü namizədin sənədlərini seçki komissiyasına seçicilərin təşəbbüs qrupunun nümayəndəsi və ya namizəd təqdim edə bilər. Namizəd seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürüldükdə seçicilərin təşəbbüs qrupunun yaradılması və namizədliyin irəli sürülməsi barədə yığıncağın protokolu, namizədin irəli sürülməsinə təşəbbüs edilməsi barədə bildiriş, Seçki Məcəlləsinin 53-cü maddəsinin tələblərinə uyğun tərtib edilmiş öhdəlik ərizəsi (ərizədə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, onun doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya nömrəsi, verilmə tarixi və ya etibarlılıq müddəti, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda - fəaliyyət növü), məhkumluğu, vətəndaşlığı və başqa dövlətlər qarşısında öhdəliyinə dair məlumatlar, habelə deputat seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir), namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə, səlahiyyətli nümayəndəyə aid notariat qaydasında təsdiq edilmiş vəkalətnamə, namizəd öz ərizəsində siyasi mənsubiyyətinə dair məlumat daxil edibsə, bu barədə təsdiqedici sənəd təqdim olunmalıdır.

Namizədliyin irəli sürülməsi ilə əlaqədar təqdim edilmiş sənədlərə dairə seçki komissiyası tərəfindən 5 gün müddətində baxılır, namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə müvafiq qərar qəbul edilir və həmin qərar namizədə və ya onun səlahiyyətli nümayəndəsinə verilir.

Seçki Məcəlləsində nəzərdə tutulan tələblərə əməl olunmaması, yəni yuxarıda sözügedən sənədlərin lazımi qaydada rəsmiləşdirilməməsi və ya namizədlərin irəli sürülməsində qanunla müəyyənləşdirilmiş qaydanın pozulması namizədliyin irəli sürülməsinin təsdiq edilməsindən imtina üçün əsas ola bilər. Namizədin qeyə alınması üçün təqdim edilən sənədlərdəki səhvlər və pozuntular namizəd tərəfindən düzəlişlərin edilməsi yolu ilə aradan götürülə bilərsə, dairə seçki komissiyası qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə namizədi bu haqda xəbərdar edir və onun tərəfindən müvafiq düzəlişlər edildikdən sonra namizədliyin irəli sürülməsini təsdiqləyir.

Milli Məclisə seçkilərdə namizədliyin irəli sürülməsi siyasi partiyalar və siyasi partiyalar blokları tərəfindən də həyata keçirilə bilər. Həmin subyektlər tərəfindən namizədliyin irəli sürülməsi qaydası Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyasının müvafiq normativ xarakterli aktları ilə tənzimlənir.

***Arifə MUXTAROVA,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Düşünülmüş siyasət, əzm və qətiyyət

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurunu təmin edən çox amillər var. Başlıca amil isə bu siyasətin möhkəm təmələ əsaslanmasıdır, başlanğıcdan düzgün istiqamətə yönəlməsidir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, iqtisadi-sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc müstəvisində sürətli şəkildə irəliləməsi müasir Azərbaycanın gerçəklikləridir.**

Prezident İlham Əliyev hakimiyyətə gələndə xalq qarşısında söz verdiyi kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli istiqamətində Ulu Öndərin başladığı siyasi kursu yüksək peşəkarlıqla və uğurla davam etdirdi. Sonda hədəfinə çatdı, işğal olunmuş Azərbaycan torpaqlarını azad etdi.

Ölkə rəhbəri müharibəyə kimi ən geniş beynəlxalq arenalarda, ən yüksək kürsülərdə dəfələrlə bütün dünyaya bəyan etdi ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, Azərbaycan bu məsələdə öz mövqeyindən bir addım da olsun geri çəkilməyəcək. Eyni zamanda nizami ordu quruculuğu prosesini uğurla davam etdirdi. Qısa müddətdə Silahlı Qüvvələrimiz həm təchizatına, həm peşəkar hazırlığına, həm də döyüş ruhuna görə dünyanın ən öncül orduları sırasında qərarlaşdı. Dövlətimizin başçısının yüksək səriştə ilə qurduğu diplomatik münasibətlər hərbi hissələrimizin ən müasir silahlarla təchiz olunmasına imkan yaratdı. Buna 44 günlük Vətən müharibəsində hər birimiz şahid olduq. Azərbaycan həm də XXI əsrin innovativ müharibəsini apardı.

Təxminən 30 il çəkən, sülh danışıqları ilə bu qədər müddətdə həll olunmayan münaqişəyə 44 günlük Vətən müharibəsi yekun vurdu. Bütün dünya gördü ki, haqqı sübuta yetirməkdən ötrü təkcə beynəlxalq hüquq normaları kifayət etmir. Doğrunun, ədalətin sənin tərəfində olması ilə də iş bitmir. Qələbə arzusuna çatmaq üçün həm də güclü, qüdrətli olmalısan.

8 Noyabr Zəfər günü öz tarixi qiymətini aldı. Bu, Şuşa həsrətimizin bitdiyi zaman idi. Həmin gün hərbi əməliyyatlar dayandırıldı. 2023-cü ildə 23 saatlıq antiterror əməliyyatı nəticəsində isə ərazi bütövlüyümüz bərpa olundu. Qarabağdakı separatçı yuvasının dağıdılmasından, Xankəndidə və başqa əzəli-əbədi yurdlarımızda dövlət bayrağımızın ucaldılmasından sonra zəfər günü Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin, gücünün və qüdrətinin rəmzi kimi daha bir tarixi dəyər qazandı.

24 may 2024-cü ildə Azərbaycan Dövlət Sərhəd Xidməti Qazax rayonunun Ermənistanın illərdir, işğal altında saxladığı 4 kəndini nəzarətə götürdü. Bağanıs Ayrım, Qızılhacılı, Aşağı Əskipara və Xeyrımlı kəndləri üzərində dövlət suverenliyimiz təmin olundu. 4 kəndimizin heç bir hərbi əməliyyat aparılmadan, bir güllə belə atılmadan və insan itkisinə yol verilmədən Ermənistan tərəfindən geri qaytarılması Azərbaycanın Vətən müharibəsindəki və antiterror əməliyyatındakı qələbəsinin davamı oldu.

### Daha bir ağrılı səhifə qapandı

Adları çəkilən bu kəndlər üzərində Azərbaycanın dövlət suverenliyinin bərpasının bizim üçün başqa bir böyük tarixi dəyəri də var. Bu kəndlər Ermənistanın ötən əsrin sonlarına doğru Azərbaycana qarşı alovlandırdığı işğal siyasətinin simvollarından sayıla bilər. Belə ki, ermənilər Azərbaycana qarşı elan edilməmiş müharibəyə başlayarkən ilk böyükmiqyaslı hərbi cinayəti məhz Bağanıs Ayrım kəndində törətmişdilər. Kənddə 5 üzvdən ibarət bir azərbaycanlı ailəsi xüsusi amansızlıqla qətlə yetirilərək yandırılmışdı. O faciənin televiziya ekranından, mətbuat səhifələrindən yaddaşımıza köçən kadrları insanlıq əleyhinə cinayət faktı kimi qəlbimizdə dərin bir yara açmışdır.

Bağanıs Ayrım həm də Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunan ilk Azərbaycan kəndi idi. 1990-cı ilin 23 martından 24 martına keçən gecə ermənilər planlı hücumla Bağanıs Ayrımı işğal etmiş və bu zaman kəndin 10 sakini öldürülmüş, 15 nəfərdən çox vətəndaşımız yaralanmış, 100-dən çox ev talan edilmişdi.

Qazax rayonunun Qızılhacılı kəndi də Ermənistan ordusu tərəfindən 1992-ci ilin 11 mayında tam işğal edilərək dağıdılmışdı. Onu da xatırladaq ki, 2010-cu ilin yanvarında erməni hərbçiləri daha bir vəhşilik törədərək kənd qəbiristanlığını belə yerlə yeksan etmişlər.

Rayonun qədim tarixə malik Aşağı Əskipara kəndinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalı isə 1992-ci ilin iyununa, Xeyrımlı kəndinin işğalı 1992-ci ilin martına təsadüf edirdi.

Beləliklə, bu kəndlərimizin işğaldan azad edilməsi ilə tariximizdəki ağrılı bir səhifə də qapandı. Həmin kəndlərlə bağlı qəlbimizdəki yurd həsrəti də bitdi. Qarabağın, Şərqi Zəngəzurun şəhər, qəsəbə və kəndləri kimi Qazaxın bu 4 kəndində də yeni bir həyat başlandı.

### Qətiyyətli mövqe

Tarixi qələbəmizin davamı kimi bu kəndlərin Ermənistan tərəfindən Azərbaycana qaytarılması Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl siyasətin, qətiyyətli mövqeyinin, dəmir iradəsinin nəticəsidir. Dövlətimizin başçısının Qazax rayonunun anklav olmayan bu 4 kəndi ilə bağlı mövqeyi birmənalı idi. Cənab İlham Əliyev bəyan edirdi ki, Qazaxın Ermənistan ərazisində anklav olmayan 4 kəndi qeyd-şərtsiz Azərbaycana qaytarılmalıdır. Bu mövqeyi dövlət rəhbərimiz bu ilin 10 yanvarında yerli televiziya kanallarına müsahibəsində də bir daha bəyan etmişdi. Kəndlərimiz Müzəffər Ali Baş Komandanın bir sözü ilə geri qaytarıldı. Prezident İlham Əliyev bütün məsələlərdə olduğu kimi, bunda da Azərbaycanın prinsipial mövqeyini qorudu. 19 aprel 2024-cü il tarixində sərhəddə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşündə Qazaxın adıçəkilən kəndlərinin Azərbaycana geri qaytarılması barədə razılıq əldə edildi. Qısa müddətdən sonra isə həmin kəndlər Azərbaycan Dövlət Sərhəd Xidmətinin nəzarətinə keçdi.

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi qətiyyəti sayəsində əldə etdiyimiz bu tarixi nəticə bir daha göstərdi ki, əgər regionda müxtəlif təxribatlarla suyu bulandırmaq istəyən xarici qüvvələr, vasitəçi cildinə girmiş "araqarışdıranlar" olmasa, bir çox məsələləri yoluna qoymaq, dayanıqlı sülhə, təhlükəsizliyə nail olmaq mümkündür. Azərbaycan və Ermənistanın arada heç bir vasitəçi olmadan sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə başlaması, prosesdə ilk ciddi nəticələrin əldə edilməsi bunun təzahürüdür.

### Sülh sazişi üçün əsas şərt

Azərbaycan daim etibarlı sülh uğrunda mübarizə aparır. Bunun üçün artıq müstəsna imkanlar da yaranıb. Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edən zaman Prezident İlham Əliyev iki ölkə arasında sülh sazişinin bağlanması ilə əlaqədar bir çox məsələlərə aydınlıq gətirdi və xüsusi diqqətə çatdırıldı ki, sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir: "Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq".

Söhbət zamanı qeyd olundu ki, hazırda ikitərəfli səviyyədə daha yaxşı nəticələr görünür. Kiminsə tərəfindən bu prosesə müdaxilə yoxdur. Sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində də razılıqlar əldə edilir. Hələ sülh müqaviləsi imzalanmasa da, lakin sərhədlərin delimitasiyasına artıq nail olunub.

Qlobal səviyyədə ölkəmizin diplomatik fəaliyyətinin şaxələndirildiyini deyən dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqının 10 ölkəsi arasında strateji tərəfdaşlıq haqqında bəyannamənin olduğunu qeyd etdi və vurğuladı ki, bu sənədlərin çoxu torpaqlarımızın işğalı zamanı Azərbaycan ilə Ermənistan arasında heç bir sülh müqaviləsi olmadığı bir dövrdə imzalanıb. Bu baxımdan Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin olmaması hər hansı bir ölkənin regionda fəaliyyətinin səviyyəsinin müəyyənləşdirilməsi üçün bir amil ola bilməz.

Ermənistan 28 illik bir dövrdə beynəlxalq hüququn fundamental prinsipləri ilə razılaşmaq istəmədi. Onlar bütün humanitar qanunları pozdular, BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən müvafiq qətnamələrinə məhəl qoymadılar. Təəssüf ki, heç kim onlara zərrə qədər də irad tutmadu. Münaqişə barədə danışan bir çox ölkələr Azərbaycanın ərazi bütövlüyünə sadiqlik bəyan etmirdilər. "İndi - biz Ermənistanın işğalçı ordusuna döyüş meydanında qalib gəldikdən və onları torpaqlarımızdan qovduqdan sonra bizim ərazi bütövlüyümüzə dəstəklə bağlı bəyanatlar eşidirik. Amma biz bunu artıq özümüz təmin etmişik. Kiminsə bizim ərazi bütövlüyümüzü tanıyıb-tanımaması mahiyyət kəsb etmir"- Prezident İlham Əliyev vurğuladı. Daha sonra dövlətimizin başçısı qeyd etdi ki, 28 illik bir dövrdə razılaşdırıla bilməyən məsələlərin 1-2 ilə həll edilməsi çətindir. Həm də Azərbaycan ilə Ermənistan arasında substantiv danışıqlara, demək olar ki, dekabr ayında başlanılıb, yəni cəmi 6 aydır gedir. Çünki ondan əvvəl Ermənistan sülh müqaviləsinə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini salmaq istəyirdi və bu, qəbuledilməz idi.

Söhbət zamanı xüsusi vurğulandı ki, Ermənistan öz konstitusiyasında hökmən dəyişiklik etməlidir. Bu, sülh sazişi üçün başlıca şərtdir.

Qayıdış hüququ ilə əlaqədar səfirin şərhinə cavabında Azərbaycan Prezidenti bildirdi ki, qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən də Qərbi Azərbaycan İcmasının nümayəndələrinə şamil edilməlidir.

Bu gün Azərbaycan regionun lider dövləti, əsas söz sahibi kimi böyük bir tarixi missiyanı üzərinə götürüb. Bu, yaşadığımız coğrafiyada sülhün, davamlı inkişafın, insanların rifah və xoşbəxtliyinin təmin olunması deməkdir. Azərbaycan dövləti Prezident İlham Əliyevin strateji baxışı, qətiyyəti, doğru qərarlarla yaratdığı yeni reallıqlar sayəsində bu missiyanı da uğurla yerinə yetirməkdədir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Hakan FİDAN: "Şuşa Vətən müharibəsində Azərbaycanın şanlı Qələbəsinin rəmzidir"




**"Şuşa 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın qazandığı şanlı Qələbənin rəmzidir. Bu Zəfər naminə canlarını fəda edən müqəddəs şəhidlərimizin xatirəsi önündə ehtiramla baş əyir, qazilərimizə hörmətimi ifadə edirəm".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclasındakı çıxışında Türkiyənin xarici işlər naziri Hakan Fidan deyib.

Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda davamlı sülhün təmin edilməsi üçün tarixi imkan yarandığını vurğulayan nazir deyib: "Bu fürsət, sadəcə, bəzi ölkələr üçün deyil, həm də hazırda bağlı olan kommunikasiyaların açılması kontekstində türk dünyası da daxil olmaqla regional və qlobal təhlükəsizlik baxımından da əhəmiyyətlidir. Azərbaycan ilə Ermənistan arasında davam edən danışıqların tezliklə sülh sazişinin imzalanması ilə başa çatacağına ümid edirik. Bu prosesdə Azərbaycanın güclü qətiyyətini və müsbət mövqeyini xüsusilə təqdir edirik. Bəzi Qərb ölkələrinin Ermənistanı açıq-aşkar himayə edən və Azərbaycanın problemlərinə məhəl qoymayan qeyri-mütənasib mövqeyindən məmnun deyilik. Vurğulamaq istəyirəm ki, türk dünyası bu prosesin uğurla başa çatması üçün qardaş Azərbaycana tam dəstəyini sonunadək davam etdirəcək".

Türk dünyasının beynəlxalq siyasətin mühüm mərkəzlərindən birinə çevrildiyini diqqətə çatdıran türkiyəli nazir qeyd edib ki, qlobal güclərin rəqabətinin bizim regiona təsirini azaltmaq üçün səyləri birləşdirmək, bütün imkanlardan istifadə edərək birgə rifah naminə fəaliyyət göstərmək lazımdır. Onun sözlərinə görə, regional əməkdaşlığın və müştərək çalışmaların iki təməl prinsipi məhz bundan ibarətdir.

Hakan Fidan vurğulayıb ki, hazırkı dünya nizamında nüfuzlu platforma kimi möhkəmlənən TDT çərçivəsində əlaqələri daha da inkişaf etdirmək üçün yaxşı fürsət yaranıb. Təhsil sahəsində əməkdaşlığın və gənclərlə bağlı layihələrin əhəmiyyətini qeyd edən nazir əlavə edib ki, tez bir zamanda vahid əlifba tətbiq edilməlidir.

Türkiyəli nazir gündəliyin əsas mövzularından olan rəqəmsal texnologiyalar, kommunikasiya, enerji, maliyyə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlığı daha da inkişaf etdirmək üçün lazımi hüquqi bazanın yaradılmasına ehtiyac olduğunu da qeyd edib. "Regionumuzda yaranan fürsətləri yeni kontekstdə dəyərləndirmək lazımdır", - deyə Hakan Fidan vurğulayıb.

## Çin XİN: "Strateji tərəfdaşlıq Çin-Azərbaycan münasibətlərinin inkişaf tarixində mühüm mərhələdir"



**Çinin və Azərbaycanın dövlət başçılarının Çin-Azərbaycan strateji tərəfdaşlığının qurulması haqqında birgə bəyannaməsi iki ölkənin münasibətlərinin inkişafı tarixində mühüm mərhələdir.**

**AZƏRTAC xəbər verir ki, bunu Çin Xarici İşlər Nazirliyinin rəsmisi xanım Mao Nin iyulun 5-də ənənəvi mətbuat konfransında deyib.**

Çin XİN-in rəsmisi bildirib ki, hər iki tərəf strateji tərəfdaşlıq münasibətlərini qarşılıqlı siyasi dəstəyin daha da gücləndirilməsi, əsas xətt kimi "Bir kəmər, bir yol"un keyfiyyətli tikintisi daxil olmaqla, hərtərəfli əməkdaşlığın dərinləşdirilməsi, beynəlxalq məsələlərdə səmərəli əlaqələndirmənin həyata keçirilməsi, hər iki xalqın mənfəəti naminə Çin-Azərbaycan strateji tərəfdaşlığının sağlam və sabit inkişafı üçün başlanğıc nöqtəsi kimi qəbul edəcək.

Çin ilə Azərbaycan arasında diplomatik münasibətlərin 1992-ci ildə qurulduğunu diqqətə çatdıran Mao Nin bildirib ki, ÇXR Lideri Si Cinpinin də dediyi kimi, Çin-Azərbaycan münasibətləri 30 ildən çoxdur uğurla və davamlı inkişaf edir, iki ölkə arasında əməkdaşlıq səmərəli nəticələr verib və daha zəngin strateji məzmuna çatıb.

XİN-in rəsmisi vurğulayıb ki, xüsusilə son illər Sədr Si Cinpin Prezident Əliyevlə sıx əlaqə saxlayıb və Çin-Azərbaycan münasibətlərinə strateji əhəmiyyət verib. Hər iki tərəf suverenlik və ərazi bütövlüyü kimi ölkələrin əsas maraqlarına dair məsələlərdə bir-birini qətiyyətlə dəstəkləyir. İkitərəfli ticarətin həcmi təxminən bir milyon ABŞ dolları səviyyəsindən yüksələrək bir milyard dolları ötüb. İki ölkə Şanxay Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), BMT çərçivəsində sıx əlaqələrə və əməkdaşlığa malikdir. Bu xüsusda Çin-Azərbaycan münasibətlərinin keyfiyyətcə yaxşılaşması təbii haldır.

## Etibarlı tərəfdaşlığın bariz təcəssümü

### ŞƏT-ə üzv dövlətlər Azərbaycanla yüksəksəviyyəli münasibətlərin formalaşmasında maraqlıdır



**"Şanxay Əməkdaşlıq Təşkilatının Astana şəhərində "ŞƏT+" formatında keçirilmiş görüş və Prezident İlham Əliyevin bu tədbirdə iştirakı çox vacib məqamlardan xəbər verir. Azərbaycan ikinci dəfədir ki, ŞƏT-in Zirvə toplantısına dəvət olunur. Bu fakt ölkəmiz ilə üzv dövlətlər arasında inkişaf edən tərəfdaşlığın və dostluğun göstəricisi kimi qiymətləndirilməlidir".**

Milli Məclisin deputatı Vüqar İskəndərov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat dəhlizləri üzərində qarşılıqlı fəaliyyəti formalaşdıran ölkədir. Coğrafi mövqeyimiz və nəqliyyat infrastrukturlarına qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika habına çevirmək imkanı qazandırıb. Prezident də çıxışında bununla bağlı bir çox vacib fikirlər söyləyib. Həm Orta dəhlizin tərkib hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik ötürücülük qabiliyyətinin artırılması qeyd olunub, həm də Ələt Beynəlxalq Dəniz Ticarət Limanının ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tona qədər artırılacağı vurğulanıb.

"Ümumiyyətlə, Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə ikitərəfli yüksəksəviyyəli münasibətlərin formalaşdırılması və bir çox ölkə ilə konkret olaraq strateji tərəfdaş olmağımız dediklərimizə bariz nümunədir", - deyə deputat bildirib.

V.İskəndərov qeyd edib ki, Prezident İlham Əliyevin müxtəlif formatlı görüşlərində konkret məqamlara toxunulub və əlaqələrin ən yüksək səviyyəyə çatdırılması üçün çox vacib məsələlər üzərində danışıqlar aparılıb. "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" isə, təbii ki, Astana sammitinin zirvəsi sayılmalıdır.

Çinlə Azərbaycanın bütün sahələrdə bir-birini dəstəklədiyini vurğulayan deputat bildirib ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin Prezident İlham Əliyevi dost və tərəfdaş adlandırır. Eyni zamanda Azərbaycan da Çinin ərazi bütövlüyünü dəstəkləməklə, onun regionda və qlobal arenada artan rolunü yüksək dəyərləndirir. Azərbaycan Çinlə yanaşı, ŞƏT-ə üzv olan digər dövlətlərlə də münasibətlərinin formalaşmasında maraqlı olduğunu bəyan edir.

Deputat qeyd edib ki, budəfəki Zirvə görüşünün həm yüksək səviyyədə təşkil olunması, həm də Prezident İlham Əliyevin orada iştirakı və dövlət başçıları ilə görüşləri Azərbaycanın növbəti dəfə beynəlxalq diplomatiya müstəvisində çox böyük uğuru kimi qiymətləndirilməlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bakıda 5-ci Azərbaycan Onkologiya və Nüvə Təbabəti Simpoziumu keçirilib

**İyulun 6-da Bakıda Milli Onkologiya Mərkəzi və Azərbaycan Nüvə Təbabəti Cəmiyyəti tərəfindən 5-ci Azərbaycan Onkologiya və Nüvə Təbabəti Simpoziumu keçirilib. Tədbirdə Azərbaycanla yanaşı, ABŞ, Almaniya, Niderland, Türkiyə və digər ölkələrin aparıcı mütəxəssisləri iştirak ediblər.**




Simpoziumun əsas müzakirə mövzularından biri də nüvə təbabətinin müasir vəziyyətinə və perspektivlərinə, eləcə də xərçəngin profilaktikası və müalicəsində tətbiq edilən ən son metodlara dair məruzələrin dinlənilməsi və təcrübə mübadiləsi aparılması olub.

AZƏRTAC xəbər verir ki, simpoziumda Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimli çıxış edərək, iştirakçıları mərkəzin baş direktoru akademik Cəmil Əliyevin adından salamlayıb. Baş həkim bildirib ki, nüvə təbabəti müasir səhiyyənin istər diaqnostikası, istərsə də müalicəsində vacib sahələrdən biridir.

Onun sözlərinə görə, dünyada səhiyyə sahəsində gedən inkişaf Azərbaycandan da yan keçməyib: "Ölkəmizdə səhiyyənin inkişafında Prezident İlham Əliyevin rolunu xüsusi vurğulamaq lazımdır. Azərbaycanda nüvə təbabətinin yaradılması çox çətin idi. Milli Onkologiya Mərkəzinin baş direktoru akademik Cəmil Əliyevin təşəbbüsü ilə Azərbaycanda Nüvə Təbabəti Mərkəzi yaradıldı və 2016-cı ildə açılışı oldu. Açılışda Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktorunun müavini Dazhu Yanq da iştirak etmişdi. Bu, Azərbaycan səhiyyəsi üçün çox böyük nailiyyət idi. Nüvə təbabəti təkcə onkologiyanın deyil, bir çox xəstəliyin istər diaqnostikasında, istərsə də müalicəsində tətbiq olunan son tibbi nailiyyətlərdəndir".

Simpoziumun tibbin çox müasir və sürətlə inkişaf edən, eyni zamanda fundamental elmin nəticələrinə əsaslanan sahəsinə həsr edildiyini bildirən səhiyyə nazirinin müavini Nadir Zeynalov isə nüvə təbabəti elminin inkişafının fizika və kimya elmlərinin nailiyyətləri ilə əlaqədar olduğunu deyib: "Radionuklidlərin icad olunması, onların hazırlanması təqribən keçən əsrin 20-30-cu illərinə təsadüf edib. Ötən əsrin 50-60-cı illərində isə onların tibdə tətbiqinə başlanılıb. Bu sahədə inqilab XX əsrin 80-90-cı illərində qeydə alınıb. Artıq radionuklidlərin anatomik şəkil verən görüntüləmə üsulları ilə birləşdirilməsindən irəli gələn müayinə nəticələri ortaya çıxıb".

O bildirib ki, nüvə təbabəti təkcə diaqnostik üsul deyil, buraya radionuklidlərlə müalicə də aiddir. Burada istifadə edilən radionuklidlər ionizəedici şüalanma mənbəyidir. "Nüvə təbabətində istifadə olunan üsullar insan sağlamlığına müəyyən qədər zərər verir. Burada dozalanma elə olmalıdır ki, həm lazımi nəticə əldə edilsin, həm də insan sağlamlığına minimal zərər yetirilsin. Belə balanslaşdırılmış iş nüvə təbabəti mütəxəssisləri tərəfindən həyata keçirilir. Buna görə də nüvə təbabəti mütəxəssislərinin hazırlanması kifayət qədər uzun müddət tələb edir. Bugünkü simpozium bu sahəyə aid olan təcrübə və biliklərin bölüşülməsi üçün çox uğurlu platformadır", - deyə o əlavə edib.

Simpoziumun sessiyalarında Milli Onkologiya Mərkəzinin aparıcı elmi işçisi, tibb elmləri doktoru, professor Əziz Əliyev, Avropa Nüvə Təbabəti Cəmiyyətinin prezidenti və Niderlandın Groningen Universitetinin professoru Rudi Dierckx, Beynəlxalq Atom Enerjisi Agentliyindən professor Francesco Giammarile, ABŞ-nin Florida Universitetinin Onkoloji və Endokrinoloji cərrahiyə şöbəsinin professoru Seza Güleç, Milli Onkologiya Mərkəzinin Nüvə təbabəti və radionuklid terapiya şöbəsinin rəhbəri tibb üzrə fəlsəfə doktoru Fuad Novruzov, Onkologiya üzrə Beynəlxalq Mərkəzlər Fondunun (ICPO) prezidenti və Almaniyanın Frankfurt Universitetinin professoru Riçard Baum, Türkiyə Nüvə Təbabəti Cəmiyyətinin sədri və Hacettepe Universitetinin professoru Murat Fani Bozkurt və başqaları müxtəlif mövzular üzrə məruzələrlə çıxış ediblər.

Sonra "Avropada onkoloji nüvə təbabəti xidmətləri", "ABŞ-də radionuklid müalicələr və sığorta ödənişləri", "Türkiyədə Nüvə Təbabəti xidmətləri", "Azərbaycanda Nüvə Təbabəti", "Baş-boyun şişlərinin cərrahiyyəsində PET/KT-nin rolu", "Tiroid xərçənginin müalicəsi: yeni paradiqma" və digər mövzularda məruzələr dinlənilib.

# Aida Mahmudova fəaliyyətinə yenidən başlayan "YAY" Qalereyasının açılışında iştirak edib

**İncəsənət insan hisslərini təsvir edən vasitədir. Bəzən insanlar sözlərlə ifadə edə bilmədikləri hisslərini çox rahatlıqla rəsmdə təsvir edə bilirlər. Sözsüz ki, hər şey incəsənətdir, əsas məsələ isə onu görməkdir.**







Günümüzdə incəsənətə yeni texnoloji anlam gəlib. Bu müasirlik bizim xeyrimizə olduğu qədər, həm də dövrümüzün yaradıcılığını bizə təqdim edir. Bunu bizə hiss etdirən "YAY" Qalereyası böyük məmnuniyyətlə yenidən açılışını elan edir.

İyulun 5-də "YAY" Qalereyasında "Hər şey yaxşı olacaq: Sabah və ya nə vaxtsa" adlı qrup sərgisinin açılışı olub. Açılışda iştirak edən "YARAT" Müasir İncəsənət Məkanının təsisçisi, rəssam Aida Mahmudova da qrup sərgisində olan rəssamlardan biridir.

Sərginin açılışından əvvəl sərginin kuratoru Zəhra Məmmədova AZƏRTAC-a açıqlamasında bildirib ki, müxtəlif medialarda çalışan və fərqli təcrübələri olan səkkiz rəssam bu sərgidə bir araya gəlib.

Qeyd edilib ki, bu dəfə Rasim Babayev, Elşən Baba, Orxan Hüseynov, Tərlan Qorçu, Aida Mahmudova, Qafar Rzayev, Zamir Süleymanov və CHINGIZ-in əsərlərindən ibarət qrup sərgisi təqdim olunub.

Z.Məmmədova diqqətə çatdırıb ki, sərginin başlıca məqsədi müəyyən "düşüncə toxumlarının" cücərməsinə sövq etmək, insanları çətin dövrlərdə incəsənətin gücünə inanmağa vadar etməkdir.

Sərginin açılışında çıxış edən "YARAT" Müasir İncəsənət Məkanının baş kuratoru, sənətşünas Fərəh Ələkbərli başda "YARAT" Müasir İncəsənət Məkanının təsisçisi, rəssam Aida Mahmudova olmaqla, sərgidə əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Sərgi ilə tanış olan qonaqlara burada müasir dilemmalardan tutmuş introspektiv səyahətlərə qədər geniş mövzuları araşdırmaq təklif olunur. Rəssamlar zaman və məkan anlayışının mürəkkəblikləri arasında məna axtarmaqla liminal məkanları, həmçinin bizim kim olduğumuzu və əqidəmizi götür-qoy etməyə məcbur edərək identiklik və kimlik məsələsini araşdırırlar.

Ekspozisiya özündə rəssam "gündəliyini" ehtiva edir. Bu gündəlik bəlkə də rəssamın şəxsən özü üçün məna kəsb edir, amma eyni zamanda tamaşaçı üçün rezonans doğurur və kollektiv təcrübəni əks etdirir.

Sərgi tamaşaçıları incəsənətin dəyişikliklərə səbəb olmaq kimi əzmini və qüdrətini nəzərdən keçirməyə məcbur etməklə, "incəsənət eyni zamanda həm güzgü, həm də bir vasitədir" düşüncəsi ilə üzüzə qoyur.

Əsərlərdə bizim ictimai-siyasi reallığımız ilə dialoq, ruhumuza ünvanlanan və onunla danışan səmimi, açıq bir söhbət var. Burada suallar yaranır, onlar bizi konflikt və xaosu nəzərdən keçirməyə, həmçinin daxili aləmdə gözəllik və məqsəd tapmağa məcbur edir... Hər bir rəssam özünəməxsus şəkildə öz dövrünün həqiqət carçısı sayıla bilər və bizi öz hekayələrində məna tapmağa dəvət edir.

Sənətsevər qonaqların sərgi ilə tanışlığından sonra möhtəşəm konsert proqramı təqdim edilib.

Sərgi dekabrın 8-dək davam edəcək.

Qeyd edək ki, 2012-ci ildə yaradılmış "YAY" Qalereyası UNESCO-nun dünya irsi siyahısına daxil olan Bakının qədim İçərişəhərində yerləşir.

Qalereya Azərbaycanda incəsənət infrastrukturunu dəstəkləmək öhdəliyi çərçivəsində qeyri-kommersiya təşkilatı olan "YARAT" Müasir İncəsənət Məkanı tərəfindən təsis edilib.

"YAY" Qalereyasının əsas fəaliyyəti Azərbaycan və digər ölkələrdən olan istedadlı və perspektivli gənc rəssamların, tanınmış və təcrübəli sənətçilərin əsərlərindən ibarət sərgi-satış tədbirlərinin keçirilməsinə yönəlib.

Qalereya incəsənət nümunələrinin satışından əldə edilən gəlirləri rəssamlar və "YARAT" təşkilatı arasında bölüşdürür.

"YAY" Qalereyasının digər prioritetlərindən biri də fikir və təcrübə mübadiləsi platforması olaraq rəssamlar, həmçinin incəsənət sahəsində çalışan mütəxəssislər tərəfindən aparılan mühazirələr, seminarlar, habelə film nümayişləri və s. təşkil etməkdir.

# FHN-in təşkil etdiyi beynəlxalq yarışın və ümumrespublika birinciliyinin qalibləri mükafatlandırılıb

**Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən Qəbələ şəhərində təşkil olunan "Gənc xilasedici" X Beynəlxalq yarışının və "Gənc xilasedici və yanğınsöndürən" XI Ümumrespublika Birinciliyinin qaliblərinin mükafatlandırma mərasimi olub.**





FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, mükafatlandırma mərasimində yarışların Təşkilat Komitəsinin sədri, fövqəladə hallar nazirinin müavini general-mayor Adil Abdullayev və nazirliyin müvafiq əməkdaşları, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, rayon hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, Vətən müharibəsi şəhidlərinin övladları və ailə üzvləri iştirak ediblər.

Builki yarışlarda Azərbaycanla yanaşı, Rusiya, Belarus, Qazaxıstan, Gürcüstan və Özbəkistandan olan komandalar da iştirak edib.

Yarışlar yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilər arasında sağlam həyat tərzinin, fərdi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin, milli-vətənpərvərlik ruhunun aşılanması, müxtəlif ölkələrin gənc xilasediciləri arasında dostluq və əməkdaşlıq əlaqələrinin formalaşdırılması məqsədilə təşkil edilib.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan rəsmi hissədə əvvəlcə yarışlar haqqında FHN-in hazırladığı videoçarx nümayiş etdirilib.

Sonra məktəblilər tərəfindən milli vətənpərvərlik və ölkələr arasında dostluğu tərənnüm edən bədii hissə təqdim edilib, qaliblərə kubok, diplom, fəxri fərman və qiymətli hədiyyələr, digər iştirakçılara isə fəxri fərman və xatirə hədiyyələri təqdim olunub.

Qeyd edək ki, komandalar yarışlarda "Maneələr zolağı", "Kombinə edilmiş yanğın estafeti", "Axtarış-xilasetmə işi", "Komandaların təqdimatı" və "Divar qəzeti" mərhələlərində güclərini sınayıblar. Beynəlxalq yarışda birinci yeri Rusiya, ikinci yeri Azərbaycan, üçüncü yeri isə Belarusun komandası tutub. Ümumrespublika birinciliyində isə birinci yerə Bakı şəhəri 53 nömrəli tam orta məktəb, ikinci yerə Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli xüsusi internat məktəbi, üçüncü yerə isə Gəncə şəhəri 14 nömrəli tam orta məktəbin komandası layiq görülüb.

# Şəki şəhərinin 2712 illiyi qeyd olunub

**İyulun 6-da Azərbaycanın qədim sənət və mədəniyyət mərkəzlərindən olan Şəkidə "Şəhər günü" bayram tədbiri keçirilib. "Şəhər günü"nün Şəkidə "İpək Yolu" XIII Beynəlxalq Musiqi Festivalının keçirildiyi günlərə təsadüf etməsi sakinlərin bayram sevincinə əlavə rəng qatıb.**







AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, "Yuxarı Karvansaray" mehmanxana kompleksində reallaşan bayram tədbirinin iştirakçıları əvvəlcə Şəki sənətkarlarının əl işlərindən ibarət sərgilərə baxıblar.

Mərasimdə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxış edərək şəhər sakinlərini əlamətdar bayram münasibətilə təbrik edib. Bildirilib ki, 2712 illiyini qeyd edən qədim Şəki bütün dövrlərdə Azərbaycan tarixində mühüm yerə malik olub. Ona görə də şəhər sakinlərinin bu günü bayram etməyə daha çox mənəvi haqqı var.

Qeyd olunub ki, Böyük İpək yolu üzərində yerləşən Şəkinin nadir tarixi memarlıq abidələri - karvansaraylar, məscidlər, minarələr, evlər, qala divarları, körpülər buranın qədim memarlıq üslubundan xəbər verir. Gözəl təbiətə, nadir tarix-memarlıq abidələrinə malik olması və zəngin tarixi-mədəni irsin qorunması nəticəsində Şəki Azərbaycanın mühüm turizm regionuna çevrilib. Azərbaycan memarlığının ən gözəl abidələri bu şəhərdə yerləşir. Şəki rayonu ərazisində dövlət mühafizəsinə götürülmüş 134 arxeoloji və memarlıq abidəsi var. Onlardan Kiş kəndindəki Alban məbədi, Şəki Xan Sarayı dünya əhəmiyyətli abidələrdir.

Diqqətə çatdırılıb ki, Şəkinin sənətin və sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyi ərazilərdən biri olması bu şəhərə UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə üzv olmaq hüququ qazandırıb. 2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının iclasında "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin sədri Murad Ağabəyli çıxışında Şəkidə mədəni-tarixi irsin qorunub saxlanmasına çox böyük diqqət göstərildiyini vurğulayıb, şəhər sakinlərini əlamətdar gün münasibətilə təbrik edib.

Şəki bələdiyyəsinin sədr müavini Səyyarə Musayeva şəhərin inkişafı ilə bağlı həyata keçirilən layihələr barədə məlumat verib. Rəsmi hissədən sonra bayram tədbirinin iştirakçıları rəngarəng konsert proqramını izləyiblər. Eldar Rəcəbovun rəhbərlik etdiyi Şəki Folklor Ansamblının, Şəkinin tanınmış ifaçılarının, həmçinin Qax rayonundan gəlmiş Qaxingiloy kənd Mədəniyyət evinin "Şvitkatso" xalq xoru və "İmedi" rəqs qrupunun çıxışları bayram tədbiri iştirakçılarının ürəyincə olub. Tədbirin sonunda Şəki şəhərinin inkişafı ilə bağlı layihələrin həyata keçirilməsində, "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğunun ərazisində yerləşən tarixi binaların bərpasının layihələndirilməsi və dizayn işlərinin görülməsində xidmətlərinə, həmçinin Şəkinin mədəni həyatında fəal iştirakına, təhsil, idman sahəsində fərqləndiklərinə görə bir qrup şəhər sakininə xatirə hədiyyələri təqdim olunub.




AZERBAIJAN COP29

Yaşıl dünya naminə həmrəylik ili 2024



# "Euronews": Azərbaycan ənənəvi enerji sektorunu şaxələndirmək niyyətindədir

**"Euronews" telekanalının saytında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) vitse-prezidenti Əfqan İsayev ilə müsahibə yerləşdirilib. AZƏRTAC xəbər verir ki, material Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə birgə hazırlanıb.**




"Euronews" telekanalına müsahibəsində Əfqan İsayev SOCAR-ın 2035-ci ilə qədər karbohidrogen layihələri və aşağı karbonlu istiqamətlərin balanslaşdırılmış portfeli ilə şaxələndirilmiş enerji liderinə çevrilməsinə yönəlmiş planları və səyləri barədə danışıb.

Onun sözlərinə görə, şirkət karbonsuzlaşdırma prosesinə sadiqliyini vurğulayaraq, emissiya profilini enerji sektorunda dünya liderləri səviyyəsinə çatdırmaq niyyətindədir. Hazırda SOCAR qlobal strateji oyunçularla əməkdaşlıq edir və artıq 1 QVT bərpaolunan enerji mənbələrinin (iki günəş enerjisi və bir külək enerjisi obyekti) və "yaşıl hidrogen" istehsalına yönəlmiş 2 QVT dəniz külək enerjisi obyektlərinin işlənib hazırlanması da daxil olmaqla, mühüm layihələrin icrasına başlayıb.

Şirkət bu ilin noyabrında Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) fəal iştirakı, iqlimlə mübarizəyə həsr olunmuş tədbirlər və müzakirələr təşkil etməyi planlaşdırır, - deyə vitse-prezident qeyd edib.

Əfqan İsayev, həmçinin digər milli və beynəlxalq neft şirkətləri ilə qarşılıqlı fəaliyyətin vacibliyini vurğulayıb. O bildirib ki, SOCAR strateji tərəfdaşlıq və perspektiv layihələr sayəsində növbəti nəsillər üçün davamlı gələcəyi təmin etməyə can atır.

# BMT: "Kooperativlər iqlim dəyişikliyinə töhfə vermək imkanına malikdirlər"

**Dünən - iyulun 6-da dünya kooperativləri Beynəlxalq Kooperativlər Gününü "Hamı üçün daha yaxşı gələcək quran kooperativlər" mövzusu ilə qeyd edirlər.**

AZƏRTAC xəbər verir ki, BMT bu əlamətdar gün münasibətilə müraciət yayıb. Müraciətdə qeyd olunub ki, kooperativlər 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədlərinin (SDG) həyata keçirilməsi üçün səyləri artırmaqla daha firavan gələcəyin qurulmasına cari və tarixi töhfələrini nümayiş etdirmək imkanı əldə edəcəklər. Bu proseslər "Daha yaxşı sabah üçün çoxtərəfli həllər" devizi altında davam edir.

BMT-nin müraciətində qeyd olunub ki, kooperativlər inklüziv və davamlı inkişaf üçün yüksək standartlarını nümayiş etdirə, ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizədə bələdçilər qismində xidmət göstərə bilərlər. Demokratik idarəetmə və ortaq mülkiyyət vasitəsilə kooperativlər sülh və sabitlik nümunəsi göstərir, müxtəlifmənşəli insanları bərabər şərtlərdə bir araya gətirir, həmçinin anlaşma və qarşılıqlı hörməti gücləndirirlər.

BMT Baş katibinin sosial inkişafda kooperativlərin roluna dair 2023-cü il hesabatında kooperativlərin marginal qruplar da daxil olmaqla bütün insanların iqtisadi və sosial inkişafını təşviq etmək təcrübəsi vurğulanır.

# COP29 "yaşıl dünya"ya doğru daha bir addım olacaq



**Bu gün dünyada baş verən müharibə və münaqişələr biomüxtəlifliyi məhv edir, zərərli maddələrin emissiyasını artırır. Demək olar ki, dünya iqlim dəyişikliyinin geri dönüşü olmayan qırmızı xəttinə daha da yaxınlaşıb.**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) məhz bu təhlükələrin aradan qaldırılması yollarını müzakirə edəcək.

50-100 il əvvəl əhali artımına, insanların gündəlik yaşayışına, həyat tərzinə, sosial vəziyyətinə müharibələr mənfi təsir edirdisə, indi iqlim dəyişikliyinin fəsadları daha önə çıxır. Bəşəriyyəti təhdid edən iqlim dəyişikliyinə səbəbin qlobal istiləşmə və sənayedə inkişafın pik nöqtəyə çatması olduğu bildirilir. Son yüz ildə daha çox neft, qaz, kömür yandırılır. Avtomobillərin sayı durmadan artır. Hər gün atmosferə böyük həcmdə tullantı atılması, eləcə də karbon qazının artması müşahidə olunur və istiləşmə sürətlənir. Ekstremal hava şəraiti, hidroloji və iqlim hadisələri insan həyatına, milli iqtisadiyyata, şəhər və kənd mühitinə, qida və su təhlükəsizliyinə öz mənfi təsirlərini göstərir. Təəssüf ki, biz belə mənfi təsirlərin statistikasında sürətli artım dinamikasını izləyirik. Ətraf mühitin çirklənməsi, müxtəlif təbiət hadisələri hər il milyonlarla insanın həyatına son qoyur. Bir sözlə, fəsadlar çox ağırdır.

Faciələrin həll yolları ötən il Birləşmiş Ərəb Əmirliklərində baş tutan COP28-də müzakirə olundu və müəyyən nəticələr əldə edildi. Bir neçə ay sonra Bakının evsahibliyi edəcəyi COP29 və ardınca Braziliyada keçiriləcək COP30 konfransları arasındakı əməkdaşlıq qlobal istiləşmənin artımının 1,5°C səviyyəsində saxlamaq məqsədi daşıyır. Bu üçlüyün beynəlxalq iqlim danışıqları tarixində indiyə qədər görünməmiş konfiqurasiya olduğu diqqətlərdən yayınmır. Artıq COP28-ə sədrlik etmiş Birləşmiş Ərəb Əmirlikləri, onun davamçıları COP29-un sədri Azərbaycan və COP30-un sədri Braziliya qlobal iqlim danışıqlarının əməkdaşlığını və davamlılığını yaxşılaşdırmaq üçün tərəfdaşlığa başladıqlarını elan ediblər. COP28-də qəbul edilən sazişə əsasən, 198 ölkə bu üç sədrliyə Paris Sazişinin ən iddialı məqsədinə nail olmaq üçün "yol xəritəsi" üzərində birgə işləməyi tapşırıb. Birləşmiş Millətlər Təşkilatının iqlim ekspertlərinin (Giec) hesablamalarına görə, 1,5°C temperatur həddinə çox güman ki, 2030-2035-ci illərdə nail olunacaq. COP28-in sazişi qlobal danışıqlarda əsas problem olan inkişaf etməkdə olan ölkələrə maliyyə yardımına dair irəliləyişi ehtiva etmədi. Bu ölkələrə maliyyə yardımı məhz Bakıda keçiriləcək COP29-un əsas mövzusu olacaq.

Qazaxıstanın paytaxtı Astanada "ŞƏT plyus " formatında keçirilən görüşdə çıxış edən Prezident İlham Əliyev məhz bu məqama toxunub: "Təxminən 200 ölkənin yekdil dəstəyi ilə Azərbaycan bu il COP29-a evsahibliyi edəcək. Biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarını nəzərə alacaq razılaşmanın əldə edilməsinə çalışacağıq. Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır. Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib. Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik. Mən artıq ŞƏT-ə üzv dövlətlərin liderlərinə rəsmi dəvət məktubları ünvanlamışam və həmkarlarımı noyabrda Bakıda görəcəyimə ümid edirəm".

Azərbaycanın mövqeyi belədir ki, dünyanın bugünkü mənzərəsi fonunda hər bir ölkə öz məsuliyyətini dərk edərək iqlim dəyişikliyinin fəsadlarına qarşı milli səviyyədə öz gündəliyini müəyyənləşdirməlidir. Aydın görünür ki, ölkəmiz iqlim dəyişikliyi ilə bağlı BMT-nin çağırışlarına fəal şəkildə qoşulanlar sırasında yer alır. Neft sənayesində "sıfır emissiya" hədəfini müəyyənləşdirən Azərbaycanın məsuliyyətini dünya dövlətləri də təqdir edir. Məlumdur ki, qəbul olunmuş strategiyaya əsasən, beş milli prioritetdən biri ətraf mühit məsələləridir. Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

Burada məqsəd ondan ibarətdir ki, atmosferdə karbon qazının miqdarı azalsın və istiləşmənin qarşısı alınsın. Bəlkə də bir çox dövlətlərdə bu öhdəliyi yerinə yetirmək iqtisadi çətinliklər törədə bilər. Çünki karbon qazının atmosferə atılmasında əsas artım sənaye və kənd təsərrüfatının inkişafı ilə əlaqədardır. Buna görə də paralel olaraq bərpaolunan enerjidən istifadə olunmalıdır. Həmin enerji mənbələri atmosferə karbon və digər parnik qazlarının atılmasının qarşısını alır. Bu, dünyanın bir çox ölkələrində tətbiq edilir. Azərbaycanda da belə layihələr mövcuddur, məmləkətimiz bərpaolunan enerji mənbələri ilə kifayət qədər zəngin bir diyardır. Ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki baxımdan istifadəsi mümkün olan bərpaolunan enerji mənbələrinin potensialı 27000 MVt həcmində qiymətləndirilir. 2030-cu ilədək qarşıya qoyulan məqsəd bərpaolunan enerjinin ümumi istehlakda payının 30 faizdən çox artırılmasına nail olmaqdan ibarətdir. Azad edilmiş ərazilərimiz "yaşıl zona" elan edildiyi üçün orada su, günəş və külək enerjilərindən istifadə edilməsi nəzərdə tutulub və bu istiqamətdə dayanmadan iş aparılır. Xəzər dənizi üzərində küləyin enerjisindən istifadə etmək layihələri də işlənməkdədir. Karbohidrogen resursları ilə zəngin olan ölkəmiz elektrik enerjisi istehsalında "yaşıl enerji"nin xüsusi çəkisinin daha çox artırılmasını hədəfə alıb.

Respublikamız BMT-nin çağırışına qoşularaq neft sənayesində "sıfır emissiya" hədəfi müəyyənləşdirib. Qəbul olunan strategiyaya əsasən, indiki mərhələdə ətraf mühit məsələləri ölkəmizin beş milli prioriteti sırasında yer alır. Çünki ətraf mühit və "yaşıl artım" Azərbaycanın dayanıqlı inkişafını təmin edən önəmli amillərdəndir. Bu məqsədlə qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilir, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq olunur. Yüksəkkeyfiyyətli ekoloji mühitin təmini və "yaşıl enerji" məkanının yaradılması da həmin məqsədə xidmət edir. Milli səviyyədə öz məsuliyyətini və nümunəsini nümayiş etdirən Azərbaycanın, iqlim dəyişikliyinə qarşı qlobal həmrəyliyin möhkəmlənməsinə töhfələr vermək imkanları böyükdür.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# "Azərbaycanın İKT sektoruna investisiya qoyacaq Çin şirkətlərinin sayı artacaq"

**Çin və Azərbaycan iqtisadiyyatları bir-birini tamamlayır, eyni zamanda istehsal və investisiya sahəsində böyük potensiala malikdir. "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Çin və Azərbaycan təmiz enerji, rəqəmsal iqtisadiyyat və sənaye istehsalı kimi sahələrdə əməkdaşlıq edirlər. Azərbaycanın İKT sektoruna sərmayə qoyacaq Çin şirkətlərinin sayı daha da artacaq.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Din Tao Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin Dövlət Başçıları Şurasının iclasının yekunlarına həsr olunmuş mətbuat konfransında deyib.

O əlavə edib: "Yaşıl enerji" sahəsində ikitərəfli əməkdaşlığımız həm Azərbaycan xalqı, həm də Çin xalqı üçün qarşılıqlı faydalıdır. Bu, Azərbaycanın enerji transformasiyasına, Çin şirkətlərinin isə yüksəkkeyfiyyətli istehsal potensialının reallaşmasına olan tələbatını ödəyir.



2023-cü il oktyabrın 26-da 230 meqavat gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının rəsmi açılış mərasimi keçirildi. O, Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır və ilkin hesablamalara görə, ildə 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək. Elektrik stansiyası artıq istifadəyə verilib, Çin şirkətləri də külək enerjisi layihələrində iştirak edirlər".

Diplomat iki ölkə arasında iqtisadi sahədə əməkdaşlığın istehsal və investisiya sahələrində böyük potensiala malik olduğunu da vurğulayıb: "Azərbaycan biznes qurmaq üçün bərabər hüquqlar təmin edir. Azərbaycana sərmayə qoyacaq Çin şirkətlərinin sayı getdikcə artacaq".

Müvəqqəti işlər vəkili xatırladıb ki, iyulun 2-də Azərbaycan tərəfi Çin şirkətləri ilə COP29-a qədər 160 elektrobus tədarükü və 100 elektrik enerjisi doldurma stansiyasının istifadəyə verilməsi barədə razılığa gəlib. "Gələcəkdə tərəflər "yaşıl enerji" sahəsində əməkdaşlığı gücləndirəcəklər", - deyə diplomat qeyd edib.

Din Tao onu da bildirib ki, "Huawei" kompaniyası 2014-cü ildə Azərbaycan bazarına daxil olub və o vaxtdan əhalinin 70 faizini internet xidmətləri ilə təmin edib. Onun fikrincə, bu, Azərbaycanda rəqəmsal fərqin azaldılmasına töhfə verib.

Diplomat, həmçinin qeyd edib ki, Çin Azərbaycana ən çox məhsul ixrac edən ölkəyə çevrilib: "Son 10 ildə Çindən ixracın strukturu dəyişib, əvvəllər toxuculuq məhsulları idi, indi mexaniki avadanlıqlar, yüksək əlavə dəyəri olan məhsullardır. Bu gün biz Azərbaycan tərəfinin Çində ticarət evlərini açdığını görməkdən məmnunuq. Azərbaycan şərabları, çayları və konservləri Çin istehlakçıları arasında getdikcə populyarlaşır".

Mətbuat konfransının sonunda Çin Xalq Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili Din Tao Azərbaycan şirkətlərini Çində keçiriləcək Quançjou yarmarkasında və digər beynəlxalq sərgilərdə iştiraka dəvət edib.

# "BNE Intellinews": "Azərbaycan dəniz külək enerjisi üzrə liderə çevrilə bilər"

**Avropa biznes dairələrinin "BNE Intellinews" (Business New Europe) nəşrində Azərbaycanda dəniz külək enerjisinin inkişaf perspektivlərindən bəhs edən məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə 2022-ci ildə Qlobal Gülək Enerjisi Şurasının (Global Wind Energy Council - GWEC) Avstraliya, Şri-Lanka və Türkiyə kimi digər ölkələrlə yanaşı, Azərbaycanı da dəniz külək enerjisindən istifadə potensialına görə lider dördlüyə daxil etməsi qeyd olunur.

Nəşr yazır ki, həmin il keçirilən Bakı Enerji Forumunda Azərbaycan dəniz külək enerjisinin inkişafı üzrə yol xəritəsini təqdim edib. Azərbaycanın Energetika Nazirliyinin Beynəlxalq Maliyyə Korporasiyası (IFC) və Dünya Bankı ilə birgə hazırladığı plan 2040-cı ilədək Azərbaycanın Xəzər şelfində ümumi gücü 7,2 QVt olan dəniz külək stansiyalarının quraşdırılmasını nəzərdə tutur. Bu məqsədlər Azərbaycanın dekarbonizasiya və davamlı inkişaf sahəsində prioritetlərinə uyğundur. Dəniz külək enerjisinin quraşdırılmış gücü ölkənin enerji təchizatının 37 faizini təmin edə bilər. Bundan əlavə, Azərbaycanda dəniz külək enerjisi mülayim templə inkişaf edərək 2040-cı ilədək quraşdırılmış gücünü 1,5 QVt-a çatdıracaq və 7 faiz karbonsuz enerji istehsalına nail olacaq.

Məqalədə qeyd olunur ki, yol xəritəsində dəniz külək enerjisinin potensialından istifadəyə dair tövsiyələr də var. Bunlara 2030 və 2036-cı illər üçün hədəflərin müəyyən edilməsi, 200 MVt gücündə pilot layihənin və daha sonra daha böyük layihələrin işlənib hazırlanması, dənizdə yeni külək enerjisi imkanlarının açılması, infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinin cəlb edilməsi üçün qabaqcıl qlobal təcrübələrin tətbiqi və dayanıqlı dəniz külək layihələri üzrə bir sıra tədbirləri həyata keçirmək məqsədilə dövlət təşkilatlarının əməkdaşlarının bilik və bacarıqlarının artırılması daxildir.




Nəşr xüsusilə vurğulayır ki, Azərbaycan "yaşıl enerji" və elektrik enerjisinin mühüm istehsalçısı, o cümlədən ona ehtiyacı olan Avropanın tədarükçüsü olmağa çalışır. Energetika naziri Pərviz Şahbazov COP28 çərçivəsində Dubaydakı Azərbaycan Milli Pavilyonunda ABŞ dövlət katibinin enerji resursları üzrə köməkçisi Ceffri Payett ilə görüşdə bərpaolunan mənbələrdən elektrik enerjisinin Avropaya ixracı üçün Xəzər dənizində meqaistehsal müəssisələrinin yaradılacağını açıqlayıb.

Yazıda bildirilir ki, 2023-cü ildə "Cənub qaz dəhlizi"nin Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu görüşü və "Yaşıl Enerji" üzrə Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci görüşü zamanı Azərbaycanın Energetika Nazirliyi və Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti bir sıra sənədlər, o cümlədən gücü 1,5 QVt-a qədər olan dəniz külək enerjisi layihəsinin həyata keçirilməsinə dair müqavilə imzalayıb. Bu ilin mayında isə Azərbaycanın Energetika Nazirliyi ilə "ACWA Power" şirkəti arasında 200 MVt gücündə quruda külək elektrik stansiyasının tikintisi layihəsi üzrə Çərçivə Sazişi imzalanıb.

Bu il keçirilən Bakı Enerji Forumunda çıxış edən "ACWA Power" şirkətinin vitse-prezidenti və regional direktoru Abid Malik Azərbaycanın bərpaolunan enerji baxımından böyük perspektivə malik olduğunu bildirib. O vurğulayıb ki, siyasi cəhətdən sabit region olması ilə yanaşı, Azərbaycan tranzit marşrutları və dəhlizlərinin üstünlükləri baxımından da çox əlverişlidir və "ACWA Power" üçün əsas ölkədir.

Məqalədə qeyd olunur ki, bunlar sadəcə sözlər deyil. Azərbaycan hökuməti "yaşıl enerji"yə keçidi sürətləndirməyə və bunu ən səmərəli şəkildə həyata keçirməyə sadiqdir. Dəniz külək enerjisi mədən yanacaqlarına tələbatın labüd azalması fonunda ölkə üçün faydalıdır. Azərbaycan bərpaolunan resurslardan istifadə etməklə, istehsal olunacaq enerjinin qlobal ixracatçısına çevrilmək niyyətindədir.

"BNE Intellinews" vurğulayır: "İqtisadçılar hesab edirlər ki, bu potensial düzgün idarə olunarsa, xərclər kifayət qədər tez geri qaytarılacaq. Biz də düşünürük ki, onlar səhv etmirlər".

Məqalədə, həmçinin dəniz külək enerjisinin inkişafı üzrə, xüsusən də Türkiyə, Şimali Avropa ölkələri və ABŞ-də həyata keçirilən digər beynəlxalq layihələrdən bəhs olunur.

# "Qarabağı qurmağa, tikməyə gedirik"

## Prezidentin çağırışına qoşulan gənc memar və inşaatçılar ilk peşə fəaliyyətlərinə azad edilmiş ərazilərdə başlayacaqlar

**Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) tələbələrinin Azərbaycan Dövlət Akademik Filarmoniyasında təşkil edilən təntənəli "Məzun Günü" Ulu Öndər Heydər Əliyev və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad olunması ilə başladı.**







Gənclərin dördillik tələbə həyatına son qoyduqları bu xoş günlərində onlarla birlikdə universitet rəhbərliyi, akademik heyət, rəsmi qonaqlar, məzunlar və valideynlər iştirak edirdilər.

Mərasimdə çıxış edən, Əməkdar memar, AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova iştirakçıları salamladıqdan sonra çıxışında xüsusi olaraq vurğuladı ki, rəhbərlik etdiyi kollektivin əsas məqsədi vətən üçün ləyaqətli vətəndaş, bacarıqlı mütəxəssis yetişdirməkdir. "İnamla qeyd edə bilərik ki, biz istədiyimizə nail olmuşuq. Bu gün böyük tikinti, quruculuq meydanına çevrilən, gündən-günə gözəlləşən vətənimizin hər guşəsində məzunlarımızın, memarlarımızın gördükləri işlərlə qürur duymaqda haqlıyıq. İftixarla qeyd etmək istəyirəm ki, universitetimizin tələbəsi olmuş 50 nəfərə yaxın vətənpərvər gəncimiz Birinci və İkinci Qarabağ savaşlarında canlarını vətən yolunda fəda edib. Onların əziz xatirəsi əbədi olaraq qəlbimizdə yaşayacaq. Bu il məzun olan tələbələrdən 12 nəfər torpaqlarımızın azadlığı uğrunda döyüşərək qazi olub".

Azərbaycanın inkişaf edib güclənməsini vurğulayan professor Gülçöhrə Məmmədova qeyd etdi ki, bu gün AzMİU-dan məzun olan gənclərin bu işlərə böyük töhfə verəcəkləri şübhəsizdir: "Onların hər birinin müasir, yaradıcı, bütün yeniliklərə açıq, dünyada gedən proseslərə bələd olan gənc mütəxəssislər kimi azad edilmiş ərazilərimizin dirçəldilməsi işinə də dəstək göstərəcəyinə əminik".















Professor G.Məmmədova məzunları ölkənin inkişaf etdirilməsi prosesinə fəal qoşulmağa çağırdı: "Müasir dünyada elm sürətlə inkişaf edir, hər gün mühüm bir yeniliyin şahidi oluruq. Bütün bunlar gənclər üçün böyük imkanlar yaradır. Müasir dövrün yeniliklərini dərindən mənimsəmək günümüzün tələbinə çevrilib. Fəal və cəsarətli olmaq, əldə etdiyiniz bilikləri daha da inkişaf etdirmək, müxtəlif sahələrdə yeni ideyaları ortaya qoyaraq onları reallaşdırmaq sizin kimi məzunların əlindədir. Prezident İlham Əliyev bizi inamlı addımlarla daha gözəl gələcəyə aparır və bu yolda sizin kimi parlaq, savadlı, cəsur və vətənpərvər gənclərə arxalanır. Hər biriniz dövlətimizin müstəqilliyini, xalqımıza məxsus nəcib dəyərləri qorumalı, ölkəmizin daha da inkişaf etməsinə və güclənməsinə çalışmalısınız. Əminik ki, bu gündən etibarən verdiyiniz bütün qərarların, atdığınız hər bir addımın əsasını xoş niyyət, xeyirxahlıq və ədalət təşkil edəcək. Bir daha məzun günü münasibətilə sizləri təbrik edir, gələcək işlərinizdə nailiyyətlər arzulayırıq. Yolunuz açıq olsun!"

Mərasimdə AzMİU-nun müxtəlif fakültələrini əla qiymətlərlə bitirmiş tələbələrə fərqlənmə diplomları təqdim edildi. Eləcə də təhsildə və ictimai işlərdə fərqlənən tələbələr də mükafatlandırıldılar.

Universiteti fəqlənmə diplomu ilə bitirən bir qrup tələbə ilə söhbət edirik. İnşaat fakültəsinin məzunu Fuad Cəfərli deyir ki, yolum Müzəffər Ali Baş Komandan İlham Əliyevin azad edib, qurub-yaratdığı, cənnətə döndərdiyi Qarabağadır: "Vətən müharibəsi zamanı yaşım az olduğu üçün müharibədə iştirak edə bilməmişəm. Amma indi məqsədim bir mütəxəssis kimi, qəhrəman oğullarımızın can verib aldıqları torpaqda çalışmaqdır. Bir vətəndaş olaraq, arzum daş üstə daş qoymaq, gedən quruculuq işlərində iştirak etməkdir. Torpaqlarımızı düşməndən azad edən oğullarımız əmin olsunlar ki, bu gün onların vətənsevərlik ənənələrini ləyaqətlə davam etdirən gənclik var. Bu torpaqların hər qarışı cənnətə dönməyincə bizə rahatlıq yoxdur".

Söhbətə Memarlıq fakültəsinin məzunu Ramid Səlimov qoşulur: "Ulularımızın iz qoyduğu, qurub-yaratdığı, gənclərimizin can verib qan tökdükləri Qarabağda gedən quruculuq işlərində iştirak etmək ən böyük arzumdur. Şükür ki, indi o torpaqlara memar kimi gedirəm. Memarlıq olduqca maraqlı peşədir. Memarı yaşadan onun əməlləridir. Yurdumuzda olan qədim tarixi abidələrin üzərinə vurulmuş damğalarla bu yurdun yaşını, kimliyini, mədəniyyətini, tarixini dünyaya göstərə bilirik. Qarabağda olan tarixi memarlıq abidələri spesifik xüsusiyyətləri ilə seçilən, tarixi kimliyimizi təsdiq edən daş yaddaşımızdır. Bu gün orada aparılan tikinti-quruculuq işlərində də tarixi ənənə qorunur. Çalışacağıq ki, Qarabağda milli koloriti ilə fərqlənən, tarixi ənənələri yaşadan əsl memarlıq nümunələri yaradaq".

Memarlıq fakültəsinin məzunu Cəlil Eynullayev deyir ki, əgər yaxın keçmişimizdə bütün dünya Qarabağı "qaynar nöqtə", "müharibə gedən" bölgə kimi tanıyırdısa, bu gün orada böyük quruculuq, abadlıq, tikinti meydançası olduğunu görür: "İnsan doğulduğu vətənə fayda verməli, qurub-yaratmalı, özündən sonra iz qoymalıdır. Məqsədim Qarabağda gedən quruculuq və abadlıq işlərində iştirak etməkdir. Orada görülən böyük quruculuq işləri barədə hər xəbəri eşidəndə xəyallarım məni düşməndən azad edilmiş o torpaqlara aparır. İndi gənc bir mütəxəssis kimi xəyallarımı gerçəkləşdirmək üçün Qarabağa gedirəm".

Memarlıq fakültəsinin məzunu Nəcibə Əliyarbəyova: "Uşaqkən valideynlərimdən Qarabağ haqqında qorxulu nağıllara bənzər söhbətlər eşidərdim. Bu yaxınlarda Şuşaya getmişdim. Yolboyu erməni vandallarının torpaqlarımızda törətdikləri eybəcərliklərin şahidi oldum. Göz işlədikcə dağıdılmış, viran qalmış evlər, binalar... Digər tərəfdə isə quruculuq, abadlıq işləri gedir. Qəribə bir mənzərə idi. Adam gözü ilə görməsə inanmaz. Sanki möcüzə baş verirdi. Hər gün yeni bir bina boy atıb böyüyürdü. Hiss etdim ki, hər bir millət xarakterinə uyğun davranır. Ermənilər tarixdə Qarabağın dağıdıcısı, biz isə bu torpaqların əzəli və əbədi sahibləri kimi qurucularıyıq. Bu prosesi görən hər bir vicdanlı insanın içində fikrimcə bir hiss, arzu yaranar, kaş mən də bu quruculuqda iştirak edə biləydim. Universiteti fərqlənmə diplomu ilə bitirən memaram. Qarabağ öyrəndiklərimi praktikada tətbiq etmək üçün ən gözəl yerdir".

Memarlıq fakültəsinin digər xanım məzunu Nuray Nuriyeva söhbətə qoşulur:

"Qarabağ qəhrəmanlıq tariximizin canlı abidəsidir. Bütün dünya Azərbaycan əsgərinin Şuşa uğrunda necə qəhrəmanlıqla döyüşməsindən bəhs edir. İndi Qarabağ azaddır. Bu azad yurdu gülüstana döndərmək, biz gənclərin müqəddəs borcudur. Prezidentimizin sərkərdəliyi ilə azad edilib cənnətə döndərilən o torpaqlarda çalışmaq ən böyük arzumdur. Yolum Qarabağadır".

Ürəkləri arzu, sevgi dolu gəncləri dinlədikcə fərəhlənirik. Gözlərimiz önündə işıqlı, nurlu Qarabağda ucalan möhtəşəm binalar canlanır.

Tədbir isə davam edir. Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, Milli Məclisin komitə sədrləri Bəxtiyar Əliyev və Hicran Hüseynova, deputat Aydın Mirzəzadə, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi, professor Səbinə Hacıyeva, "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti"nin icraçı direktoru Övsət Həmidov, Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri professor Elbəy Qasımzadə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İsbatov, Türkiyənin məşhur "PROYAPI" Mühəndislik və Müşavirlik şirkətinin İdarə Heyəti rəhbərinin müavini Akif Aygen, "Turquoise" MMC-nin baş direktoru Ali İhsan Genç və digərləri çıxışlarında məzunları təbrik edərək, uğurlar arzulayıblar.

Məzunların ənənəvi və həyəcanlı "papaqatma" mərasimi keçirildikdən sonra gənc müğənnilərin və musiqi qruplarının bir-birindən maraqlı çıxışları tədbir iştirakçılarına xoş ovqat yaratdı.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# GDU-da "Qərbi azərbaycanlıların kütləvi deportasiyası" adlı tədbir keçirilib

**XX əsrdə mərhələlərlə davam etmiş ermənilərin deportasiya siyasəti tarixi-mədəni irsimizin məhvi ilə də nəticələnib, abidələrimiz dağıdılıb, qədim Azərbaycan toponimləri saxta və uydurma adlarla əvəzlənib.**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Gəncə Dövlət Universitetində keçirilən "Qərbi azərbaycanlıların kütləvi deportasiyası" adlı tədbirdə universitetin humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva deyib.

O bildirib ki, Ümummilli Lider Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ilk dəfə azərbaycanlıların deportasiyasına hüquqi-siyasi qiymət verib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, məhir sərkərdəlik bacarığı sayəsində 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun düşmən üzərindəki möhtəşəm qələbələri, Azərbaycanın suverenliyinin tam bərpa edilməsi dövlətimizin gücünü və xalqımızın məğrurluğunu bütün dünyaya bir daha nümayiş etdirdi. Düşmən üzərindəki davamlı qələbələrimiz vaxtilə öz əzəli yurdlarından didərgin düşən bütün Qərbi azərbaycanlıların doğma ellərinə qayıdışına inamını daha da artırdı. Xalqımız əmindir ki, Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışın davamı olaraq Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Qərbi Azərbaycana qayıdış da reallaşacaq.

Tədbirdə Qərbi Azərbaycanla bağlı videoçarx nümayiş olunub. Qərbi Azərbaycan İcmasının Gəncə şəhəri üzrə nümayəndəsi, GDU-nun professoru Mübariz Yusifov mövzu ilə bağlı fikirlərini bölüşüb və Qərbi Azərbaycana Qayıdış Konsepsiyası çərçivəsində görülən işlərdən ətraflı danışıb.

Tədbirdə universitet əməkdaşları - tarix üzrə fəlsəfə doktoru Fəxrəddin Usenov "Qərbi Azərbaycan tarixi: Xronoloji baxış", filologiya üzrə fəlsəfə doktoru Səbə Namazova "Qərbi Azərbaycana qayıdış festival-konqresi və milli qürurumuz", tarix üzrə fəlsəfə doktoru İlham Məmmədov "Əsrin əvvəllərində Qərbi Azərbaycan torpaqlarının işğalı", pedaqogika üzrə fəlsəfə doktoru Samirə Quliyeva "Qərbi Azərbaycan bütöv Azərbaycanın bir hissəsidir", filologiya üzrə fəlsəfə doktoru Aytən Əhmədova "Əli Vəliyevin əsərlərində Zəngəzur toponimləri", pedaqogika üzrə fəlsəfə doktoru Sabirə Bayramova "Azərbaycanlıların Ermənistandan deportasiyası" adlı məruzələrlə çıxış ediblər.

Bu il iyunun 21-də Naxçıvan Muxtar Respublikasında keçirilmiş "Qərbi Azərbaycana qayıdış" festival-konqresində iştirak edən GDU-nun əməkdaşları həmin tədbirdən yaddaqalan məqamlardan da bəhs ediblər. Bildirilib ki, festivalın təşkil olunduğu məkandan cəmi bir neçə kilometr məsafədə vaxtilə həmvətənlərimizin yaşadıqları Qərbi Azərbaycan kəndlərinin yerləşməsi tədbir iştirakçılarına həm ruhən, həm də coğrafi olaraq Qərbi Azərbaycana daha da yaxınlaşdırıb.

Tədbirin davamında çıxış edənlər Qərbi Azərbaycanla bağlı xatirələrini bölüşüblər.

# Firəngiz ƏLİZADƏ: "İpək yolu" Festivalı bu dəfə də şəkililərə və qonaqlara unudulmaz anlar yaşadacaq"

**"Şəki şəhəri yenidən öz qapılarını "İpək yolu" Beynəlxalq Musiqi Festivalı üçün açıb. Yenə də gözəl Şəkidəyik, XIII Beynəlxalq Musiqi Festivalını keçiririk. Festivalımız "İpək yolu" adlanır və biz neçə illərdir ki, bu yolla addımlayır, gedirik. Şəkililər musiqini çox sevir və böyük maraqla konsertlərimizə gəlirlər. Əminəm ki, builki festivalımız da yüksək səviyyədə keçiriləcək".**



Bu sözləri AZƏRTAC-a müsahibəsində Şəki "İpək yolu" XIII Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə söyləyib.

İndiyədək keçirilən festivallarda dünyanın 35 ölkəsindən tanınmış musiqi kollektivlərinin iştirak etdiyini vurğulayan Firəngiz Əlizadə deyib: "Builki festivalın proqramı da çox zəngindir. Festivalda Rusiya, İndoneziya, Hindistan, Türkiyə, Özbəkistan və Qazaxıstandan gəlmiş rəqs və musiqi kollektivləri, ifaçılar iştirak edirlər. Festivalın bağlanış mərasimində Fikrət Əmirov adına Əməkdar kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı çıxış edəcək. İnanıram ki, möhtəşəm musiqi bayramı kimi gözəl bir ənənəyə çevrilən və artıq on üçüncü dəfədir keçirilən Şəki "İpək yolu" Beynəlxalq Musiqi Festivalı bu dəfə də şəkililərə və qonaqlara unudulmaz anlar yaşadacaq. Musiqi, dostluq və həmrəylik bayramına çevrilən festival yenə də insanların qəlbində gözəl duyğular, silinməz təəssüratlar yaradacaq".

# İfaçılarımız Özbəkistanda muğam müsabiqəsində mükafatlandırılıblar



Özbəkistanın Cizzax vilayətinin Zamin rayonunda UNESCO və ICESCO-nun himayəsi ilə keçirilən II Beynəlxalq Maqom (Muğam) Sənəti Forumunda ölkəmiz də uğurla təmsil olunub. AZƏRTAC xəbər verir ki, 80-ə yaxın ölkədən 400-dən çox qonağın iştirak etdiyi forumda ölkəmizi Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə tanınmış incəsənət xadimləri, sənətşünas və gənc ifaçılardan ibarət nümayəndə heyəti təmsil edibdir.

Dörd gün davam edən II Beynəlxalq Maqom Sənəti Forumunun bağlanış mərasimində də forum çərçivəsində təşkil edilən muğam müsabiqəsi qalibləri mükafatlandırılıblar. Qalibləri Özbəkistan Respublikasının mədəniyyət naziri Ozodbek Nazarbekov və Cizzax vilayətinin hakimi Erqaş Saliyev mükafatlandırıb.

Qeyd edək ki, muğam müsabiqəsinin beynəlxalq münsiflər heyətində Azərbaycanı Xalq artisti, Milli Konservatoriyanın rektoru Siyavuş Kərimi təmsil edib. Münsiflər heyətində Tacikistan, Misir, ABŞ, Hindistan, Türkiyə və Özbəkistandan mütəxəssislər yer alıblar.

Müsabiqədə "Ən yaxşı muğam ifaçısı", "Ən yaxşı instrumental solo", "Ən yaxşı muğam sənəti müəllimi", "Ən yaxşı muğam təbliğatçısı", "Ən yaxşı gənc ifaçı", "Ən yaxşı muğam bəstəkarı", UNESCO, ICESCO və TÜRKSOY-un mükafatları təqdim olunub. Müsabiqənin Qran-Pri mükafatına İranın "Force" ansamblı, I yerə ansambl üzrə Özbəkistan Makom Milli İncəsənət Mərkəzinin Yunus Rəcəbi adına "Makom" ansamblı və solo ifa üzrə birinciliyə Tacikistan Milli Konservatoriyasının solisti Xurşid İroximzoda layiq görülüb.

Ölkəmizi təmsil edən "Vətən" muğam qrupu - Nisbət Sədrayeva, Səfalı Mirzəliyev (hər ikisi xanəndə), Ruslan Zərbəliyev (tar), Pərviz Fərhadov (kamança) və Səyavuş Kərimov (nağara) TÜRKSOY-un mükafatı ilə təltif olunublar. Onlara festivalın diplomu, müxtəlif hədiyyələr və pul mükafatı təqdim edilib.

# Bakıda hind aktyorların iştirakı ilə film çəkilir

**Bu günlərdə "Azərbaycanfilm" kinostudiyasının həyətində hindistanlı aktyor Ajut Kumarın rol aldığı "Vidaamuyarchi" ("Cəhd etmək") filminin çəkilişləri aparılıb.**

AZƏRTAC xəbər verir ki, filmin çəkilişləri "Film Bridge Azerbaijan" şirkətinə həvalə olunub. Filmin prodüseri Emin Quliyev deyib ki, ekran əsərinin çəkilişləri ötən ilin oktyabr ayında başlayıb, dekabrda fasilə verilib və indi yenidən davam etdirilir. Filmin bəzi kadrları Xızı, Qobustan, Ələt, Şamaxı ərazisində aparılıb. İndiyədək 30-dan çox hind film layihəsini Azərbaycana gətirdiklərini söyləyən E.Quliyev söylədi ki, onlar ilk növbədə, məkanlara gəlib baxıblar. "Layihəyə başlayanda seçimdə Birləşmiş Ərəb Əmirlikləri (Əbu-Dabi şəhəri), habelə Mərakeş və Azərbaycan var idi. Hər üç ölkəni gəzib Azərbaycanı seçdilər. Səhralığı Qobustanda və Xızıda lentə aldılar. Bədii filmin birinci hissəsində hadisələr bütünlüklə Azərbaycanı əks etdirir. Sonradan Gürcüstanda da çəkilişlər olmalı idi. Azərbaycana tam uyğunlaşdıqları üçün Gürcüstan səhnələrini də Azərbaycanda lentə aldılar. Filmi lentə alan şirkət Hindistanın cənubunda, Tamilnad ştatının Çennai şəhərində yerləşir".

Azərbaycan Mədəniyyət Nazirliyinin ölkəmizin təbliği məqsədilə bu cür çəkilişlərin aparılmasına dəstək olduğunu söyləyən filmin prodüseri deyib ki, bu ekran əsərində bizim aktyorlardan Xalq artisti Vidadi Həsənov, həmçinin Cavanşir Hadıyev, Tural Əhməd, Vüsalə Ağayeva və Svetlana Bulaxın rol alıb.

Qeyd edim ki, "Vidaamuyarchi" filmi rejissor Magizh Thirumeni tərəfindən lentə alınan döyüş filmidir. "Lyca Productions" və "Subaskaran Allirajah" tərəfindən istehsal olunur. Filmin Hindistan premyerası 2024-cü ilin oktyabrında nəzərdə tutulub.

# İranın IX prezidenti Məsud Pezeşkian oldu

## Yeni lider ölkəsini daha açıq dövlətə çevirəcəyini və vətəndaşların azadlıqlarını genişləndirəcəyini vəd edib

**İranda keçirilən növbədənkənar prezident seçkilərinin ikinci turunda islahatçı qanadın namizədi, keçmiş səhiyyə naziri, etnik azərbaycanlı Məsud Pezeşkian qalib gəlib. İslam Respublikasının Seçki Qərargahının rəsmi nümayəndəsi Möhsün Eslami bildirib ki, 30,530 milyon bülletenin hamısının emalının nəticələrinə əsasən, Pezeşkian 16,384 milyon səs toplayıb. Bu, ümumi səslərin 53,6 faizidir.**

Seçkilərin nəticələri açıqlandıqdan sonra Məsud Pezeşkian səs verməyə gələn tərəfdarlarına təşəkkür edib. Dövlət televiziyasındakı çıxışında o deyib: "Biz hamıya dost əli uzadacağıq, biz hamımız bu ölkənin insanlarıyıq, biz hər bir vətəndaşdan ölkənin tərəqqisi üçün istifadə etməliyik".

İran lideri Ayətullah Əli Xameneinin respublikanın Ali Milli Təhlükəsizlik Şurasındakı nümayəndəsi, mühafizəkar Səid Cəlili isə 13,538 milyon - 44,3 faiz səs əldə edib. Rəsmi məlumata görə, seçici fəallığı 49,8 faiz olub.

İranda təxminən 61 milyon insan səsvermə hüququna malikdir. Prezident seçkilərinin birinci turunda seçici fəallığı təxminən 40 faiz təşkil edib ki, bu da İslam Respublikası tarixində ən aşağı göstəricidir.

Xatırladaq ki, iyunun 28-də keçirilən seçkilərin birinci turunda prezidentliyə namizədlərdən heç biri 50 faizdən çox səs toplaya bilmədiyi üçün qalib müəyyən edilməmişdi. Pezeşkian və Cəlilidən başqa, prezidentlik uğrunda mübarizəyə daha iki namizəd - parla-



mentin spikeri Məhəmməd Bağer Qalibaf və Daxili İşlər və Ədliyyə Nazirliyinin keçmiş rəhbəri Mostafa Purməhəmmədi qatılmışdılar.

Pezeşkian və Cəlili böyük fərqlə ikinci tura yüksəlmişdi. 24,5 milyon bülletenin işlənməsinin nəticələrinə əsasən, keçmiş səhiyyə naziri 10,4 milyona yaxın, Təhlükəsizlik Şurasının üzvü 9,5 milyona yaxın səs toplamışdı. Mübarizədən kənar qalan Qalibaf və Purməhəmmədi müvafiq olaraq 3,3 milyon və 206 min səs qazanmışdılar.

İslahatçı siyasətçi Məsud Pezeşkian İran İslam Respublikasının 9-cu prezidentidir. O,1954-cü il sentyabrın 29-da İranın Qərbi Azərbaycan əyalətinin Mehabad şəhərində anadan olub. İran Tibb Elmləri Universitetini ürək çərrahiyyəsi ixtisası üzrə bitirib. İraqla müharibə zamanı hərbi həkim kimi xidmət göstərib. 1994-1999-cu illərdə Təbriz Tibb Elmləri Universitetinə rəhbərlik edib, 2001-2005-ci illərdə islahatçı Məhəmməd Hatəminin hökumətində səhiyyə naziri işləyib. 2016-2020-ci illərdə parlamentdə birinci vitse-spiker vəzifəsində çalışıb.

Pezeşkian iki dəfə prezident seçkilərində iştirak etmək üçün sənədlərini təqdim edib. 2013-cü ildə Əli Əkbər Haşimi Rəfsəncanini dəstəkləyərək namizədliyini geri götürüb, 2021-ci ildə isə Konstitusiya Keşikçiləri Şurası Pezeşkianın seçkilərdə iştirakına icazə verməyib.

Məsud Pezeşkian anti-İran sanksiyalarını aradan qaldırmağın əsas yollarından biri kimi ABŞ və digər Qərb ölkələri ilə danışıqlar vasitəsilə Tehranın nüvə proqramına dair razılaşmanın bərpasını vacib hesab edir. Seçki kampaniyası zamanı Məsud Pezeşkian İranı daha açıq dövlətə çevirəcəyini və vətəndaşların azadlıqlarını genişləndirəcəyini vəd edib.

O, ABŞ ilə münasibətlərin yaxşılaşdırılmasını və qadınların hüquqlarını, o cümlədən hicabdan azad olunmasını müdafiə edib. Eyni zamanda yeni prezident İran İslam Respublikasında əsas söz sahibi olan Ayətullah Əli Xameneiyə sədaqətini vurğulayıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Fransa DİN kütləvi iğtişaşlardan narahatdır

**Fransada iyunun 9-da Avropa Parlamentinə keçirilən seçkilərdə ifrat sağçı "Milli Birlik" partiyası 31,36 faiz səs toplayaraq Emmanuel Makron koalisiyasını iki dəfədən çox üstələdi. Böyük məğlubiyyətlə üzləşən Fransanın dövlət başçısı partiyasının Avropa seçkilərində iflasından sonra parlamenti buraxaraq növbədənkənar seçkilər elan etməli oldu. Lakin növbədənkənar seçkilərin birinci turundan qabaq aparılmış rəy sorğuları göstərdi ki, Emmanuel Makron seçkidə önə çıxa bilməyəcək.**

Fransa Milli Assambleyasına (parlamentin aşağı palatası) seçkilərin birinci turu iyunun 30-da keçirildi. Lakin seçkilərin ilk turu Emmanuel Makronun arzu etdiyi kimi olmadı, qanun pozuntuları və etirazlarla yadda qaldı.

Seçkilərin birinci turu Yeni Kaledoniyada xüsusilə gərgin keçdi. Xatırladaq ki, orada hökumətin başlatdığı seçki islahatına etirazlar hələ də tam səngiməyib. Yerli xalqlarla yanaşı, Yeni Kaledoniyada 10 ildən artıq yaşayan vətəndaşlara da səsvermə hüququ verilib. May iğtişaşlarından sonra adaya əlavə polis və jandarm dəstələri göndərilib.

Fransa Milli Assambleyasına seçkilərin birinci turu Yeni Kaledoniyanın Uailou kommunasında seçki məntəqələrində qalmaqallı oldu. "Outre-mer La Premiere" telekanalı naməlum şəxslər tərəfindən şəhər meriyasının girişinin avtomobillə bağlanılması və onun yandırılması barədə məlumat yaymışdı.

Hadisə iyunun 30-a keçən gecə, meriya binasında seçki məntəqələri açılmazdan əvvəl baş verib. Yanan avtomobillə yanaşı, naməlum şəxslər girişdə ağır beton blok və ağacdan baryerlər qoyublar. Nəticədə nə seçicilər, nə də kommunanın meri binaya daxil ola biliblər. Beləliklə, seçki qutuları quraşdırılmayıb, səsvermə pozulub.

Seçkilər fransız xalqı tərəfindən də narazılıqla qarşılandı. Fransada növbədənkənar seçkilərin birinci turunun ilkin nəticələri açıqlandıqdan sonra etiraz aksiyaları başlandı. Fransa KİV-i Lion şəhərində fransız nümayişçilərin mağazaların pəncərələrini sındırdıqları, polisin gözyaşardıcı qazdan istifadə etdiyi barədə məlumat yaydı. İğtişaşçılar şəhərin mərkəzində yanğınlar törətdilər. Eyni zamanda Parisdəki Respublika meydanında nümayişçilər tüstü bombaları yandıraraq seçkilərdə liderlik edən "Milli Birlik" partiyasına etiraz etdilər.

Seçkilərin birinci turu yarıtmaz siyasəti ilə Fransanı xaosa sürükləyən Emmanuel Makrona heç bir etimadın qalmadığını təsdiqlədi. ABŞ-nin nüfuzlu "Politico" nəşrində yer verilmiş "Makronun dövrü başa çatdı. Le Peni kimsə dayandıra biləcəkmi?" sərlövhəli məqalədə Fransada parlament seçkilərinin birinci turundan sonra Emmanuel Makronun bütün qüvvələri ifrat sağçıların qarşısının alınmasına səfərbər etmək və ya öz hərəkatından qalanı xilas etməyə çalışmaq kimi son dərəcə ağrılı seçim qarşısında olduğu qeyd edildi. Məqalədə yazılırdı: "Bazar günü keçirilən parlament seçkilərinin birinci turu Fransanın 46 yaşlı lideri üçün alçaldıcı oldu və onun yeddi il əvvəl yeni, autsayder siyasətçidən prezidentliyə yüksəlişi qədər heyrətamiz hadisəyə çevrildi".

"Politico" qeyd edirdi ki, Avropanın ikinci ən böyük iqtisadiyyatı və qitənin yeganə nüvə gücü indi ifrat sağçı hökumətin yaradılmasına həmişəkindən daha yaxındır və səsvermənin birinci turundan sonra Marin Le Penin "Milli Birlik" partiyası liderlik edir.

Məqalədə seçkilərin ikinci turu barədə deyilirdi: "Əgər iyulun 7-nə planlaşdırılan ikinci turda "Milli Birlik" parlament çoxluğunu qazansa (bu, tamamilə mümkündür), o zaman ölkəni qismən də olsa Avropa İttifaqını parçalamaq, miqrasiyaya qarşı müharibə aparmaq və NATO-nu tərk etmək vədi ilə ad çıxarmış siyasətçilər idarə edəcəklər".

Diqqətə çatdıraq ki, Fransa Daxili İşlər Nazirliyi (DİN) növbədənkənar parlament seçkilərinin ikinci turundan sonra kütləvi iğtişaşların baş verə biləcəyindən ehtiyat edir. Bu barədə ölkənin Daxili İşlər Naziri Jerald Darmanen BFMTV telekanalının efirində dedi: "İyulun 7-də vəziyyətin nəzarətdən çıxa biləcəyini ehtimal etmək üçün əsaslar var. İfrat solçu fəallar etiraz aksiyaları təşkil edə bilər. Bundan əlavə, digər şəhərlərdə, xüsusən də ifrat sağçı və solçu fəalların cəmləşdiyi Lion, Renn və Nant şəhərlərində zorakılıq hallarının baş verməsi mümkündür".

Bu səbəbdən nazir Fransa şəhərlərində asayişi qorumaq üçün 30 min polis və jandarmın cəlb edilməsi barədə göstəriş verib. Onlardan 5 mini Paris və şəhər ətrafında növbətçilik çəkəcək.

Nazir Jerald Darmanen ən gərgin dövrün iyulun 7-dən 8-nə keçən gecə, yəni səsvermə başa çatdıqdan sonra olacağını bildirib.

Seçkilərin ikinci turunda baş verə biləcəklərdən böyük narahatlıq, təşviş başqa qadağaların verilməsi ilə də nəticələndi. Belə ki, Fransa Yeni Kaledoniyada seçkilərin ikinci turu zamanı toplantıları qadağan edib. Bu barədə ərazi Ali Komissarlığının sosial şəbəkələrdə yaydığı məlumatda bildirilir. Qeyd olunur ki, iyulun 6-sı saat 06.00-dan 8 iyul saat 20.00-dək ictimai yığıncaqların keçirilməsi qadağandır.

Həmçinin regionda komendant saatı, silah gəzdirmək və spirtli içkilərin satışına qoyulan qadağa iyulun 15-dək uzadılacaq.

Diqqətə çatdıraq ki, tədbirlər may və iyun aylarında regionda baş verən etiraz aksiyaları fonunda həyata keçirilib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

UEFA EURO2024 GERMANY



# Avro-2024





## "Turniri tərk etmək istəmirdik"

**Almaniya millisinin baş məşqçisi Yulian Naqelsmann Avro-2024-ün 1/4 final matçında İspaniyaya məğlubiyyəti (1:2) şərh edib. O deyib: "İspaniyanı yarımfinala yüksəldiyi üçün təbrik edirəm. İlk hissədə çox açıq oyun keçdi. İkinci hissədə isə daha yaxşı idik, 60-cı dəqiqədən açıq-aydın gücləndik".**



Mütəxəssis daha sonra bildirib: "Futbolçulara dedim ki, siz turnirdə mübarizəni dayandırmağa layiq deyilsiniz. Hamımız ailələrimiz üçün darıxırıq, amma heç birimiz turniri tərk etmək istəmirdik. Son altı həftənin əvvəlindən milli komandada çox yaxşı ab-hava var idi. Bu oyunda qalib gəlmək üçün hər şey etdik".

## Toni Kroos karyerasını başa vurdu



**Almaniya millisinin üzvü Toni Kroos futbolçu karyerasını başa vurub. Avro-2024-ün 1/4 finalında İspaniya ilə görüş 34 yaşlı yarımmüdafiəçinin futbolçu kimi son oyunu olub.**

Kroos daha əvvəl Avropa çempionatından sonra karyerasını başa vuracağını açıqlamışdı. İyunun 5-də Almaniya millisi İspaniyaya 1:2 hesabı ilə uduzaraq turnirlə vidalaşıb.

Son klubu "Real" olan Kroos "Bavariya" və "Bayer"də də oynayıb. O, 2010-cu ildən Almaniya millisində çıxış edir.

# İngiltərə yarımfinalda

**İngiltərə və İsveçrə milli komandaların rəqabət tarixi çox maraqlı rəqəmlərlə yadda qalıb. 1909-cu ildə ingilislərin 9:0-lıq qələbəsi ilə başlayan 115 illik rəqabətdə ümumilikdə dünənki oyunadək 31 qarşılaşma olub. 22 dəfə qalib gəlib 3 dəfə məğlub olan britaniyalıların top fərqində üstünlüyü 82-23 idi. Qitə çempionatlarının final mərhələsində komandalar iki dəfə qrupda qarşılaşıblar. "Avro-1996"da 1:1-lik bərabərlik qeydə alındığı halda, 8 il sonra ingilislər 3 cavabsız qol vurublar.**



Avropa çempionatının 6 seçmə matçında İsveçrə cəmisi 2 heç-heçəyə sevinə bilib. Top fərqi də, təbii ki, bu komandanın xeyrinə deyil - 6-13.

Dünya çempionatlarının final mərhələsində yeganə qarşılaşma 70 il öncə olub. "Saatlar ölkəsi"nin təmsilçiləri qrupda qapılarında gördükləri iki qola heç nə ilə cavab verə bilməyiblər. Seçmə mərhələdə isə 1982-ci il mundialının yolunda hər iki komanda öz meydanında 2:1 hesablı qələbə qazanıb.

Millətlər Liqasında yeganə qarşılaşma 2019-cu ildə qolsuz yekunlaşıb.

Komandaların son qarşılaşması 2022-ci ildəki yoldaşlıq görüşü olub. Həmin matçda 1:2 hesabı ilə uduzan isveçrəlilər ümumilikdə 19 yoldaşlıq oyununda 2 dəfə qalib gəlib, 2 dəfə heç-heçə oynayıblar. Həmin o 2 qələbə də uzaq 1938-ci və 1947-ci illərdə olub.

Ötən əsrin 90-cı illərində final mərhələlərinə yolu açılan İsveçrə millisi müxtəlif tanınmış baş məşqçilərin rəhbərliyi altında çıxış edib. Əsas uğurlar isə Vladimir Petkoviçin təyinatından sonra əldə olunub. Bosniya və herseqovinalı mütəxəssis Braziliya, Albaniya və Afrikadan olan legionerlərin milliləşdirilməsini istəməklə döyüşkən kollektiv formalaşdırıb. Onların əhatəsində isveçrəli oyunçular Yan Zommer, Cerdan Şakiri, Qranit Caka kimi ulduzların yetişməsi də özünü gözlətməyib. Millinin hazırkı lideri də məhz sonuncudur.

Oyuna gəldikdə isə, Düsseldorfdakı "Mercure Spiel Arena" stadionunda İngiltərə və İsveçrə milli komandaları arasında 2024-cü il Avropa çempionatının 1/4 final matçını Daniele Orsatonun rəhbərlik etdiyi italyan hakimlər briqadası idarə edirdi.

İngilislərin cüzi üstünlüyü ilə keçən görüşün ilk hissəsində hər iki tərəfin səylərinə baxmayaraq, komandalar qol vura bilməyib - 0:0. İkinci taym daha maraqlı mübarizə şəraitində keçib. 75-ci dəqiqə İsveçrə millisinin heyətində Brel Embolo fərqlənib. Cəmi 5 dəqiqədən sonra britaniyalılar Bukayo Sakanın dəqiq zərbəsi ilə status-kvonu bərpa ediblər. Qarşılaşmanın əsas vaxtı 1:1 hesabı ilə başa çatıb.

Əlavə olunmuş 30 dəqiqə ərzində də komandalardan heç biri fərqlənə bilməyib və qalib 11 metrlik zərbələr seriyasında müəyyənləşib. Penaltiləri daha sərrast vuran ingilislər "lotereya"da qələbə qazanıblar - 5:3 və Avropa çempionatının yarımfinalına vəsiqə əldə ediblər. Bu mərhələdə İngiltərə millisinin rəqibi Niderland yığması olacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Ötən günün nəticələri

**İngiltərə - İsveçrə 1:1** (penaltilər seriyası 5:3)

**Niderland - Türkiyə 2:1**

## "Bu komanda ilə çox irəli gedə bilərik"



**"Ölkəmizi təmsil etməkdən qürur duyuram. Nə qədər irəli gedəcəyimizi görəcəyik. Amma tam əminik ki, bu komanda ilə çox irəli gedə bilərik". Bu sözləri İspaniya millisinin baş məşqçisi Luis de la Fuente Almaniyaya 2:1 hesabı ilə qalib gəldikləri oyundan sonra deyib.**

Mütəxəssis futbolçularının qələbədən doymadıqlarını söyləyib: "Bu futbolçuları çalışdırmaqdan qürur duyuram. Mən onların çoxunu uzun illərdir tanıyıram. Onlar ən yüksək səviyyədə yarışmağa öyrəşiblər və turnirdə qalib gəlmək, çempion olmaq imkanları var. Bu komanda həmişə yarışacaq. Əlbəttə, təkmilləşdirmə üçün hər zaman yer var. Lakin biz onların qüruruna, səviyyəsinə və fədakarlığına şübhə edə bilmərik".

O, eyforiyaya qapılmadıqlarını da vurğulayıb: "Çox xoşbəxtik, amma bilirik ki, sabah başqa bir gün olacaq. Meydandan kənarda baş verənlərə nəzarət edə bilmərik, lakin ölkənin bizi dəstəkləməsinə çox şadıq".

## İspaniya oyuna ciddi itkilərlə çıxacaq

**İspaniya millisi yarımfinalda Fransa ilə keçiriləcək oyuna ciddi itkilərlə çıxacaq.**



Komandanın 4 futbolçusu Pedri, Roben Le Norman, Daniel Karvahal və Alvaro Morata final uğrunda oyunda iştirak etməyəcəklər.

Pedri dizindən zədə alıb. Dani Karvahal ötən gün Almaniya ilə keçirilən oyunda qırmızı vərəqə ilə cəzalandırılıb. Digər 2 futbolçu da cəzalı durumda olduğundan növbəti oyunu buraxmalı olacaq.

## Deşamdan qələbə şərhi

**"Çox gərgin və bərabərsəviyyəli matç oldu. Əlavə vaxtın sonunda oynamaq bizim üçün çətin olsa da, qələbə hər iki komandanın haqqı idi".**

Bu sözləri Fransa millisinin baş məşqçisi Didye Deşam 1/4 finalda Portuqaliyaya qalib gəldikləri oyundan sonra mətbuat konfransında deyib.

Fransa millisi rəqibini penaltilər seriyasında (5:3) üstələyib. Deşam qələbəni belə şərh edib: "Ola bilsin ki, bir az daha yorğun görünürdük. Penaltilər seriyasına gəlincə, Olivier Jirunu buraxmaq istədim, lakin hakim istəyimizə məhəl qoymadı. İndi yarımfinala çıxmağın sevincini



yaşayıram. Yarımfinalda da qalib gəlmək lazımdır".

Qeyd edək ki, Fransa millisi yarımfinalda İspaniya ilə qarşılaşacaq. Oyun iyulun 9-da keçiriləcək.



Məhəmməd Füzuli -530

*Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,*
*Surəti-halım görən, surət xəyal eylər məni.*



● Klassik irsimiz

**"Füzuli azərbaycanlıdır, azərbaycanköklüdür. Onun yaradıcılığı Azərbaycan ədəbiyyatı və mədəniyyətinin bəhrəsidir. Füzuli başqa ölkələrdə də məşhurdur. Lakin onu azərbaycanlılar qədər özününkü sayan yoxdur".**

***Heydər ƏLİYEV***

**"Təkrarsız lirik və qəlb şairi" (Mir Cəlal), "türkdilli zəmin üzərində ucalmış böyük Azərbaycan şairi" (Həmid Araslı) Məhəmməd Füzulinin yaradıcılığı Azərbaycan ədəbi dili tarixində xüsusi bir mərhələdir.**

**Məhəmməd Füzuli ədəbi-bədii yaradıcılığı ilə orta əsrlərdə hakim olan "şair fars dilində yazmalıdır" kabusunu dağıdaraq ana dilində gözəl, lətafətli şeir yazmağın mümkünlüyünü öz yaradıcılığı ilə təsdiqləyən görkəmli şeir ustadıdır. Füzulinin bədii-estetik söz sənəti bütün türk dünyasına şərəf bəxş etmişdir.**

**Dahi söz ustadının bədii yaradıcılığı orta əsrlərdə ən azı üç dildə yazıb-yaradan poliqlotlar sırasını zənginləşdirən regional - Azərbaycan mədəniyyətinin təzahürü, Azərbaycan klassik poeziyasının zirvəsidir. Şairin dili orta əsrlər Azərbaycan ədəbi-bədii dilinin bütün istiqamətlərdə inkişaf xəttini əks etdirən orijinal və nümunəvi bir dildir, Azərbaycan xalq dilinin ən yüksək səviyyəsidir.**

**Şair anadilli əsərlərində Azərbaycan türk dilinin xəlqi, milli köklərindən, xalqın dilində əsrlərlə işlənib cilalanmış söz və ifadələrdən maksimum istifadə edərək özünün sələfləri Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai kimi söz ustadlarının milli ənənələrə köklənən üslubi orijinallıqlarını yaradıcı şəkildə davam etdirmiş, özündən sonra gələn yüzlərlə xələflərinin yaradıcılıqları üçün mükəmməl sınaq meydanı, istiqamətverici faydalanma mənbəyi olmuşdur. Məhəmməd Füzulinin ana dilində yazdığı divanı orta əsrlər klassik Azərbaycan ədəbi dilinin ən mükəmməl nümunəsi kimi XVI əsr Azərbaycan ədəbi dilinin ümumi inkişaf tarixini, onun fonetik, leksik və qrammatik normalarını özündə əks etdirir.**



# Azərbaycan ədəbi dili tarixində Məhəmməd Füzuli

Ana dilimizdə yazılmış şeirin ən gözəl nümunələrini yaratmış Məhəmməd Füzuli öz təkrarsız əsərləri ilə dilimizi yüksəkliklərə qaldırmış, klassik Azərbaycan, habelə digər türk xalqlarının poeziyasının inkişafına qüvvətli təsir etməklə möhtəşəm bir ədəbi məktəb yaratmışdır. Söz mülkünün sultanı olan sənətkar üç dildə - Azərbaycan, ərəb və fars dillərində nadir sənət əsərləri yaratmış, yaradıcılığında ana dilinə üstünlük verməklə doğma dilinin məna zənginliklərini göz önündə canlandırmış, onun poetik imkanlarını bütün parlaqlığı və əlvanlığı ilə nümayiş etdirməyə nail olmuşdur.

Füzuli yaradıcılığında XVI əsr Azərbaycan ədəbi dilinin inkişaf xəttinin əsas istiqamətlərini mükəmməl şəkildə əks etdirən ustad bir şairdir. Əsərlərində Azərbaycan türk dilinin milli, xəlqi zəminini qoruyub saxlamış, dövrün qalib dilləri, ərəb, fars dillərindən qədərincə faydalanmış, ana dilini bu dillərlə canlı rəqabətə qatmış və bu yarışmada qalib çıxdığını öz bədii yaradıcılığı ilə təsdiq etmişdir. Məhəmməd Füzuli mükəmməl divanları ilə xüsusi şöhrət tapmış, "Şərq poeziyasının günəşi" (Gibb) adını qazanmışdır. "Üçdilli nəhəng "türkzəban" türk ləfzilə şeir yazmağın bütün çətinliklərini asan etmək qüdrətinə malik olmuş, bu qüdrət ona ana dilinə dəruni sevgisindən və dəruni hörmətindən gəlmişdir"(Ağamusa Axundov).

1494-cü ildə Bağdad yaxınlığındakı Kərbəla şəhərində doğulub boya-başa çatmış Məhəmməd Füzulinin gənclik illəri və ilkin formalaşma dövrü Bağdadın elm-mədəniyyət mərkəzi olması zamanına təsadüf etmişdir. Həmin dövrlərdə Bağdad şəhərində, ümumən İraqda Azərbaycan türklərinin məskunlaşması və "Azərbaycan-türk mühitinin" mövcud olması dahi şairin Azərbaycan dilində Şərq poetikası ənənələrinə uyğun janr nümunələri qələmə almasına və doğma ana dilində "Divan" bağlamasına şərait yaratmışdır. İraqda, indinin özündə belə iki milyondan artıq türkman-azərbaycanlı yaşayır. Tarixi şəxsiyyət, klassik Azərbaycan şairi Şah İsmayıl Xətainin misralarında da "türkman" sözünün işləndiyini görmək olur:

Yetdikcə tükənir ərəbin kuyi-məskəni,
Bağdad içində hər necə kim, türkman qopar.

XVI əsr Azərbaycan ədəbi dilinin nəhəng şairi Məhəmməd Füzuli Bağdadın türk dili mühitində yaşamış, "Bağdad Füzuli üçün ana dili mühiti olmuşdur" (Tofiq Hacıyev).

Dahi şair yaradıcılığında xalq danışıq dilinin incəliklərindən, xalqın yaratdığı obrazlı ifadələrdən, sözlərin məna çalarlarından bacarıqla istifadə etmiş, poetik dili xəlqi keyfiyyətlərlə zənginləşdirmişdir. Bu zənginlik türk mənşəli və fars, ərəb dillərindən alınmış "lirik-poetik" leksika (eşq, göz, kirpik, dodaq, diş, məhəbbət, mey, ney, rüxsar, murad, tiğ, çeşm, boy, qədd, ah, fəğan və s.) və lirik qəhrəmanın (gözəlin, dilbərin) poetik obrazının əsas ifadə vasitəsi kimi şairin dilində çox fəal olan izafət quruluşlu sözlərin (aşiqi-sadiq, güli-rüxsar, fəsli-gül, şəmi-rüx, zülfi-pərişan, sərvi-xuraman və s.), habelə Azərbaycan türkmənşəli feillərin idarəsi ilə yaranan lirik məzmunlu mürəkkəb feillərin və feili birləşmələrin (yelə vermək, hicrə doymaq (dözmək), viran olmaq, nitqi kəsilmək, ayağına düşmək (yalvarmaq), ayağa düşmək (əyağın - badənin içindəki meyə işarədir), kam bulmaq, fəda etmək və s.) dahi Füzulinin məxsusi lirizminin üzə çıxarılmasında, eləcə də ümumən Azərbaycan klassik poeziyasının, xüsusən XVI əsr Azərbaycan ədəbi dilinin lirik-sentimental (bədii) üslubunun zənginləşməsində və formalaşmasında mühüm vasitə olması ilə nəzərə çarpır. Professor Mir Cəlal Paşayev Füzuli haqqında yazırdı: "Füzulinin sənət duyğuları təmiz, səmimi olduğu kimi, fikirləri də dərin və doğru idi. Odur ki, onun şeiri istər forma, istərsə də məzmun etibarilə çox möhkəm vəhdətə söykənirdi. Sənətin elmi və doğru anlayışına əsaslanırdı".

Füzuli dilini səciyyələndirən xüsusiyyətlərdən biri də nümunələrdə külli miqdarda ərəb və fars dilindən alınma sözlərin işlənməsidir. Bu onu göstərir ki, XVI əsrdə həmin alınmalar artıq ümumxalq dilində də işlək olmuş və şair bunların çox hissəsini ozamankı xalq dilindən əxz etmişdir. Beləliklə, böyük ustad düşünə-düşünə, şüurlu şəkildə belə alınmaları ədəbi dilə cəlb etməklə həm öz dilinin, həm də bütövlükdə XVI əsr Azərbaycan ədəbi dilinin əhatə dairəsinin genişlənməsinə, onun söz ehtiyatının zənginləşməsinə nail olmuşdur. Başqa sözlə desək, Füzulinin dilində alınma sözlər milli söz mühitində yad olduğunu sanki "unudur", oxucu üçün də anlaşıqlı olur. Füzulinin dilində yaşadığı dövr üçün məqbul sayılan, həmin dövrün ədəbi dilində vətəndaşlıq hüququ qazanmış bəzi alınmalar üstünlük təşkil etməklə, ana dili sözləri ilə zəngin sinonim cərgələrin yaranmasında əsas mənbələrdən biri (birincisi milli sözlərdir) olmaqla, ümumilikdə ana dili sözləri ilə müvazi işlənərək şairin dilinin bədii-estetik zənginliyini təmin edir. Lakin bir qrup alınmalar Füzulidən sonrakı ədəbi dildə ara-sıra özünü göstərsə də, ziyalı (savadlı) təbəqənin üslubunda məhdud dairədə işlənsə də, əsasən, ümumxalq dilinə daxil ola bilməmiş, şairin dilində xüsusi intensivliyə malik olmamışdır.

Məhəmməd Füzuli bədii sözün yaradıcısı kimi söz və ifadə imkanlarından dahiyanə istifadə edərək, Azərbaycan klassik şeirinin təkrarsız nümunələrini yaratmaqla şeir sənətini klassik şeir səviyyəsinə qaldırdı. Bu prosesdə şair Azərbaycan dilinin daxili imkanlarından, onların xalq dilində olan rəngarəng məna çalarlıqlarından, Azərbaycan dili sözlərinin zəngin çoxmənalılığından, eləcə də ümumxalq dilində yer tutmuş alınmalarından yerli-yerində istifadə edərək, zəngin leksik-semantik söz qrupları silsilələrini yaratmışdır. Qəzəllərinin bədii dəyərini, poetik və estetik vüsətini zənginləşdirən sinonim cərgələrin, xalq yaradıcılığından gələn bədii cinasların (omonimlərin), poetik-üslubi təzadların, antitezaların yaranmasına xidmət edən bədii antonimlərin orijinal nümunələrinin yaranmasında böyük şair, əsasən demək olar ki, ümumxalq Azərbaycan dilinin milli söz xəzinəsindən bəhrələnmişdir.

Məhəmməd Füzuli klassik Şərq şeirinin bütün janrlarından istifadə etmişdir. O, mövzuya, məzmun və ideyaya uyğun olaraq hər janrın imkan və xüsusiyyətlərini nəzərə alıb bir-birindən gözəl sənət əsərləri yaratmışdır. Lirik şeirin qəzəl, qəsidə, rübai, qitə, tərkibbənd, tərcibənd, müxəmməs, müsəddəs, mürəbbe janrlarında onun yazdığı əsərlərin sayı, demək olar ki, mindən çoxdur. Bənzərsiz sənət nümunələrində XVI əsr həyatının rəngarəng, poetik mənzərəsi aydın şəkildə görünür. Şair ayrı-ayrı janrlara, bu janrlarda yazdığı əsərlərə münasibətini bildirərək anadilli bədii sözün qüdrətini belə təsvir edir:

*Xəlqə ağzın sirrini hər dəm qılır izhar söz,*
*Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz?!*

*Artıran söz qədrini sidq ilə qədrin artırar,*
*Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz!*

*Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,*
*Edə hər saət səni ol uyqudan bidar söz!*

*Bir nigari-ənbərinxətdir könüllər almağa,*
*Göstərər hər dəm niqabi-qeybdən rüxsar söz!*

*Xazini-gəncineyi-əsrardır, hər dəm çəkər,*
*Rişteyi-izharə min-min gövhəri-əsrar söz!*

*Olmayan qəvvasi-bəhri-mərifət arif degil*
*Kim, sədəf tərkibi-təndir, lölöi-şəhvar-söz!*

*Gər çox istərsən, Füzuli, izzətin az et sözü*
*Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz!*

Şair XVI əsr ədəbi dili normalarına riayətlə anadilli nümunələrində sözün poetik çalarından istifadə etmiş, insanı və insani dəyərləri daha yüksəkdə tutmaqla xalq kəlamına yaxın olan, hətta öyüd, nəsihət məzmunlu fikirlərə də müraciət etmişdir:

*Rəfiqin olsa dilsiz canəvər, həm saxla raz ondan,*
*Saqın, sirrin düşürmə dillərə Məcnuni-rüsva tək.*

Şair beytdə insanın Allahın yaratdığı canlı varlıqların hər birindən daha yüksəkdə durduğunu vurğulayaraq hər kəsə aid olan şəxsi problemlərin gizli qalmasını məsləhət bilir. Nümunənin izahı belədir: "Səninlə dilsiz canavar dostluq etsə belə, yenə də öz sirrini gizli saxla, yoxsa Məcnun kimi sirrin dillərə düşüb rüsva olarsan". Bu beyti oxuyanda istər-istəməz xalq deyimləri də yada düşür: "Sirrini demə dostuna, dostunun da bir dostu var". Eyni məzmunlu digər bir nümunəyə diqqət edək:

*Gər basıb əl nəbzimə, təşxis qılsan dərdimi,*
*Al əmanət, qılma hər bidərdə izhar, ey həkim!*

Bu nümunədə də şair hər kəsin özünə aid olan məsələlərdən başqalarının agah olmasını istəmir. Şair demək istəyir ki, insan yalnız özünə aid olan məsələləri özü hər kəsdən daha yaxşı bilir, cünki digər biri bundan hali olsa da, onun vəziyyəti eşidənə adi görünəcək. Atalar sözlərində deyildiyi kimi: "Dərd çəkənə görədir".

*Qorxaq kimi onlar qəm əlindən gülü xardır,*
*Böyründəsə, yüzlərcə əzab, zülm oxu vardır.*

Füzuli sözün poetik imkanlarından istifadə etməklə qorxaqlığı aciz bir keyfiyyət kimi izah edir və qorxaq olan birinin əzab və zülmünün də artıq olduğunu göstərir.

*Mömini-pak olanın çeşmi-təri giryan olur,*
*Çeşmi-giryan olmayan, əlbəttə, biiman olur.*

Nümunədə Füzuli demək istəyir ki, "təmiz ruha malik olan din adamının gözləri həmişə ağlayır, əlbəttə, gözlərindən yaş axmayan insan imansız, dinsiz olur". Burada göstərilir ki, ruhun, imanın saflığı, təmizliyi insanı Allaha daha da yaxınlaşdırır, onun varlıq haqqındakı ülvi hisslərini artırır.

Füzuli bəzən ana dilinə aid alleqorik məna daşıyan sözlərdən simvol kimi istifadə etməklə poetik mənanı daha da genişləndirməyə çalışır. Məsələn:

*Xah sincab eyləsin fərşin, Füzuli, xah kül,*
*Hicr ilə mütləq yuxu görməz göz, əglənməz könül.*

Bu nümunədə "sincab" sözü eyni adı daşıyan heyvanın dərisi mənasında işlənməklə, "Füzuli, sənin döşənəcək yerin istər sincab dərisindən olsun, istərsə də küldən, yenə də dərd əlindən nə rahatlıq görərsən, nə də ki, sevinərsən"- şəklində dərk edilir. Şairin dilində bir-birinə mənaca yaxın olan sözlər həm XVI əsr ədəbi dili, xalq dili üçün ümumişlək xarakter daşıdığı kimi, həmçinin də müasir ədəbi dilimizdə, xalqın məişətində, gündəlik həyatında istifadə olunmaqdadır: nazü-qəmzə, dərdi-sər, dərdübəla, qədrü-qiymət və s.

Füzulinin dilini gözəlləşdirən, şairin ana dilinə vurğunluğunu sübut edən faktlardan biri də frazeoloji vahidlərin nümunələrdə ifadə etdikləri məna rəngarəngliyidir. Nümunələrdə işlənən suzan olmaq (tutuşmaq, yanmaq, göynəmək), ahü-fəğan etmək, fəryad çəkmək, yelə vermək (Füzulinin dilində "yox etmək" məzmunu ifadə edən "yelə vermək" feili birləşməsi müasir ədəbi dilimizdə, eləcə də danışıq dilində "mənasız həyat sürmək" mənasında işlənir), pamal etmək, yad qılmaq / yad etmək (yada salmaq, xatırlamaq) və s. bu kimi yüzlərlə sabit söz birləşmələri Füzulinin dil sənətkarlığını təmin edən cəhətlərdən hesab edilməlidir. Cünki şairin dilində işlənən bu cür frazeoloji vahidlərin, demək olar ki, böyük bir qismi bu günün özündə də işləkliyini qoruyub saxlamaqla xalq dilində, onun məişətində ümumişləkdir. Bu cür geniş mənaya malik xalq dilinə aid nümunələr, ifadələr Füzuli yaradıcılığında yetərincədir.

Öz sənətkarlığı ilə divan ədəbiyyatındakı şeirə xas olan bütün incəliklərə toxunan və onun gizli sirlərini parlaq boyalarla aça bilən şairin "dəsti-xətti" əvəzsizdir. Füzuli yaşadığı dövrün bütün elmləri ilə yaxından tanış olmuş, əsasən də dövrün ədəbi dil normalarına sadiq qalmaqla və bunları öz qiymətli nəzm və nəsr nümunələrində sözlərin və birləşmələrin ifadə imkanlarında göstərmişdir. Şair qələmə aldığı nümunələrdə dil xətasına yol vermədən sözləri elə yerləşdirmişdir ki, eyni fonetik tərkibə malik olan lüğəvi vahidlər bir neçə dəfə işlənməsinə baxmayaraq, öz poetik məna incəliyini itirmir. Təbii ki, bu cür diqqət və mənanı hissetmə bacarığı hər kəsə nəsib olmur.

Doğma Azərbaycan dilinə üstünlük verən, ən mühüm əsərlərini bu dildə yazan şair üç dildə yüksək sənət nümunələri yaratmaqla bütün janrların imkanlarından istifadə etmiş, humanizmin, gözəlliyin ehtiraslı təbliğatçısı, şərin, eybəcərliyin güclü inkarçısı olmuşdur. Professor Mirzağa Quluzadənin fikrincə: "Şeir istedadının təhsil və tərbiyə ilə inkişaf etdirilməsinin zəruri olduğunu, yaxşı şair olmaq üçün təhsilin əsas şərt olduğunu bildirərək Füzuli Azərbaycanca və farsca divanlarının müqəddiməsində qiymətli mülahizələr irəli sürmüşdür: "Elmsiz şeir əsası yox divar olur və əsassız divar ğayətdə bietibar olur".

Ədəbi dilə məxsus yüksəklik, xalq dilinə məxsus təbiilik Füzulinin şeir üslubunu səciyyələndirir. Dil sahəsində daha mütərəqqi mövqe tutan dahi ustad ana dilinin varlığını hakim dil mühitində daim təsdiq və sübut etmişdir. Füzuli təkcə divanlar yaradan şair deyildir, həmçinin xalqını sevən, onun dilinə, mənəviyyatına yaxından bələd olan səmimi insan, mükəmməl dil bilicisidir. "Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatında qəzəl janrının əvəzsiz dahi sənətkarıdır. Füzuliyə qədərki şairlərimizdən, ondan sonra gələn Vaqiflər, Vidadilər, Zakirlər, Seyid Əzimlər, Bahar Şirvanilərdən heç biri Füzuli səviyyəsində, Füzuli kimi incə, zərif, kamil qəzəl yarada bilməmişdir" (Mir Cəlal). "Məhəmməd Füzulinin bədii yaradıcılığı Azərbaycan ədəbi dilinin inkişaf tarixində möhtəşəm bir mərhələdir; o, özünəqədərki düşüncə tərzini ümumiləşdirmiş və yeni dövr üçün münbit bir zəmin yaratmışdır" (Tofiq Hacıyev).

Füzulinin dili Azərbaycan xalq dilinin yüksək səviyyəsidir. O, doğma Azərbaycan dilində bəşəri sənət abidələri ucaltmışdır. Füzulinin və ümumən XVI əsr Azərbaycan dilinin lüğət fondu, qrammatik quruluşu bugünkü Azərbaycan dilinə yaxındır (Əbdüləzəl Dəmirçizadə).

Azərbaycan xalqının ölməz şairi Məhəmməd Füzuli bədii-estetik dühası ilə nə qədər göylərə yüksəlsə də, kökləri ilə Azərbaycan türk dilinə bağlıdır. Ümumi halda Füzuli "böyük türk dünyası"nın nadir istedada malik dahi şairidir. Bununla belə, Azərbaycan dilinin, XVI əsr və ümumən Azərbaycan ədəbi dilinin bədii üslubunun inkişaf edib formalaşmasında ölməz klassikin mövqeyi müqayisəedilməz dərəcədə böyükdür.

***Sevinc AĞAYEVA,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

## QƏZƏLLƏR

Eşqdən canımda bir pünhan mərəz var, ey həkim!
Xəlqə pünhan dərdim izhar etmə, zinhar, ey həkim!

Var bir dərdim ki, çox dərmandan artıqdır mənə,
Qoy məni dərdimlə, dərman eyləmə, var, ey həkim!

Gər basıb əl nəbzimə, təşxis qılsan dərdimi,
Al əmanət, qılma hər bidərdə izhar, ey həkim!

Gəl mənim tədbiri-bihudəmdə sən bir sə'y qıl
Kim, olam bu dərdə artıqraq giriftar, ey həkim!

Gör təni-üryan ilə əhvalımı hicran günü,
Var imiş ruzi-qiyamət, qılma inkar, ey həkim!

Çəkməyincə çareyi-dərdimdə zəhmət bilmədin
Kim, olur dərmani-dərdi-eşq düşvar, ey həkim!

Rənc çəkmə, sihhət ümmidin Füzulidən götür
Kim, qəbuli-sihhət etməz böylə bimar, ey həkim!

❖ ❖ ❖

Hüsnün olduqca füzun, eşq əhli artıq zar olur,
Hüsn nə miqdar olursa, eşq ol miqdar olur.

Cənnət üçün mən' edən aşiqləri didardən,
Bilməmiş kim, cənnəti aşiqlərin didar olur.

Eşq dərdindən olur aşiq mizaci - müstəqim,
Aşiqin dərdinə timar etsələr, bimar olur.

Zahidi-xudbin nə bilsin zövqini eşq əhlinin,
Bir əcəb meydir məhəbbət kim, içən huşyar olur.

Eşq sevdasinə sərf eylər Füzuli ömrünü,
Bilməzəm, bu xabi-qəflətdən qaçan bidar olur.

❖ ❖ ❖

Can çıxır təndən könül zikri-ləbi-yar eyləgəc,
Tən bulur can yenlədən ol ləfzi təkrar eyləgəc.

Qılma, ey əfqan, gözün bidar, məsti-xab ikən,
Olmaya bir fitnə peyda ola, bidar eyləgəc.

Söhbətimdən ar edib, ey gül, məni tərk etmə kim,
Gül olur əfsürdə tərki-söhbəti-xar eyləgəc.

Varımı fikri-dəhanınla yox etdim kim, qəza
Böylə əmr etmiş mana, yoxdan məni var eyləgəc.

Ərzi-rüxsar et bu gün, ey məh, güm olsun göydə gün,
Öylə kim əncüm olur, gün ərzi-rüxsar eyləgəc.

Hər zəban bir tiğidir guya Züleyxa qətlinə,
Yusifi almaqda əhli-eşq bazar eyləgəc.

Naleyi-zarım, Füzuli, xoş gəlir ol gülrüxə,
Açılır gül könlü bülbül naleyi-zar eyləgəc.




# İlk "ağıllı" avtomobil yolu

**ABŞ-nin Miçiqan ştatında ölkənin ilk smart avtomobil yolu layihəsinin reallaşdırılmasına başlanılıb. Ştatın Ann-Arbor və Detroyt şəhərləri arasındakı 4,82 kilometrlik avtomobil yolu sahəsi xüsusi sensorlar və rabitə avadanlıqları ilə təchiz olunub.**

Gələcəkdə bu layihənin 64,37 kilometrlik yol sahəsini əhatə edəcəyi gözlənilir.



Bu layihə avtomobil yollarındakı yüklənməni aşağı salacaq, qəzaların qarşısını alacaq və yolda yarana biləcək fövqəladə hallara qarşı operativliyi artıracaq.

Layihə çərçivəsində yol boyunca sensor və kameralara sahib sütunlar yerləşdirilib. Onlar avtomobil yolunun hər bir hissəsini monitorinq edərək, yolda baş verəcək təhlükəli səyahət hallarının təyin edilməsi istiqamətində kameralardan əldə edilən görüntüləri süni zəka alqoritmi vasitəsilə analiz edirlər.

# "Reader"ə məşhur şəxslərin səsləri əlavə edilib

**"ElevenLabs" kitabları audioya çevirən "Reader" xidmətinə dünyasını dəyişən məşhur şəxslərin səslərini əlavə etməyə başlayıb.**



Şirkət bunun üçün müəllif hüquqlarını əldə etdiyini bildirib. İstifadəçilər Cudi Qarland, Bört Reynolds, Ceyms Din və Sör Laurens Oliverin səslərindən istifadə edə biləcəklər.

Təəssüf ki, "Reader"dən hazırda yalnız ABŞ, Böyük Britaniya və Kanadada istifadə edilir. Hələlik iOS ekosistemi üçün əlçatan olan tətbiqdən tezliklə Android istifadəçiləri də yararlana biləcəklər.

# Batareya istehsalının xərcləri azaldılacaq

**"LG" batareya istehsalının xərclərini azaldacaq quru örtük texnologiyasını kommersiyalaşdırmağı planlaşdırır. Ənənəvi yaş örtük texnologiyası zamanı kimyəvi maddələr həlledicilərdə həll edilir və daha sonra yüksək temperaturlu böyük sobalarda qurudulur.**



Quru örtükdə isə qurutma sobalarından və digər avadanlıqlardan istifadə etməyə ehtiyac olmadığı üçün əhəmiyyətli pul və enerji qənaəti əldə edilir.

2019-cu ildə "Maxwell" startapını satın alaraq bu sahəyə sərmayə qoyan "Tesla" Texasdakı fabrikində 4680 batareya elementi üçün anod istehsalında tamamilə quru örtük üsuluna keçməyi bacarıb. Lakin katod materialının təbiətinə görə, quru örtüklə emal etmək daha çətin olduğundan, hələlik bu yeni texnologiyaya keçilməyib. Rəqiblərini qabaqlayaraq 2028-ci ilə qədər quru örtük texnologiyasını həyata keçirəcək "LG" bununla batareya istehsalı xərclərini 17-30 faiz azaltmağı hədəfləyir.

# Hava şarı ilə kosmosa səyahət ediləcək

**"Space Perspective" kosmik turizm şirkəti insanları Yerdən 32 kilometr hündürlüyə qaldıracaq hava şarının inşasını tamamlayıb.**



Hava şarının ilk sınaq uçuşu da həyata keçirilib. Şirkətin məlumatına görə, raketlərdən fərqli olaraq, onların inşa etdiyi kapsullar yerdən daha yavaş və yumşaq şəkildə ayrılır.

Kosmosa səfərin altı saat çəkəcəyi bildirilir. 9 nəfərlik hava şarının daxili hissəsi geniş və rahatdır. Kapsulda bar, Wi-Fi və sərnişinlər üçün sanitar qovşaq quraşdırılıb. Sərnişinlər kapsulun içərisində olarkən Yerin 360 dərəcə mənzərəsini seyr edə biləcəklər. Səyahət bu ilin sonuna planlaşdırılır.

# Bionik ayaq protezi hazırlanıb

**ABŞ-nin Massaçusets Texnologiya İnstitutunun tədqiqatçıları bionik ayaq biləyi protezini hazırlayıblar. Sözügedən protez ayaq biləyinə sahib olmayan şəxsin ayaq hissəsindəki əzələ daralması ilə bağlı siqnalları qəbul edərək ayağın çalışma alqoritmini tənzimləyir. Bunun sayəsində pasiyent protez vasitəsilə rahatlıqla hərəkət edə bilir.**



Bədən hissələrindən hər hansınınsa amputasiyası o hissənin çalışmasında iştirak edən sinir birləşmələri ilə əzələləri parçalayır. Bu əzələlər konkret hərəkətlərdən cavabdeh olan aqonistlərə və əks hərəkətləri yerinə yetirən antoqonistlərə ayrılırlar. Mütəxəssislər güman edirlər ki, məlumatların antoqonist əzələlərdən əldə edilməsi halında aqonistlərin amputasiyası sinir siqnalının bərpasına və protezin siqnala reaksiyasına mane olmayacaq. Bədən hissəsinin amputasiyası zamanı xüsusi tibbi müdaxilə sayəsində antoqonist əzələlərdə neyrointerfeys yaradılır. Yaradılan neyrointerfeys öz növbəsində antoqonist əzələlərin daralması impulslarının qəbulu üçün nəzərdə tutulub. Daha sonra bu siqnallar ayaq biləyi protezi tərəfindən qəbul edilir. Antoqonist əzələlərdən qəbul edilmiş siqnallar deşifrələnərək protezin bilək hissəsindəki motorlara ötürülür. Bu isə şəxsin hərəkətini daha təbii edir.

# İnsan beyni ilə çalışan robot

**Çinli alimlər dünyada ilk dəfə insan beyni ilə idarə olunan robot hazırlamağa nail olublar. Beyin hüceyrələri tərəfindən idarə olunan robot üçün "MetaBOC" adlı beyin-kompüter interfeysi hazırlanıb.**

Bu interfeys sayəsində hüceyrələrin və elektrodların birləşdirildiyi bir sistem işə salınıb. Layihə çərçivəsində laboratoriyada yetişdirilən insan beyni hüceyrələri xüsusi hazırlanmış çipdə böyüdülərək robotun hərəkətlərini idarə etməyə yönəldilib.

Araşdırma qrupunun rəhbəri doktor Con Smit bildirib ki, bu texnologiya təkcə robototexnika sahəsində deyil, həm də nevroloji xəstəliklərin müalicəsində inqilab yarada bilər. O, yeni texnologiyadan istifadə edərək, iflic olan xəstələrin hərəkətliliyini bərpa etməyi hədəfləyib. Layihə tibb və texnologiya dünyasında böyük həyəcan yaradıb. Mütəxəssislər bildiriblər ki, bu texnologiya gələcəkdə insan-maşın qarşılıqlı əlaqəsində yeni era başlada və insan beyninin sərhədlərini daha da genişləndirə bilər.

# "Hyundai"ın yeni elektromobili

**Cənubi Koreyanın avtomobil istehsalçısı olan "Hyundai" büdcəli elektromobillər bazarına daxil olur. Bu istiqamətdə şirkət "Hyundai Inster" adlı elektromobilini təqdim edib.**



"Hyundai Inster" iki versiyada hazırlanır. 42 kilovat-saat həcmli batareyaya sahib birinci versiya bir dəfə şarj olunandan sonra 300 kilometr, 49 kilovat-saat həcmli batareyaya sahib ikinci versiya isə bir dəfə şarj olunandan sonra 355 kilometr yol qət edə bilir. "Hyundai Inster"in interyerində həm düyməli, həm də sensorlu idarəetmə elementləri mövcuddur. Şirkətdən bildirilib ki, elektromobilin salonunda 10,3 düym ölçülü məlumat paneli və eyni ölçüdə multimedia ekranı var. Elektromobil ilk növbədə Cənubi Koreyada, daha sonra isə Avropada və digər regionlarda satışa çıxarılacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə**

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Milli Yaylaq Festivalı: türk xalqlarının ortaq tədbiri





**Göygöl rayonunun Sarıyel ərazisində yerləşən "Xan yurdu" yaylağında böyük izdiham yaşanırdı. Yüzlərlə insan III Milli Yaylaq festivalının açılışına toplaşmışdı.**









Geniş coğrafi məkanda yaşayan türksoylu xalqların ortaq tarixi ənənələrinin və mədəniyyətlərinin qarşılıqlı tanıdılması və bu sahədə xalqlararası mədəni-etnoqrafik, elmi-praktik əməkdaşlıq üçün uğurlu və əlverişli platforma olan, zəngin yaylaq ənənələrinin və unikal elat mədəniyyətinin yaşadılması, tanıdılması və təbliği məqsədilə keçirilən festival insanlarda əsl bayram əhvali-ruhiyyəsi yaratmışdı.

Festivalın iyulun 5-də keçirilən rəsmi açılışında qonaqları simvolik olaraq Dədə Qorqud qarşıladı, boy boyladı, söz söylədi, xeyir-dua verdi. Sonra nağaraçıların müşayiətində igidlərin qılınc rəqsi nümayiş olundu. Ardınca iştirakçılar müxtəlif xalqların adət-ənənələri ilə tanış oldular, pəhləvanların çıxışlarını izlədilər.

Gənclər və idman naziri Fərid Qayıbov, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev və qonaqlar ərazini gəzərək Milli Yaylaq Festivalında görülən işlərlə tanış oldular. Onlar etnoqəsəbənin ərazisində yaşayan yurdları, Cıdır Meydanı, "Yaylaq bazarı", "Sənətkarlıq guşəsi", "Dədə Qorqud ocağı", "Yaylaq yatağı", "Pəhləvan meydanı", "Aşıq Ələsgər ocağı", "Yaylaq süfrəsi" və digər müxtəlif mövzulu sahələrə baxdılar, etnik musiqi qruplarının çıxışlarını izlədilər, milli rəqsləri, xalq mahnılarını, Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyət nümunələrini, səhnəciklər və teatr kompozisiyalarını, xalq oyunlarını seyr etdilər.

Festivalda Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə keçirilən sərgi-satış yarmarkasında KOB subyektləri tərəfindən hazırlanan şəbəkə sənəti, rəssamlıq, xalçaçılıq, taxta oyma, milli musiqi alətləri nümunələri və müxtəlif əl işləri nümayiş olunurdu. Mikro və kiçik sahibkarlar tərəfindən istehsal edilən məhsulların satışına dəstək olmaq və onları tanıtmaq, istehsalçılar və təchizatçılar arasında əlaqələrin genişləndirilməsi məqsədilə keçirilən "KOB Fest" satış-yarmarkasında Göygöl, eləcə də ətraf rayon və şəhərlərdən ümumilikdə 100-dən çox KOB subyektinin 1500-dən çox çeşiddə məhsul və xidmətləri sərgilənirdi. Quraşdırılmış səhnədə isə ölkəmizin musiqi kollektivləri, həmçinin Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və digər ölkələrdən olan ifaçılar bir-birini əvəzləyirdi.

Bu gün yekunlaşan III Milli Yaylaq Festivalı "Cavad xan" Tarix və Mədəniyyət Fondu ilə "Kap.az - Fərqli Turizm MMC-nin təşkilatçılığı, Dövlət Turizm Agentliyi, Gənclər və İdman Nazirliyi, Türk Əməkdaşlıq və Koordinsiya Agentliyi (TİKA), Dünya Etnoidman Konfederasiyası, Gəncə şəhər, Göygöl rayon icra hakmiyyətləri, Dövlət Məşğulluq Agentliyi və KOBİA-nın dəstəyi ilə təşkil olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının kollektivi Milli Aviasiya Akademiyasının kafedra müdiri professor Səlim Müslümova həyat yoldaşı

**NƏZAKƏT MÜSLÜMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3199
Sifariş 1459

Qiyməti 60 qəpik